## PREZİDENT İLHAM ƏLİYEV TÜRKİYƏNİN KƏND TƏSƏRRÜFATI VƏ MEŞƏÇİLİK NAZİRİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL EDİB

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 10-da Türkiyə Respublikasının kənd təsərrüfatı və meşəçilik naziri Bekir Pakdemirlinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib. AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı Bekir Pakdemirlini kənd təsərrüfatı və...



Bax səh. 2

## AZƏRBAYCAN İQTİSADİYYATINDA FUNDAMENTAL KEYFİYYƏT DƏYİŞİKLİKLƏRİ

Məlum olduğu kimi, bu yaxınlarda Dünya Bankı tərəfindən tərtib olunmuş “Doing Business-2019” reytinqində Azərbaycan iqtisadiyyatı əvvəlki dövrlə müqayisədə 32 pillə irəliləyərək 25-ci sırada yer almış lider islahatçı ölkə kimi ən çox islahat aparan ilk onluğa daxil olmuşdur. Hesabatda dünyanın 190 ölkəsi arasında müəyyən edilmiş reytinqdə belə sürətli irəliləyişin əsas səbəbi kimi biznesin həyata keçirilməsi prosesinin sadələşdirilməsi istiqamətində ölkəmizdə rekord sayda islahatların...



Bax səh. 3-5



Yeni Azərbaycan Partiyası Azərbaycanı müstəqillik yolunda inkişaf etdirməyə qadir bir partiyadır


# YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. 11 dekabr 2018-ci il, çərşənbə axşamı / № 234 (5361). Yeni Azərbaycan Partiyasının orqanı. Qiyməti 40 qəpik


# Prezident İlham Əliyev Beynəlxalq Şahmat Federasiyasının prezidentini qəbul edib





## Prezidentin iş günü

Prezident İlham Əliyev Burkina-Fasonun Prezidenti Rok Mark Kristian Kaboreyə təbrik məktubu göndərib.

Prezident İlham Əliyev Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrının əməkdaşlarına fəxri adların verilməsi haqqında Sərəncam imzalayıb.

Prezident İlham Əliyev Vaqif Firudin oğlu Əsədovun “Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu” ilə təltif edilməsi haqqında Sərəncam imzalayıb.

Prezident İlham Əliyev Ceyhun Mustafa oğlu Topçubaşova Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünün verilməsi haqqında Sərəncam imzalayıb.

Prezident İlham Əliyev Azərbaycan Respublikasında elmi və elmi-pedaqoji kadrların attestasiyasının aparılması işinin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında Sərəncam imzalayıb.

Prezident İlham Əliyev övladlığagötürmə sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında Fərman imzalayıb.

Prezident İlham Əliyev Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrı əməkdaşlarının təltif edilməsi haqqında Sərəncam imzalayıb.



## BAKIDA AQRAR VƏ YAŞIL TEXNOLOGİYALAR ÜZRƏ BEYNƏLXALQ FORUM KEÇİRİLİR

Dekabrın 10-da Azərbaycanda ilk dəfə aqrar və yaşıl texnologiyalar üzrə “AgTech and Green Energy” mövzusunda beynəlxalq forum işə başlayıb. AZƏRTAC xəbər verir ki, Kənd Təsərrüfatı və Energetika nazirliklərinin birgə təşkilatçılığı ilə ADA Universitetində...

Bax səh. 2

## ULU ÖNDƏR HEYDƏR ƏLİYEV MÜASİR VƏ MÜSTƏQİL AZƏRBAYCAN DÖVLƏTİNİN BANİSİDİR

Heydər Əliyev - müasir və müstəqil Azərbaycanın banisi, yaradıcısı, qurucusu, xalqımızın Ümummilli lideri, dahi və müdrik Şəxsiyyət, dünya şöhrətli siyasətçi... Ulu öndərin atdığı hər bir tarixi addımı bilavasitə bir amala - Azərbaycan dövlətinin və xalqının müstəqillik məfkurəsinin yaradılmasına yönəlmişdi. Əbəs deyil ki, bu dahi Şəxsiyyət Azərbaycan xalqı, ölkəmizin müstəqilliyə qovuşması uğrunda canını, sağlamlığını belə əsirgəməyib, bu yolda nəinki Özünün, hətta ailə üzvlərinin həyatını təhlükədə qoymaqdan çəkinməyib və biz, bu tarixi məqamların təhlilini apardıqca hər dəfə yeni şərəf səhifəsini açmış oluruq. Azərbaycan xalqının qan yaddaşına daxil olan 20 Yanvar faciəsi zamanı, demək olar ki, müqəddəratı həll olunmuş xalqının səsinə hər kəsdən əvvəl səs verən məhz bu dahi Şəxsiyyət - Ulu öndər Heydər Əliyev oldu. O zaman Ümummilli liderimiz Moskvada, Kremldə xüsusi nəzarət altında olsa da...

Bax səh. 8




## UKRAYNANIN BİRİNCİ PREZİDENTİ: HEYDƏR ƏLİYEV ÖZÜNÜ ÖLKƏSİNDƏN KƏNARDA TƏSƏVVÜR ETMİRDİ

“Heydər Əliyev Azərbaycanın Övladıdır. Bu barədə əlavə heç nə deməmək də olar... Bununla hər şey deyilib. O, öz xalqının Övladıdır. Heydər Əliyev mənimlə söhbətində həmişə Azərbaycan barədə danışırdı...

Bax səh. 6

## Ulu öndər Heydər Əliyev xalqına dərindən bağlı olan və böyük məhəbbət bəsləyən vətənpərvər şəxsiyyət idi

...Ümummilli lider Heydər Əliyevlə ilk görüşüm 1975-ci il iyun ayında olub. Həmin vaxt Qax rayonunda Suvarma Sistemləri İdarəsinin rəisi vəzifəsində çalışırdım, eyni zamanda, rayon partiya komitəsinin büro üzvü idim. Bəhs etdiyim tarixdə Azərbaycan SSRİ Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi Heydər Əliyevin qəbulunda oldum, təxminən 15 dəqiqə ərzində söhbətimiz oldu. Dahi rəhbər mənə rayonun təsərrüfat həyatı və inkişafı barədə, bu istiqamətdə perspektivlə bağlı...

Bax səh. 8

## Misir və Livan mətbuatı Ulu öndər Heydər Əliyev haqqında silsilə məqalələr yayıb

Misirin və Livanın aparıcı mətbuat orqanları Ulu öndər Heydər Əliyev haqqında silsilə məqalələr yayıb. AZƏRTAC xəbər verir ki, Misirin yarım milyon tirajla çıxan gündəlik “Əl-Əhram” qəzeti, eləcə də nüfuzlu “El-Vatan”...



Bax səh. 6

### *Vitali İqnatenko:* Heydər Əliyev zamanın fövqündə duran şəxsiyyətdir

İTAR-TASS agentliyinin sabiq baş direktoru Vitali İqnatenko Azərbaycanın Ümummilli lideri Heydər Əliyevin insanlara olan sevgisini...




Bax səh. 6

### Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin 70 illiyi münasibətilə Bakıda sərgi açılıb

Birləşmiş Millətlər Təşkilatının Azərbaycandakı nümayəndəliyi İnsan Hüquqları Günü və Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin...




Bax səh. 7

### “Xəzər hövzəsi və enerji təhlükəsizliyi” kitabının təqdimatı olub

Dekabrın 10-da Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında Beynəlxalq Münasibətlərin Araşdırılması Mərkəzinin sədri...



Bax səh. 7

### Baş Prokurorluqda Ulu öndər Heydər Əliyevin xatirəsinə həsr olunmuş anım mərasimi keçirilib

Dekabrın 10-da Baş Prokurorluqda müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, xalqımızın Ümummilli lideri Heydər Əliyevin xatirəsinə...



Bax səh. 10

## Prezident İlham Əliyev Türkiyənin kənd təsərrüfatı və meşəçilik nazirinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 10-da Türkiyə Respublikasının kənd təsərrüfatı və meşəçilik naziri Bekir Pakdemirlinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı Bekir Pakdemirlini kənd təsərrüfatı və meşəçilik naziri vəzifəsinə təyin olunması münasibətilə təbrik edərək, onun ilk dəfə nazir kimi Azərbaycana səfərindən məmnunluğunu bildirib. Prezident İlham Əliyev Azərbaycan ilə Türkiyə arasında dostluq və qardaşlıq münasibətlərinin bütün sahələrdə uğurla inkişaf etdiyini vurğulayıb, kənd təsərrüfatı sahəsində əməkdaşlığın genişləndirilməsi üçün böyük potensialın olduğunu deyib. Kənd təsərrüfatının inkişafına ölkəmizdə böyük önəm verildiyini deyən dövlətimizin başçısı bunun iqtisadiyyatın şaxələndirilməsi baxımından əhəmiyyətini qeyd edib. Prezident İlham Əliyev Türkiyənin kənd təsərrüfatı sahəsində əldə etdiyi uğurların və təcrübənin Azərbaycan üçün böyük maraq doğurduğunu deyib. Dövlətimizin başçısı Bekir Pakdemirlinin Bakıda aqrar və yaşıl texnologiyalar üzrə "AgTech and Green Energy" mövzusunda keçirilən beynəlxalq forumda iştirakının əhəmiyyətini vurğulayıb və onun Azərbaycana bu səfərinin əməkdaşlığın perspektivlərinin səmərəli müzakirəsi işinə töhfə verəcəyinə əminliyini ifadə edib.

Kənd təsərrüfatı və meşəçilik naziri Bekir Pakdemirli Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın salamlarını dövlətimizin başçısına çatdırıb. O, Bakıda aqrar və yaşıl texnologiyalar üzrə "AgTech and Green Energy" mövzusunda keçirilən beynəlxalq forumun əhəmiyyətinə toxunub, ölkəmizə böyük nümayəndə heyəti ilə gəldiyini deyib və nümayəndə heyətinin tərkibinə kənd təsərrüfatı və qida sənayesi sahəsində fəaliyyət göstərən iş adamlarının da daxil olduğunu bildirib.

Söhbət zamanı kənd təsərrüfatı sahəsində çalışan Azərbaycan və Türkiyə iş adamlarının dekabrın 11-də Bakıda birgə biznes forumunun keçiriləcəyi və bunun əməkdaşlığımızın genişləndirilməsi baxımından əhəmiyyətli olacağı vurğulanıb.

Dövlətimizin başçısı Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın salamlarına görə minnətdarlığını bildirib, Onun da salamlarını Türkiyə Prezidentinə çatdırmağı xahiş edib.

## Prezident İlham Əliyev Beynəlxalq Şahmat Federasiyasının prezidentini qəbul edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 10-da Beynəlxalq Şahmat Federasiyasının (FIDE) prezidenti Arkadi Dvorkoviçi qəbul edib.

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı, ilk növbədə, Arkadi Dvorkoviçi Beynəlxalq Şahmat Federasiyasının prezidenti kimi yüksək vəzifəyə seçilməsi münasibətilə təbrik edib, ona fəaliyyətində uğurlar arzulayıb. Prezident İlham Əliyev Arkadi Dvorkoviçin bu vəzifəyə seçilməsindən sonra qısa bir zaman ərzində Azərbaycana səfərinin önəmini qeyd edərək, bunu ölkəmizin şahmat ənənələrinə diqqət və hörmət əlaməti kimi dəyərləndirib. Dövlətimizin başçısı Arkadi Dvorkoviçin səfəri zamanı Azərbaycanla FIDE arasında əməkdaşlığın perspektivləri, ölkəmizin dünya şahmat ailəsində fəal iştirakı və qarşılıqlı fəaliyyəti ilə bağlı məsələlər ətrafında səmərəli müzakirələrin aparılacağına ümidvar olduğunu bildirib.

Xoş sözlərə və təbrikə görə minnətdarlığını bildirən Beynəlxalq Şahmat Federasiyasının prezidenti Arkadi Dvorkoviç Azərbaycana səfərindən və Prezident İlham Əliyevlə görüşündən şərəf duyduğunu deyib. O, ölkəmizin FIDE-yə verdiyi dəstəyi yüksək qiymətləndirərək, bunun təşkilatın fəaliyyətində daim hiss olunduğunu vurğulayıb. Arkadi Dvorkoviç, eyni zamanda, Azərbaycan nümayəndəsinin FIDE-nin vitse-prezidenti vəzifəsinə seçilməsinin əhəmiyyətini qeyd edib.

Görüşdə Azərbaycanda idmana, o cümlədən şahmata dövlət səviyyəsində böyük diqqət və qayğı göstərildiyi vurğulanıb.

Söhbət zamanı Arkadi Dvorkoviç "Skolkovo" Fondunun sədri kimi rəhbərlik etdiyi təşkilatın Azərbaycanla əməkdaşlığa önəm verdiyini, artıq telekommunikasiya sahəsində birgə işlərin aparıldığını deyib və digər sahələrdə də əməkdaşlığın genişləndirilməsi üçün yaxşı imkanların olduğunu qeyd edib.

# Bakıda aqrar və yaşıl texnologiyalar üzrə beynəlxalq forum keçirilir

*Heydər Əliyev Fondunun vitse-prezidenti, BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının xoşməramlı səfiri, IDEA İctimai Birliyinin rəhbəri Leyla Əliyeva forumun açılış mərasimində iştirak edib*









Dekabrın 10-da Azərbaycanda ilk dəfə aqrar və yaşıl texnologiyalar üzrə "AgTech and Green Energy" mövzusunda beynəlxalq forum işə başlayıb.

AZƏRTAC xəbər verir ki, Kənd Təsərrüfatı və Energetika nazirliklərinin birgə təşkilatçılığı ilə ADA Universitetində keçirilən forumun açılış mərasimində Heydər Əliyev Fondunun vitse-prezidenti, BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO) xoşməramlı səfiri, IDEA İctimai Birliyinin rəhbəri Leyla Əliyeva, dövlət qurumlarının rəsmiləri, fermer təsərrüfatlarının rəhbərləri, yaşıl texnologiyalar üzrə xarici ekspertlər, startap və texnoloji şirkətlərin nümayəndələri, özəl sektorun təmsilçiləri iştirak ediblər.

"Yaşıl gələcək üçün innovasiyalar" şüarı ilə keçirilən forumda çıxış edən ADA Universitetinin rektoru, səfir Hafiz Paşayev deyib: **"Hazırda yaşıl enerji və bu sahənin inkişafı üçün texnologiyalar dünyada geniş yayılıb. ADA Universiteti də bu sahəni diqqətdə saxlayır. Universitetin mövcud kampusu yaşıl və smart texnologiyası əsasında qurulub. Ümumilikdə, 50 faiz enerji bu mənbələrdən, xüsusilə geotermal enerji mənbələrindən əldə edilir. Hazırda ADA Universitetində yeni binalar da inşa olunur. Bütün bu texnologiyaların tətbiqi burada təhsil alan tələbələrin təcrübə və biliklərinin artırılmasına öz təsirini göstərir. Heydər Əliyev Fondunun vitse-prezidenti, BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının xoşməramlı səfiri, IDEA İctimai Birliyinin rəhbəri Leyla Əliyeva ətraf mühitin qorunması, təhlükəsiz, sağlam və yaşıl gələcəyə təminat verən çoxsaylı təşəbbüslərlə yanaşı, ADA Universitetində keçirilən beynəlxalq tədbirlərdə məmnuniyyətlə iştirak edir".**

Kənd təsərrüfatı naziri İnam Kərimov bildirib ki, bu cür əhəmiyyətli beynəlxalq forumun ölkəmizdə keçirilməsi Azərbaycanın bütün əməkdaşlıq sahələri üzrə hər zaman etibarlı tərəfdaş olduğunu təsdiqləyir: **"Hazırda Azərbaycanda qeyri-neft sektorunun inkişafı ən aktual məsələlərdən birinə çevrilib. Qeyri-neft sektorunun önəmli bir sahəsi olan aqrar sahə özünün yeni inkişaf mərhələsinə qədəm qoyub. Ölkədə kənd təsərrüfatı sürətlə inkişaf edir. Ümumi daxili məhsulda kənd təsərrüfatının payı artır. İxracda qeyri-neft sektorunun payı, o cümlədən kənd təsərrüfatı məhsullarının payı yüksəlib".**

Nazir deyib ki, aqrar sahəni iqtisadiyyatın prioritet sahəsi kimi müəyyən edən Prezident İlham Əliyev ərzaq təhlükəsizliyinin təmin edilməsi ilə bağlı tapşırıqlar müəyyənləşdirib: **"Bu tapşırıqlar mövcud resurslardan səmərəli istifadə etmək, məhsuldarlığı artırmaq, ətraf mühitin qorunmasını təmin etməkdən ibarətdir. Müəyyənləşən vəzifələrə uyğun olaraq fəaliyyət prinsiplərimizdə düzgün və səmərəli idarəçilik, kəndli və fermerlərə yaxınlıq, innovasiyaların tətbiqini əsas götürürük. Sevindirici haldır ki, dövlətin göstərdiyi diqqət nəticəsində qarşımıza qoyulan vəzifələrin icrası istiqamətində uğurlu nəticələr əldə olunub. Ölkədə əhalinin ərzaqla özünü təminetmə səviyyəsi yüksəlib. Bu ilin 9 ayı ərzində kənd təsərrüfatı məhsulunun ümumi həcmi ötən illə müqayisədə 4,3 faiz artıb. Ət və süd məhsulları ilə özünü təminetmə artıq 90 faizə çatıb. Bütün növ tərəvəz və meyvə üzrə bu göstərici 100 faizdən çoxdur. Müasir innovasiyaların tətbiqi ilə bu göstəriciləri daha da yüksəltmək mümkün olacaq".**

İ.Kərimov qeyd edib ki, bu forum fermerlərə belə innovativ yeniliklərlə tanış olmaq imkanı verir: **"Tədbir, eyni zamanda, təcrübə mübadiləsi aparmaq üçün yeni platforma rolunu oynayır. Belə bir forumun keçirilməsinə verdiyi dəstəyə görə Heydər Əliyev Fondunun vitse-prezidenti, BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının xoşməramlı səfiri, IDEA İctimai Birliyinin rəhbəri Leyla xanım Əliyevaya təşəkkür edirəm. Hesab edirik ki, Azərbaycan aqrar sahədə innovasiyaların daha çox tətbiq olunduğu lider ölkələrdən birinə çevriləcək".**

Türkiyənin kənd təsərrüfatı və meşəçilik naziri Bekir Pakdemirli deyib ki, ölkəsi kənd təsərrüfatı sahəsində tətbiq etdiyi yenilikləri Azərbaycanla bölüşə bilər. Türkiyədə kənd təsərrüfatı sahəsində həyata keçirilən islahatlar barədə məlumat verən nazir bildirib ki, bu istiqamətdə Azərbaycanla fikir mübadiləsi aparmaq iki ölkənin əməkdaşlığının inkişafina töhfə verəcək: **"Türkiyə kənd təsərrüfatının inkişaf etmiş sahələrində tətbiq etdiyi üsullarla, texnoloji yeniliklərlə bağlı təcrübəsini Azərbaycanla bölüşməyə hazırdır".**

Azərbaycan Respublikası Prezidentinin Aqrar siyasət məsələləri üzrə köməkçisi - şöbə müdiri Azər Əmiraslanov qeyd edib ki, ölkədə əhalinin ərzaq məhsulları ilə etibarlı təminatı və rasional qidalanmasının təmin edilməsi diqqətdə saxlanılır: **"Kənd təsərrüfatı iqtisadiyyatın mühüm sahəsidir. Aqrar sektor nə qədər inkişaf etsə də, biz ekoloji tələbləri gözləməli, ekosistemi qorumalıyıq. BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının xoşməramlı səfiri Leyla xanım Əliyevanın təşəbbüsü ilə bu istiqamətdə həyata keçirdiyi ekoloji layihələr xüsusi olaraq qeyd edilməlidir".**

A.Əmiraslanov deyib: **"Bu gün aqrar siyasətin başlıca vəzifəsi effektivlik meyarlarının və ekoloji tələbləri səmərəli şəkildə uzlaşdırmaqdan ibarətdir. Hazırda ölkədə kənd təsərrüfatının inkişafına yönəlmiş sistemli və kompleks tədbirlər görülür. Aqrar sahənin inkişafı üçün strateji məqsədlər, vəzifələr, prinsiplər və hədəflər müəyyən olunub. Aqrar sektor Azərbaycanda prioritet sahə elan edilib. Çünki o, dayanıqlı inkişafın təmin olunmasında, iqtisadiyyatın şaxələndirilməsində, yoxsulluğun azaldılmasında, ən əsası isə sosial problemlərin həllində və ərzaq təminatında xüsusi rol oynayır. Məhz bu amillərə görə ölkə başçısı aqrar sahəyə həssaslıqla yanaşır, kənd təsərrüfatının inkişafına həm iqtisadi, həm də sosial məsələ kimi baxır".**

Azərbaycan Respublikası Prezidentinin Aqrar siyasət məsələləri üzrə köməkçisi qeyd edib ki, kənd təsərrüfatı son yarım əsrdə çox ciddi texnoloji yeniləşmə dövrü keçib: **"Hazırda müasir kənd təsərrüfatı mürəkkəb və bahalı texnologiyalara əsaslanan, eyni zamanda, böyük investisiyalar tələb edən istehsal sahəsinə çevrilib. Yeni bitki sortlarının tətbiqi, mütərəqqi suvarma sistemlərinin istifadə edilməsi, kənd təsərrüfatının sənayeləşdirilməsi yaşıl inqilabın əsas istiqamətləridir. Bu istiqamətdə ölkəmizdə də mühüm addımlar atılıb. Lakin hələ görüləcək xeyli işlər var. Prezident İlham Əliyevin əsas tapşırıqlarından biri aqrar sahədə yeni texnologiyaların geniş tətbiqi, elektron kənd təsərrüfatı sisteminin tətbiq olunması, yer səthinin müşahidə peykinin imkanlarından həm ekoloji siyasətin, həm də aqrar siyasətin məqsədləri üçün geniş istifadə edilməsindən ibarətdir. Rəqəmsal texnologiyaların kənd təsərrüfatında tətbiqi məqsəd deyil, vasitədir. Bu, məhsuldarlığın yüksəldilməsi, aqrar idarəetmənin təkmilləşdirilməsi, kənd təsərrüfatına dövlət dəstəyinin daha səmərəli təşkil edilməsinin vasitəsidir. Bugünkü forum da aqrar innovasiyaların tətbiqi ilə bağlı məsələlərin səmərəli müzakirəsinə və təcrübə mübadiləsinə öz töhfəsini verəcək".**

Energetika naziri Pərviz Şahbazov isə deyib: **"Prezident İlham Əliyevin təşəbbüsü və rəhbərliyi ilə ölkə iqtisadiyyatının bütün sahələrində olduğu kimi kənd təsərrüfatı və energetika sahələrində də beynəlxalq təcrübəyə uyğun islahatların aparıldığı bir dövrdə bu forumun keçirilməsi xüsusi əhəmiyyət kəsb edir. Bugünkü forumun əsas məqsədi aqrar və energetika sahələrinin gələcəyi, aqrar sahədə yeni texnologiyaların, o cümlədən yaşıl enerjinin tətbiqi kimi aktual mövzular ətrafında fikir mübadiləsinin aparılmasından, bu sahədə qabaqcıl təcrübəyə və dünyada müşahidə olunan trendlərə nəzər salmaqdan ibarətdir. Azərbaycan enerji siyasətini yeni çağırışlara uyğunlaşdıraraq, enerji təhlükəsizliyi məsələsinə çoxşaxəli yanaşır".**

Nazir bildirib ki, bu gün ölkənin ümumi elektroenergetika sisteminin qoyuluş gücündə iri su elektrik stansiyaları da daxil olmaqla bərpaolunan enerji mənbələrinin payı təxminən 18 faizə yaxındır: **"Lakin bizdə bərpaolunan enerji mənbələrinin potensialı daha yüksəkdir. Təxminən 25 geqavat həcmindədir və yaxın illərdə külək, günəş və bioenerji üzrə yeni enerji güclərinin istifadəyə verilməsi planlaşdırılır. Hazırda bərpaolunan enerjinin ümumi enerji balansındakı həcminin artırılması və enerji səmərəliliyi ilə bağlı kompleks tədbirlər həyata keçirilir. Bərpaolunan enerji mənbələri sənayesinin inkişafına təkan vermək, bazarını yaratmaq, rəqabət qabiliyyətini artırmaq üçün beynəlxalq ekspertlərin dəstəyi ilə "Bərpaolunan enerji mənbələri haqqında" qanun layihəsi hazırlanır. Bu qanunun qəbulu yaşıl enerjinin kənd təsərrüfatı sektorunda da geniş istifadəsinə şərait yaradacaq. Eyni zamanda, Avropa Yenidənqurma və İnkişaf Bankı ilə birgə bərpaolunan enerjinin şəbəkəyə inteqrasiyası və şəbəkənin gücləndirilməsi layihəsinə başlanılıb. Bərpaolunan enerji sahəsində özəl sektorun iştirakı üçün əlverişli investisiya mühitinin yaradılması istiqamətində addımlar atılır. Bu sahədə ixtisaslaşmış bir sıra şirkətlərlə məsləhətləşmələr aparılır, işçi qrupları yaradılıb. Hazırda Asiya İnkişaf Bankının dəstəyi ilə Böyükşor gölündə "Üzən Günəş Paneli" pilot layihəsi həyata keçirilir".**

Nəqliyyat, rabitə və yüksək texnologiyalar naziri Ramin Quluzadə deyib ki, forum aktual mövzuya həsr olunub və BMT-nin 2030-cu ilə qədər Dayanıqlı İnkişaf Məqsədlərinin icrası baxımından da olduqca əhəmiyyətlidir: **"Bu gün ölkəmiz yeni inkişaf mərhələsindədir. Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkədə uğurlu islahatlar aparılır. Ölkədə ixrac potensialının gücləndirilməsi, əlverişli investisiya mühitinin formalaşdırılması, innovasiya fəaliyyətinin genişləndirilməsi istiqamətində ciddi addımlar atılır. Qəbul olunmuş Strateji Yol xəritələri milli iqtisadiyyatın inkişafı üçün yeni imkanlar açır. Bütün bunlar beynəlxalq hesabatlarda da öz əksini tapmaqdadır. Dünya Bankının son "Doing Business" hesabatında Azərbaycan 190 ölkə arasında 25-ci yeri tutub. Eyni zamanda, ölkəmiz dünyanın 10 ən çox islahat aparan dövlətləri siyahısına daxil edilib".**

Nazir qeyd edib ki, dünyada iqtisadiyyatın inkişafında yüksək texnologiyaların, innovasiyaların rolu ildən-ilə artır. Azərbaycan da bu məsələlərə xüsusi diqqət yetirir. Ölkəmizdə kənd təsərrüfatı sahəsi üzrə informasiya ehtiyatları və sistemləri yaradılıb və bu proses davam etməkdədir: **"Bununla bərabər kənd təsərrüfatında yüksək texnologiyaların tətbiqi imkanları daha da genişdir. "Əşyaların interneti", dronlar, "Big Data" texnologiyaları bu sektoru yeni mərhələyə aparır. Bir çox ölkələrdə məhsuldarlığın, məhsulun keyfiyyətinin artırılmasında "Əşyaların interneti" mühüm rol oynayır. Dronların tətbiqi isə fermerlərə istənilən yerdən əkin sahələrinə nəzarət etmək imkanı verir. Bu texnologiyaların tətbiqində Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi öz töhfəsini verə bilər".**

**"Nazirliyin tabeliyindəki İnnovasiyalar Agentliyi vasitəsilə aqrar sahədə fəaliyyət göstərən sahibkarların (fermerlərin) müasir texnologiyaları əldə etməsi və mənimsəməsi, həmçinin aqrar sahədə yüksək texnologiyaların tətbiqini nəzərdə tutan innovativ layihələrin, o cümlədən startapların maliyyələşdirilməsi istiqamətində geniş əməkdaşlıq perspektivləri var. Biz aqrar sahə üzrə informasiya ehtiyatları və sistemlərinin, böyük həcmli informasiyaların intellektual analizi üçün nazirliyin regionda yeganə TIER 3 səviyyəli data mərkəzinin xidmətlərindən istifadə edilməsini təklif edirik. Bundan əlavə, nazirliyin İKT-nin Tətbiqi və Tədrisi Mərkəzində yaradılacaq "Əşyaların interneti" laboratoriyasının imkanlarından istifadə etmək olar. Mərkəzdə aqrar sahədə yüksək texnologiyaların tətbiqi üzrə kadr hazırlığına dəstək vermək məqsədilə müxtəlif təlimlərin təşkili də əməkdaşlıq istiqaməti ola bilər. Bu forum, yeni əməkdaşlıq platformalarının yaranmasına, ölkəmizdə aidiyyəti qurumların, o cümlədən Kənd Təsərrüfatı və Təhsil nazirlikləri, Azərbaycan Milli Elmlər Akademiyası, İnnovasiya Agentliyinin birgə səyləri nəticəsində "Agrotech" klasterinin formalaşdırılmasına və inkişafına böyük töhfə verəcək",** - deyə R.Quluzadə əlavə edib.

Forum çərçivəsində yaşıl texnologiyalara həsr olunan sərgi də nümayiş etdirilib. Burada yeni innovativ ekosistemlər, yaşıl texnologiyalar və onların tətbiqi ilə hazırlanan məhsullar sərgilənir. Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva sərgi ilə tanış olub.

Dünyanın 15-ə yaxın ölkəsindən 40-dək xarici mütəxəssisi bir araya toplayan forumun əsas məqsədi Azərbaycanda kənd təsərrüfatı və enerji sahələrinin innovativ inkişafına nail olmaq, müxtəlif maraqlı tərəflər arasında əlaqələri gücləndirmək, dayanıqlı biznes modelləri və əlaqələr qurmaqdır. İki gün davam edəcək forumda ABŞ, Türkiyə, İsrail, Rusiya, Niderland, Ukrayna və bir çox ölkələrdən sahibkarlar, vençur kapitalistlər, elm xadimləri, aparıcı texnologiya şirkətlərinin nümayəndələrinin çıxışları nəzərdə tutulur. Həmçinin "Energetika və aqrar texnologiyaların gələcəyi", "Aqrar və yaşıl enerji üçün texnologiyalar", "Aqrar və energetika texnologiyaları üzrə Akademiya", "Siyasətin təsiri", "Yeni innovativ ekosistemlər", "Fermerlər üçün seksiya", "Aqrar sahə və energetika üçün biznes: AgTech sessiyası", "Aqrar sahə və energetika üçün biznes: Green Energy sessiyası", "Startap və innovasiya ekosistemi seminarı" panelləri üzrə keçiriləcək.

# Azərbaycan iqtisadiyyatında fundamental keyfiyyət dəyişiklikləri

*Məlum olduğu kimi, bu yaxınlarda Dünya Bankı tərəfindən tərtib olunmuş “Doing Business-2019” reytinqində Azərbaycan iqtisadiyyatı əvvəlki dövrlə müqayisədə 32 pillə irəliləyərək 25-ci sırada yer almış lider islahatçı ölkə kimi ən çox islahat aparan ilk onluğa daxil olmuşdur. Hesabatda dünyanın 190 ölkəsi arasında müəyyən edilmiş reytinqdə belə sürətli irəliləyişin əsas səbəbi kimi biznesin həyata keçirilməsi prosesinin sadələşdirilməsi istiqamətində ölkəmizdə rekord sayda islahatların aparılması göstərilmişdir. Qeyd etmək lazımdır ki, bu göstəriciyə görə ölkəmiz MDB məkanında birinci olmaqla yanaşı, Yaponiya, Fransa, İtaliya, İsveçrə, Türkiyə və Çin kimi ölkələri də üstələyə bilmişdir. Bunlarla yanaşı, Dünya İqtisadi Forumunun 2017-ci il üçün hazırladığı “İnklüziv inkişaf indeksi” hesabatında inkişaf etməkdə olan 80 ölkə arasında ölkəmiz 3-cü yerə yüksəlmişdir. Qlobal rəqabət qabiliyyəti göstəricisinə görə ölkəmiz dünyanın 137 ölkəsi arasında 35-ci sırada qərarlaşmış, MDB məkanında doqquz ildir ki, lider mövqeyini qorumuş və “G-20”yə üzv olan 9 ölkəni - İndoneziya, Rusiya, Hindistan, İtaliya, Meksika, Türkiyə, Cənubi Afrika Respublikası, Braziliya, Argentinanı üstələmişdir. Bu dövr ərzində Azərbaycanın iqtisadi və sosial inkişafında çox mühüm kəmiyyət və keyfiyyət dəyişiklikləri baş vermiş, əhalinin həyat səviyyəsi xeyli yüksəlmişdir. Şübhəsizdir ki, bütün bu uğurların və misilsiz nailiyyətlərin arxasında son on beş ildə həyata keçirilən əzəmətli işlər dayanır.*





**Şəmsəddin Hacıyev**
**Milli Məclisin deputatı,**
**YAP Səbail rayon təşkilatının sədri,**
**iqtisad elmləri doktoru, professor**

Mübaliğəsiz demək olar ki, bu 15 il Azərbaycan Respublikasının müstəqillik tarixinin ən uğurlu və ən şanlı səhifəsidir. Bu dövrün nailiyyətləri yalnız iqtisadi, sosial və mədəni sferaların sürətli inkişafı ilə deyil, həm də cəmiyyət həyatının istisnasız olaraq bütün sahələrini əhatə edən əsaslı islahatlar, institusional dəyişikliklər və innovasiyalara əsaslanan səmərəli dövlət idarəçiliyi sisteminin yaradılması ilə səciyyələnir. 2003-cü ildən başlayaraq həyata keçirilən uğurlu dövlət siyasəti nəticəsində ölkəmiz malik olduğu resurslardan, geosiyasi və geoiqtisadi üstünlüklərdən bacarıqla istifadə edərək, dünya iqtisadiyyatına və dünya birliyinə milli maraqların prioritetliyi əsasında ən rasional şəkildə inteqrasiya olunmuş, hüquqi dövlət quruculuğu və vətəndaş cəmiyyətinin formalaşmasına nail olmuş, sosialyönümlü bazar iqtisadiyyatı modelinə keçidi tam başa çatdırmışdır. Təbii ki, bu dövr ərzində Azərbaycanın keçdiyi yol və əldə etdiyi uğurların miqyası, çəkisi və əhatə dairəsi o qədər geniş və çoxşaxəlidir ki, onların ən qısa xronologiyasını belə bir məqalədə əks etdirmək qeyri-mümkündür. Hesab edirik ki, bu dövrdə baş verən bütün proseslərin, aparılan siyasətin, qazanılan uğurların istər nəzəri-metodoloji cəhətdən, istərsə də sosial-iqtisadi, ictimai-fəlsəfi, hüquqi və dövlətçilik praktikası baxımından hərtərəfli və sistemli elmi araşdırılması olduqca vacib və əhəmiyyətlidir.

İlk öncə bu dövrün ən mühüm nailiyyəti kimi Ulu öndər Heydər Əliyev siyasətinin uğurla davam etdirilməsi və onun müasir dövrün tələb və çağırışlarına, eləcə də dünyada baş verən qlobal proseslərə müvafiq olaraq keyfiyyətcə təkmilləşdirilməsi xüsusi qeyd olunmalıdır. Prezident İlham Əliyev tərəfindən son 15 ildə aparılan düşünülmüş, qətiyyətli, uzaqgörən, çevik və praqmatik siyasət nəticəsində ölkəmizin milli maraqları və təhlükəsizliyi tam təmin edilmiş, ictimai-siyasi sabitlik bərqərar olunmuş, iqtisadiyyatın dinamik inkişafına nail olunmuşdur. Bu dövr ərzində ölkəmizdə müasir tələblərə, minilliyin çağırışlarına, qarşıya qoyulan strateji vəzifələrə cavab verən səmərəli dövlət idarəçiliyi sistemi yaradılmış və onun beynəlxalq nüfuzu, siyasi çəkisi xeyli yüksəlmişdir. Bu 15 ildə dövlət müstəqilliyimiz daha da möhkəmlənmiş, sözün tam mənasında əbədi və dönməz xarakter almışdır. Bu gün Azərbaycan həm iqtisadi, həm də siyasi cəhətdən tam müstəqil bir dövlətdir və heç kimdən aslı olmayaraq, öz milli maraqlarına uyğun siyasət həyata keçirmək iqtidarındadır ki, bu da son 15 ildə əldə etdiyimiz ən böyük uğur və dəyər kimi qiymətləndirilməlidir. Azərbaycan öz dövlətçilik tarixində heç vaxt indiki qədər müstəqil olmamışdır.

Ulu öndər Heydər Əliyevin formalaşdırdığı milli iqtisadi inkişaf modeli bu dövr ərzində daha da təkmilləşdirilərək ölkəmizin sosial-iqtisadi həyatının bütün sahələrinin dayanıqlı və davamlı inkişafında özünün məntiqi nəticəsini tapmışdır. Dünya ölkələrinin sosial-iqtisadi inkişaf modellərinin mütərəqqi cəhətləri ilə yanaşı, ölkəmizin tarixən formalaşmış maddi və milli-mənəvi dəyərlərini, təbii-coğrafi amilləri və müqayisəli üstünlüklərini, çoxvektorlu geosiyasi və geoiqtisadi maraqlarını özündə ehtiva edən bu eklektik model milli iqtisadiyyatımızda yeni rəqabət faktorları və rəqabət üstünlükləri yaradaraq özünəməxsus iqtisadi inkişaf kursunu formalaşdırmışdır. İqtisadi inkişafımızda alternativi olmayan bu model azad iqtisadi siyasətin və real bazar münasibətlərinin bütünlüklə qərarlaşmasına şərait yaradan liberalizmlə, iqtisadiyyatın dövlət tərəfindən düşünülmüş şəkildə tənzimlənməsini təmin edən institusional yanaşmaların optimal sintezinə əsaslanaraq, konstitusiyamızda təsbit edildiyi kimi, həm azad sahibkarlığa, həm də sosialyönümlü iqtisadiyyatın formalaşmasına tam təminat yaratmışdır. Ölkəmizdə sosialyönümlü bazar iqtisadiyyatı modelinin xarakterinə uyğun olaraq formalaşdırılmış mülkiyyət və bölgü münasibətləri, sahibkarlıq ənənələri, kompleks bazar institutları və infrastrukturlar, eyni zamanda iqtisadiyyatın effektivliyinin və rəqabət qabiliyyətinin yüksəldilməsi məqsədilə həyata keçirilən sistemli islahatlar, dövlət və sahibkarlığın qarşılıqlı əlaqələrini möhkəmləndirən yeni, daha səmərəli idarəetmə formaları və metodları ildən-ilə bu təminatı daha da gücləndirməkdədir.

*2003-cü ildə cənab İlham Əliyevin Azərbaycanda hakimiyyətə gəlməsindən sonra milli iqtisadi inkişaf modelimiz yeni keyfiyyətdə və yeni məzmunda uğurla təkmilləşdirilərək tamamilə yeni bir inkişaf mərhələsinə keçidi “sərhəd situasiyası”nı formalaşdırmışdır. Başqa sözlə, iqtisadi sistemin biliklərə əsaslanan iqtisadiyyata, industrial cəmiyyətdən postindustrial cəmiyyət tipinə keçidi başlamışdır. Ulu öndər Heydər Əliyevin müəyyənləşdirdiyi kimi, “Milli maraqların hər şeydən üstünlüyü” bu gün də dövlətimizin inkişaf strategiyasının ən mühüm prinsiplərindən biri kimi çıxış edir*

**Həqiqətən də, 2003-cü ildə cənab İlham Əliyevin Azərbaycanda hakimiyyətə gəlməsindən sonra milli iqtisadi inkişaf modelimiz yeni keyfiyyətdə və yeni məzmunda uğurla təkmilləşdirilərək tamamilə yeni bir inkişaf mərhələsinə keçidi “sərhəd situasiyası”nı formalaşdırmışdır. Başqa sözlə, iqtisadi sistemin biliklərə əsaslanan iqtisadiyyata, industrial cəmiyyətdən postindustrial cəmiyyət tipinə keçidi başlamışdır. Ulu öndər Heydər Əliyevin müəyyənləşdirdiyi kimi, “Milli maraqların hər şeydən üstünlüyü” bu gün də dövlətimizin inkişaf strategiyasının ən mühüm prinsiplərindən biri kimi çıxış edir.** Məhz milli inkişaf maraqlarından irəli gələrək dünyada və regionda formalaşmış yeni şəraitin təhdidlərinə və çağırışlarına adekvat olaraq, preventiv tədbirlərin görülməsi sayəsində son 15 ildə Azərbaycan iqtisadiyyatında, daxili və xarici siyasətdə, sosial-mədəni və digər fəaliyyət sferalarında irimiqyaslı kəmiyyət və keyfiyyət dəyişiklikləri baş vermiş, müsbət və strateji əhəmiyyətli yeni trendlər meydana gəlmişdir. Bütün bunların dünyada tüğyan edən geosiyasi və geoiqtisadi təhlükələrin, artan risklərin və təhdidlərin fonunda cərəyan etməsi milli inkişaf modelimizi dünya miqyasında bir nümunəyə, fenomenə çevirmişdir. Möhtərəm Prezidentimiz İlham Əliyevin qeyd etdiyi kimi: *“Bu gün dünyada nadir Azərbaycan inkişaf modeli var. Artıq biz bu barədə də danışa bilərik, çünki bu model, doğrudan da, bir nümunə kimi hər bir ölkə üçün maraqlı olmalıdır. Siyasi, iqtisadi islahatlar, müstəqil siyasət, dinlərarası dialoq, yüksək səviyyəli milli-dini tolerantlıq, dözümlülük, sosial siyasət və görülən işlər göz qabağındadır”.*

Əldə edilən bütün bu nailiyyətlərin miqyası deməyə əsas verir ki, “15 illik hakimiyyət dövrü” ifadəsi Prezident İlham Əliyevin dövlət başçısı kimi fəaliyyətinin yalnız fiziki zaman ölçüsünü əks etdirir. Əslində bir qədər təhlili genişləndirərək dünya dövlətlərinin inkişaf tarixinə nəzər salsaq, mübaliğəsiz deyə bilərik ki, bu dövr ərzində görülən genişmiqyaslı işlərin və əldə edilən nailiyyətlərin həcmini bir çox dünya ölkələrinin reallığında ən azı 20-25 illik müddətə belə sığışdırmaq mümkün olmazdı. Başqa sözlə, ötən bu 15 il ölkəmizə xeyli əlavə zaman resursu qazandırmış, müstəqilliyin ilk dövrlərində itirilmiş illəri bərpa etməklə yanaşı, inkişaf etmiş ölkələr səviyyəsinə doğru irəlilədiyimiz yolu xeyli yaxınlaşdırmışdır.

Qeyd etmək lazımdır ki, hələ sovet dövrünün sonu və müstəqilliyin ilk illərində (1988-1993) bir-birini tez-tez əvəzləyən və hakimiyyəti qanunsuz, zorla ələ keçirən səriştəsiz, səmərəsiz idarəçiliyə malik olan və milli maraqları arxa plana keçirən biabırçı hakimiyyətlər dövrü iqtisadi inkişafımızı ən azı 13 il geri salmışdır. Bu fakt statistik göstəricilərdə də öz təsdiqini tapır. Belə ki, 1993-cü ildə ölkəmizdə istehsal olunmuş Ümumi daxili məhsul iki dəfədən çox aşağı düşərək 1988-ci ilin müvafiq göstəricisinin 49,9 faizinə bərabər olmuşdur. Ölkəmiz itirilmiş iqtisadi potensialını yalnız 13 ildən sonra tamamilə bərpa edə bildi və məhz Ulu öndər Heydər Əliyev və Onun layiqli siyasi varisi İlham Əliyev siyasəti sayəsində bu dövrdə istifadə olunması mümkün olan bütün iqtisadi və siyasi resurslardan, düzgün dövlət idarəçiliyi sisteminin üstünlüklərindən məharətlə və daha səmərəli istifadə etməklə ölkəmizin düçar olduğu nəinki iqtisadi, siyasi, mədəni və institusional böhran vəziyyətindən xilas olunmasına, eləcə də ölkədə ictimai-siyasi sabitliyə, iqtisadi və sosial yüksəlişə, vətəndaş birliyinə nail olundu.

Sözsüz ki, ölkəmizin bu dirçəlişində və günbəgün qüdrətlənməsində 20 sentyabr 1994-cü il tarixində “Əsrin müqaviləsi”nin imzalanması ilə başlanan yeni uğurlu neft strategiyası əvəzsiz rol oynamışdır. Azərbaycanın müstəqillik tarixində dönüş nöqtəsi hesab edilən bu müqavilənin əhəmiyyəti haqqında danışarkən, cənab Prezident İlham Əliyev qeyd etmişdir: *“Bizim bugünkü inkişafımız, bugünkü nailiyyətlərimiz, Azərbaycanın həqiqətən müstəqil ölkə kimi dünya birliyinə qədəm qoyması böyük dərəcədə “Əsrin kontraktı”nın imzalanması ilə bağlıdır. Bu çox cəsarətli və müdrik addım idi. Əgər 1994-cü ildə Heydər Əliyevin təşəbbüsü ilə “Əsrin kontraktı” imzalanmasaydı, bu gün təsəvvür etmək mümkün deyil ki, Azərbaycan hansı vəziyyətdə ola bilərdi”.* Həqiqətən də, o dövrdə nəinki tək Azərbaycanda, eləcə də bütövlükdə Cənubi Qafqazda iqtisadi-siyasi və hərbi-strateji maraqları olan və bu gündə davam edən böyük güclərin təzyiq və təhdidlərinə baxmayaraq Ulu öndər Heydər Əliyevin siyasi iradəsi və qətiyyətli siyasəti sayəsində “Əsrin müqaviləsi” imzalanmasaydı, nə bugünkü müstəqilliyimiz, qüdrətli dövlətimiz, dayanıqlı və güclü iqtisadiyyatımız, nə də böyük strateji valyuta ehtiyatlarımız, görülən genişmiqyaslı quruculuq-abadlıq işləri, həyata keçirilən nəhəng transregional layihələr, sosial proqramlar, infrastruktur layihələri və s. haqqında danışmaq mümkün olmazdı.

**Ölkəyə rəhbərlik etdiyi 10 il ərzində Azərbaycanı məhv olmaq təhlükəsindən xilas etməklə, sözün əsl mənasında, böyük xilaskarlıq missiyasını həyata keçirmiş Ulu öndər Heydər Əliyevin ən böyük tarixi missiyalarından biri də özünün etibarlı siyasi varisini müəyyənləşdirməsi və qurucusu olduğu müasir Azərbaycanı etibarlı əllərə əmanət etməsi oldu.** Azərbaycan dövlətçiliyinin gələcək inkişaf yolu və siyasi xəttini hər zaman düşünən Ulu öndər Heydər Əliyevin İlham Əliyev haqqında Azərbaycan xalqına tarixi müraciətində dediyi: *“...Üzümü Sizə - həmvətənlərimə tutaraq, qarşıdan gələn prezident seçkilərində prezidentliyə namizəd, mənim siyasi varisim, Yeni Azərbaycan Partiyası Sədrinin I müavini İlham Əliyevi dəstəkləməyə çağırıram. O, yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar bir şəxsiyyətdir. Sizi əmin edirəm ki, həm İlham Əliyev, həm də Yeni Azərbaycan Partiyası bundan sonra da xalqın ən layiqli övladlarını öz ətrafında sıx birləşdirərək Azərbaycan dövlətinin inkişafı və xalqımızın firavanlığı yolunda çox işlər görəcəklər. İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən Ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm”.* Müdrik sözlər bu 15 il ərzində özünün tam təsdiqini tapdı. Prezident İlham Əliyev xalqın Ona bəslədiyi ümidləri və etimadı tam mənası ilə doğrutldu, O, seçki öncəsi xalqa verdiyi bütün vədləri şərəflə yerinə yetirərək ümumxalq məhəbbətini qazandı. Azərbaycan məhz İlham Əliyevin dövründə, sözün əsl mənasında, dünyaya günəş kimi parladı.

Əslində, Prezident İlham Əliyevin xalqın inam və etimadını doğruldacağı heç kimdə şübhə doğurmurdu və Ümummilli lider tərəfindən Onun namizədliyinin dəstəklənməsi heç də təsadüfi deyildi. Bütün bunlar Prezident İlham Əliyevin dahi Heydər Əliyev siyasi məktəbinin və həyat yolunun ən layiqli davamçısı kimi, hələ 90-cı illərdən də əvvəl Mixail Qorbaçovun üzdəniraq yenidənqurma dövründə Ulu öndər Heydər Əliyevin qarşılaşdığı bütün mürəkkəb və keşməkeşli vəziyyətlərdə, 20 Yanvar hadisələrində, Naxçıvanda baş verən proseslərdə, Yeni Azərbaycan Partiyasının yaradılmasında, 1993-cü ilin iyununda ölkə rəhbərliyinə gəldiyi ən çətin və taleyüklü məqamlarda daim Onun yanında olub, Ulu öndərin memarı olduğu müstəqil Azərbaycan dövlətinin formalaşmasında və inkişafında, “Əsrin Müqaviləsi”nin ərsəyə gəlib imzalanmasında, bu müqavilə ilə bağlı bütün beynəlxalq razılaşmaların əldə olunmasında, 1998-ci ildən sonra millət vəkili, Avropa Şurası Parlament Assambleyasında Milli Məclisin nümayəndə heyətinin rəhbəri və bu qurumun vitse-prezidenti kimi ölkənin beynəlxalq imicinin formalaşmasında, Azərbaycanla AŞPA, Avropa İttifaqı və Avropa ölkələri arasında ikitərəfli və çoxtərəfli münasibətlərin formalaşmasında və inkişafında, informasiya blokadasında olan Azərbaycanın haqq səsinin dünya ictimaiyyətinə çatdırılmasında və digər sahələrdə gördüyü böyük işlərdən, göstərdiyi müstəsna xidmətlərdən irəli gəlirdi.

**Prezident İlham Əliyevin 15 illik hakimiyyəti dövründə ölkəmizin əldə etdiyi sıçrayışlı inkişaf və tərəqqi Ulu öndər Heydər Əliyevin neft strategiyasının və idarəetmə irsinin uğurlarından qaynaqlanmaqla, Azərbaycanın yeni müstəqillik tarixində, sözün əsl mənasında, öz möhtəşəmliyinə görə yaddaşlarımıza qızıl hərflərlə əbədi həkk olunan bir çox əlamətdar hadisələrin zənginliyi ilə seçilir.** Ərazimizin 20 faizinin işğal altında olması, bir milyondan çox qaçqın və məcburi köçkünlərin mövcudluğu, əlverişsiz qlobal və regional siyasi-iqtisadi mühitin getdikcə mürəkkəbləşməsi şəraitində iqtisadi inkişafın sürətləndirilməsi, hüquqi demokratik dövlət və vətəndaş cəmiyyəti quruculuğu prosesinin yüksələn xətlə inkişaf etdirilməsi, milli mənəvi dəyərlərimizin zənginləşdirilməsi, milli ideologiyanın gücləndirilməsi, ölkəmizin tamamilə yeni statuslarda dünyaya təqdim olunması və beləliklə də müstəqilliyimizin dönməz surətdə möhkəmləndirilməsi bu dövrün misilsiz uğurları kimi dəyərləndirilməlidir.

*Cəmiyyət həyatının əsasını - bazisini təşkil edən iqtisadiyyatmızın inkişafı sahəsində son 15 ildə əldə edilən mühüm uğurların sırasında ilkin kapital yığımının və bazar iqtisadiyyatına keçid prosesinin tamamilə başa çatdırılmasını, ölkədə dinamik, davamlı, dayanıqlı və şaxələndirilmiş surətdə inkişaf edən, dünya iqtisadiyyatına rasional formada inteqrasiya olunan, rəqabətqabiliyyətli milli iqtisadiyyatın formalaşmasını, regionda geoiqtisadi güc səviyyəsinə yüksəlməsini və bu mövqeyini ildən-ilə daha da möhkəmləndirməsini xüsusi olaraq qeyd etmək vacibdır*

**Cəmiyyət həyatının əsasını - bazisini təşkil edən iqtisadiyyatmızın inkişafı sahəsində son 15 ildə əldə edilən mühüm uğurların sırasında ilkin kapital yığımının və bazar iqtisadiyyatına keçid prosesinin tamamilə başa çatdırılmasını, ölkədə dinamik, davamlı, dayanıqlı və şaxələndirilmiş surətdə inkişaf edən, dünya iqtisadiyyatına rasional formada inteqrasiya olunan, rəqabətqabiliyyətli milli iqtisadiyyatın formalaşmasını, regionda geoiqtisadi güc səviyyəsinə yüksəlməsini və bu mövqeyini ildən-ilə daha da möhkəmləndirməsini xüsusi olaraq qeyd etmək vacibdır.**

Etiraf etmək lazımdır ki, Prezident İlham Əliyevin hakimiyyətə gəldiyi dövrdə Azərbaycanda iqtisadi və sosial inkişaf, əhalinin həyat səviyyəsi, vətəndaş həmrəyliyi baxımından ictimai-siyasi vəziyyət o qədər də əlverişli deyildi. Cəmiyyətdə hələ də mövcud olan radikal müxalifət xarici mənbələrdən dəstək alaraq öz dağıdıcı fəaliyyətini davam etdirməkdə idi. Yenicə dirçəlməyə başlamış iqtisadiyyatımız hələ cəmiyyətdə mövcud olan iqtisadi və sosial problemləri tam həll etmək iqtidarında deyildi. Sosial-iqtisadi göstəricilərin əvvəlki 10 illikdə əhəmiyyətli dərəcədə artmasına baxmayaraq 2003-cü ildə ölkənin ÜDM-i cəmi 7,1 mlrd. manat, dövlət büdcəsinin həcmi 1,2 mlrd. manat təşkil edirdi (müqayisə üçün qeyd edək ki, 1993-cü ildə ölkə üzrə bu göstəricilər müvafiq olaraq 31,4 mln. və 10,7 mln. manat həcmində idi). Yoxsulluğun səviyyəsi 44,7%, işsizlik isə təqribən 10 %-ə qədər təşkil edirdi. Ölkə iqtisadiyyatına 10 il ərzində 75 faizi xarici investisiya olmaqla ümumilikdə 16,8 mlrd. dollar həcmində investisiya qoyulmuşdu və ümumi investisiyaların 61 faizi, xarici investisiyaların isə 75 faizi neft sektoruna yönəldilmişdi. Eləcə də ölkəmizin ixrac gəlirlərinin 90 faizə qədəri neft sektoru hesabına formalaşmışdı. “Əsrin müqaviləsi”nin imzalanmasından doqquz il keçsə də, hələ neft hasilatı və ixracında elə bir ciddi irəliləyişə nail olunmamışdı (müvafiq olaraq son 15 ilin orta illik göstəricisindən 2,5 və 7,3 dəfə az), mövcud ixrac boru kəmərlərinin imkanları məhdud idi, dünya bazarında neftin qiymətinin cəmi 28 dollar təşkil etməsi səbəbindən neft müqavilələrindən ciddi məbləğdə gəlir əldə edilmirdi və nəticədə 2003 - cü ildə təqribən 1,6 mlrd. dollar və ya indiki səviyyədən 28,7 dəfə az strateji valyuta ehtiyatımız mövcud idi ki, bu da ölkədə iqtisadi artım imkanlarını məhdudlaşdırırdı. Bütün bunlar həm qeyri-neft sektorunda, həm də regionlarda iqtisadi fəallığın artırılması, regional və sahəvi inkişafın tarazlılığının təmin edilməsi, əhalinin məşğulluğunun və rifah səviyyəsinin yüksəldilməsi istiqamətində irimiqyaslı işlərin həyata keçirilməsinə lazımi imkanlar yaratmırdı.

**Belə bir şəraitdə hakimiyyətə gələn cənab İlham Əliyev qısa müddət ərzində Azərbaycanın iqtisadi inkişaf modelini tamamilə yeni fenomenal inkişaf trayektoriyasına çıxararaq, daha da təkmilləşdirdi.** Azərbaycanın təbii sərvəti olan neft-qaz faktorunu, sözün əsl mənasında, iqtisadi gücə çevirmək üçün ölkədə dünya standartlarına cavab verən maddi-texniki baza və infrastruktur formalaşdırdı, “qara qızıl”ın insan kapitalına çevrilməsi, regionlarda mövcud olan potensialın fəal surətdə iqtisadi dövriyyəyə cəlb olunması istiqamətində nəzərəçarpacaq irəliləyişlərə, bir çox sosial-iqtisadi sahələrin inkişafında yüksək göstəricilərə nail olundu.

**İqtisadiyyatın diversifikasiyası və neftdən asılılığın azaldılması istiqamətində ardıcıl və sistemli şəkildə struktur və institusional islahatları özündə ehtiva edən bir sıra sosial-iqtisadi inkişaf proqramları və strateji sənədlərin qəbul edilməsi və reallaşdırılması ölkəmizin sosial-iqtisadi həyatında ciddi dönüş yaratdı.** Bu sənədlər sırasında “Azərbaycan Respublikasında sosial-iqtisadi inkişafın sürətləndirilməsi tədbirləri haqqında” Azərbaycan Respublikası Prezidentinin Fərmanı, Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı üzrə 3 Dövlət Proqramı, “Neft və qaz gəlirlərinin idarə olunması üzrə uzunmüddətli Strategiya”, “2008-2015-ci illərdə Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və davamlı inkişaf Dövlət Proqramı”, “2008-2015-ci illərdə Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı”, “2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı”, “Azərbaycan 2020: gələcəyə baxış” İnkişaf Konsepsiyası, “Azərbaycan Respublikasında sənayenin inkişafına dair 2015-2020-ci illər üçün Dövlət Proqramı”, kənd təsərrüfatında kooperasiyanın, eləcə də ənənəvi kənd təsərrüfatı sahələrinin - üzümçülüyün, pambıqçılığın, çaycılığın, çəltikçiliyin, sitrus meyvəçiliyin, baramaçılıq və ipəkçiliyin və s. inkişafına dair dövlət proqramları iqtisadiyyatımızın hərtərəfli və sistemli inkişafında, milli iqtisadiyyat sahələrinin xarici faktorların dağıdıcı təsirlərindən qorunmasında müstəsna rol oynamaqla yanaşı, gələcək iqtisadi artım üçün geniş imkanlar və potensial formalaşdırdı.

**Danılmaz faktdır ki, son 15 ildə uğurla həyata keçirilən neft strategiyası sayəsində əldə olunmuş gəlirlərdən düzgün istifadə edilməsi nəticəsində ölkə iqtisadiyyatının infrastrukturu əsaslı surətdə modernləşdirilmiş, qeyri-neft sahələrinin üstün inkişafı təmin edilmiş, dövlətin maliyyə aktivləri xeyli dərəcədə artmışdır.** Lakin 2014-cü ildən başlayaraq dünya bazarında xam neftin qiymətlərinin kəskin surətdə azalması və ölkəmizin əsas ticarət tərəfdaşlarının milli valyutalarının devalva-

**davamı 4-cü səhifədə**

# Azərbaycan iqtisadiyyatında fundamental keyfiyyət dəyişiklikləri

əvvəli 3-cü səhifədə

siyaya uğramasının mənfi nəticələri Azərbaycan iqtisadiyyatından da yan keçmədi, manatın məzənnəsi aparıcı valyutalara nisbətdə xeyli ucuzlaşdı, ölkədə iqtisadi artım zəiflədi, tədiyə balansının profisiti əhəmiyyətli dərəcədə azaldı və qeyri-neft büdcə kəsiri isə yüksəldi. Bütün bunlar təbii ki, iqtisadi inkişaf modelində davamlı inkişafı təmin etmək məqsədi ilə yeni yanaşmaya keçdi, institusional və struktur islahatlarının dərinləşməsini obyektiv zərurətə çevirdi.

Bu kontekstdə Azərbaycan Respublikası Prezidentinin 06 dekabr 2016-cı il tarixli Fərmanı ilə təsdiq olunmuş Milli iqtisadiyyat perspektivi və iqtisadiyyatın əsas sektorları üzrə Strateji Yol Xəritələrinin əhəmiyyəti xüsusi qeyd olunmalıdır. Cari, orta və uzunmüddətli dövrlər üzrə inkişaf hədəflərini və tədbirlər planını özündə ehtiva edən və elmi cəhətdən əsaslandırılan Strateji Yol Xəritələrinin hazırlanması bir daha sübut edir ki, bu gün ölkədə düşünülmüş, ardıcıl, sistemli, koordinasiya edilən, riskləri qabaqcadan nəzərə alan və qiymətləndirən, çox ssenarili, nəticəyə əsaslanan effektiv iqtisadi siyasət həyata keçirilir. Strateji yol xəritələrində milli iqtisadiyyatın perspektivləri kontekstində dörd strateji hədəfin seçilməsi və 11 sektor üzrə strateji yol xəritələrinin həyata keçirilməsi nəticəsində real sektorla maliyyə sektoru arasında tarazlığın təmin edilməsi kimi qarşıya çox mühüm vəzifələr qoyulmuşdur. Başqa sözlə, fiskal və monetar siyasətlərin uzlaşdırılması, paylarının nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərin fəaliyyətinin səmərəliliyinin artırılması və özəlləşdirmənin həyata keçirilməsi, insan kapitalının inkişafı ilə əmək bazarının inkişafının milli iqtisadiyyat perspektivinə uyğunlaşdırılması və biznes mühitinin daha da yaxşılaşdırılması yolu ilə davamlı iqtisadi inkişafın təmin olunması nəzərdə tutulur.

*Prezident İlham Əliyevin rəhbərliyi ilə son 15 ildə ölkəmizdə qeyri-neft sektorunun inkişaf etdirilməsi və onun ixrac potensialının artırılması məqsədilə, istər qeyri-neft sənayesi, istər kənd təsərrüfatı, istərsə də xidmət sektorunda istehsalın və infrastruktur təminatının genişləndirilməsi və modernləşdirilməsi istiqamətində görülən işlər strateji əhəmiyyət kəsb edir*

Ölkəmizdə sürətli iqtisadi artım templərinin əldə olunması, yüz minlərlə yeni iş yerlərinin yaradılması, qeyri-neft sektoruna yönəldilən xarici investisiyaların həcminin artırılması, eləcə də bu sektorun ixrac potensialının yüksəldilməsi və bütövlükdə ölkə iqtisadiyyatının neftdən asılılığının minimuma endirilməsi və s. bu kimi hədəfləri özündə ehtiva edən strateji yol xəritələri milli iqtisadiyyatın rəqabət qabiliyyətinin, inklüzivliyin və sosial rifahın daha da artırılmasını təmin edəcək və Azərbaycanın dünya iqtisadiyyatında mövqeyini daha da gücləndirəcəkdir. Bütövlükdə, bu islahatlar neft hasilatından və neft qiymətlərindən asılı olmayaraq ölkəmizin kompleks inkişafını təmin edə bilən, neftdənkənar iqtisadiyyatın qurulması istiqamətində qısa zaman ərzində ciddi nəticələrin əldə olunmasına hədəflənmişdir.

**Azərbaycanın iqtisadi və sosial inkişafında Prezident İlham Əliyev tərəfindən proqram-məqsədli yanaşmaya üstünlük verilməsi nəticəsində son 15 il ərzində qarşıya qoyulmuş vəzifələrin uğurla icra edilməsi üçün real zəminlər yaranmış və yüksək templərlə artan makroiqtisadi göstəricilərə nail olunmuşdur.** Belə ki, bu dövrdə ümumi daxili məhsul 3,2 dəfə, o cümlədən qeyri-neft sektoru üzrə ÜDM 2,8 dəfə artmış və qeyri-neft sektorunun iqtisadiyyatda payı 62,8 faizə qədər yüksəlmişdir. Ölkəmizdə orta illik iqtisadi artım tempi dünyada ən yüksək nəticələrdən biri kimi qeydə alınmış və Azərbaycan dünyada iqtisadi və sosial cəhətdən ən sürətli inkişaf edən ölkə olmuşdur. Bütün bunların nəticəsində, Dünya Bankının məlumatlarına əsasən Azərbaycan ÜDM-in həcminə görə dünya ölkələri arasında 20 pillədən çox irəliləmiş və hazırda Cənubi Qafqaz iqtisadiyyatının 60 faizindən çoxunu təşkil edərək, regionda liderlik mövqeyini daha da gücləndirmişdir. Son 15 ildə adambaşına düşən ÜDM-in həcmində isə 2,7 dəfə real artıma nail olmuşdur ki, bu da Azərbaycanın dünya ölkələri arasında 29 pillə yüksəlməsinə səbəb olmuşdur. Nəticədə Dünya Bankı tərəfindən adambaşına düşən milli gəlirin həcminə görə dünya ölkələrinin təsnifatı sistemində Azərbaycanın mövqeyini aşağı gəlirli ölkələr qrupundan yuxarı-orta gəlirli ölkələr qrupuna yüksəltmişdir.

**Prezident İlham Əliyevin rəhbərliyi ilə son 15 ildə ölkəmizdə qeyri-neft sektorunun inkişaf etdirilməsi və onun ixrac potensialının artırılması məqsədilə, istər qeyri-neft sənayesi, istər kənd təsərrüfatı, istərsə də xidmət sektorunda istehsalın və infrastruktur təminatının genişləndirilməsi və modernləşdirilməsi istiqamətində görülən işlər strateji əhəmiyyət kəsb edir.** Xüsusilə, son dövrlərdə qəbul edilmiş Dövlət proqramları çərçivəsində regionlarda - Sumqayıt, Balaxanı, Mingəçevir, Qaradağ, Pirallahı, Neftçala, Masallı və s. rayonlarda yaradılmış çoxlu sayda sənaye və texnoloji parkları, sənaye məhəllələrini və onların ərazisində fəaliyyət göstərən yeni istehsal müəssisələrini misal göstərmək olar ki, bütün bunlar da ölkənin iqtisadi potensialının və ixrac imkanlarının yüksəlməsinə xidmət edir. Biznes mühitinin yaxşılaşdırılması, inzibati prosedurların sadələşdirilməsi və şəffaflaşdırılması, fiskal siyasətin stimullaşdırıcı və motivasiya yaradan mexanizmlərindən maksimum istifadə edilməsi, vergi yükünün azaldılması və vergi güzəştlərinin genişləndirilməsi, sahibkarlığa dövlət dəstəyinin daha da gücləndirilməsi, sağlam rəqabət mühitinin təmin edilməsi, ixrac və investisiya fəaliyyətinin təşviqi, daxili bazarın qorunması istiqamətində tədbirlərin optimallaşdırılması və s. sahələrdə həyata keçirilən tədbirlər də əldə edilən nəticələrin nəzərəçarpacaq dərəcədə yüksəlməsinə şərait yaradır.

Bununla yanaşı, ölkə başçısının təşəbbüsü və xüsusi diqqəti sayəsində ənənəvi kənd təsərrüfatı sahələrinin genişləndirilməsi istiqamətində görülən tədbirlər aqrar sektorun ixrac potensialının nəzərəçarpacaq dərəcədə artırılmasına yönəldilmişdir. Ayrı-ayrı ərazilər üzrə istehsal olunan kənd təsərrüfatı məhsullarının əkin coğrafiyasının və istehsal olunan məhsulların strukturunun ölkənin təbii-iqlim və ənənəvi istehsal şəraitinə uyğun inkişaf etdirilməsi, iri fermer təsərrüfatlarının və aqroparkların yaradılması, istehsal kooperativlərinin və assosiasiyalarının təşkil edilməsi bu dövrdə kənd təsərrüfatının inkişafına yeni yanaşma kimi qiymətləndirilə bilər.

Eləcə də bütün mövcud infrastrukturların modernləşdirilməsi və genişləndirilməsi istiqamətində ciddi irəliləyişlər baş vermişdir. Yalnız son 15 ildə 3500-dək məktəb, 642 tibb müəssisəsi tikilmiş və ya əsaslı təmir edilmişdir. Bununla yanaşı, Heydər Əliyev Fondu tərəfindən "Yeniləşən Azərbaycana yeni məktəb" və digər sosial layihələr çərçivəsində yüzlərlə məktəb, məktəbəqədər təhsil müəssisələri, uşaq evləri, internat məktəbləri, tibb müəssiələri, mədəniyyət mərkəzləri və s. inşa edilmiş və ya yenidən qurulmuşdur. Yol, nəqliyyat və enerji infrastrukturlarının genişləndirilməsində əhəmiyyətli işlər görülmüşdür. Belə ki, bu dövr ərzində 15 min kilometr yol çəkilmiş, 443 körpü inşa olunmuş, 4 yeni metro stansiyası, 7 hava limanı, Xəzər dənizində ən böyük beynəlxalq dəniz limanı kompleksi hesab edilən Bakı Beynəlxalq Dəniz Ticarət Limanı, 30 elektrik stansiyası tikilib istifadəyə verilmiş, qaz təchizatı 51 faizdən 95 faizə qədər yüksəldilmişdir. Eyni zamanda, qəbul edilmiş strateji yol xəritələrinə əsasən ölkəmizdə qeyri-neft ixracının təşviq edilməsi və yeni ixrac bazarları hesabına genişləndirilməsi, idxaləvəzləyici istehsal sahələrinin inkişafı və yerli istehsalın idxal komponentlərindən asılılıq dərəcəsinin azaldılması, xarici investisiya və texnologiyaların cəlb edilməsini həvəsləndirən əlverişli investisiya mühitinin təmin edilməsi, ölkənin maliyyə sisteminin sağlamlaşdırılması və fiskal dayanıqlılığının gücləndirilməsi, müasir dövrün tələblərinə cavab verən insan kapitalının inkişaf etdirilməsi istiqamətində görülən işlər ölkəmizin hələ uzun illər "sabitlik adası" kimi cəlbediciliyini artıracaqdır.

**Digər mühüm nailiyyət Azərbaycan iqtisadiyyatının özünü təmin edən iqtisadiyyata malik olan tam müstəqil dövlətə çevrilməsidir.** Təbii ki, iqtisadi müstəqilliyi olmayan ölkə siyasi cəhətdən də müstəqil ola bilməz. Bu məsələni öz çıxışlarında tez-tez vurğulayaraq hər zaman diqqət mərkəzində saxlayan cənab İlham Əliyevin 15 illik fəaliyyəti dövründə ölkəmiz iqtisadi cəhətdən tam müstəqil ölkəyə çevrildi ki, bu bizim siyasi müstəqilliyimizi də möhkəmləndirdi.



Azərbaycan iqtisadiyyatı dünyada özünü təmin edən azsaylı iqtisadiyyatlardan biri olaraq xarici kreditlərdən asılılığını tam olaraq aradan qaldıra bilmişdir. Başqa sözlə, hazırda ölkə iqtisadiyyatında nəzərdə tutulmuş hədəflərə müstəqil surətdə nail olmaq üçün kifayət qədər maliyyə resurslarına sahibik. Ölkəmizdə xarici borcun səviyyəsi beynəlxalq maliyyə təşkilatlarının müəyyən etdiyi təhlükəsizlik hədlərindən də xeyli aşağıdır. Ümumi daxili məhsula nisbəti cəmi 20 faiz təşkil edən xarici borcumuzdan 5 dəfə çox strateji valyuta ehtiyatlarımız mövcuddur ki, bu da dünyanın çox az sayda ölkəsində əldə edilən uğurlu nəticələrdən biridir.

**Ölkəmizdə islahatların uğurla reallaşdırılması nəticəsində iri həcmdə strateji valyuta ehtiyatları formalaşmışdır. 2004-cü illə müqayisədə hazırda strateji valyuta ehtiyatları 25 dəfədən çox artaraq təqribən 46 milyard ABŞ dolları təşkil edir ki, bu da dünya iqtisadiyyatında davam edən mənfi trendlərin doğura biləcəyi riskləri azaltmağa və tam aradan qaldırmağa imkan yaratmaqla, gələcək inkişaf hədəflərinə uyğun olaraq iqtisadi inkişafın maliyyələşdirilməsi üçün mühüm amildir.** Bununla yanaşı, son 15 ildə ölkə iqtisadiyyatına qoyulmuş investisiyaların həcmi müstəqillik illərində yatırılmış ümumi sərmayələrin 93 faizini təşkil etməklə 250 milyard ABŞ dollarına çatmışdır. Daxili və xarici investisiyaların paylarının təxminən bərabər olması və qeyri-neft sektoruna yönələn investisiyaların neft sektorunu xeyli üstələməsi milli maraqların yüksək səviyyədə təmin olunduğu tarazlı iqtisadiyyatın formalaşdırılmasına və inkişafına əhəmiyyətli töhfədir. Son 15 il ərzində aparılan uğurlu siyasət nəticəsində qürur hissi ilə deyə bilərik ki, bu gün Azərbaycan özünün iqtisadi, maliyyə, enerji, nəqliyyat, ərzaq, hərbi-strateji və digər sahələrdə təhlükəsizliyini təmin edən nadir ölkələrdən biridir.

**Dövrün mühüm uğurlarından biri də Azərbaycan kapitalının transmilliləşməsi nəticəsində ölkəmizin qlobal geniş təkrar istehsal tsiklinə qoşularaq "ikinci iqtisadiyyatı"nı formalaşdırmaqla dünya gəlirlərindən pay əldə etmək imkanlarının yaradılmasıdır.** Artıq Azərbaycan dünya iqtisadiyyatında resipient ölkədən donor ölkəyə, yəni investisiya qəbul edən ölkədən investisiya ixrac edən ölkəyə çevrilmiş, yaxın coğrafiyada iri, etibarlı investor ölkə kimi yeni status əldə etmişdir. Azərbaycan bu dövrdə Türkiyə, Gürcüstan, Rusiya, Ukrayna, İran, Belarus, Moldova, İsveçrə və digər ölkələrin iqtisadiyyatlarına bütövlükdə 17 mlrd. dollardan çox sərmayə qoyuluşu həyata keçirmişdir. Yaxın qonşu və dost ölkələr olan Türkiyə və Gürcüstan iqtisadiyyatına qoyulan xarici investisiyaların həcminə görə ölkəmiz lider investor mövqeyinə sahibdir. Xüsusilə qeyd etmək lazımdır ki, "G 20" ölkəsi olan və iqtisadiyyatının ölçüsünə görə dünyada 17-ci yerdə qərarlaşan qardaş Türkiyə ilə investisiya əməkdaşlığı daha yüksək səviyyədə inkişaf etmişdir və 2020-ci ilədək Azərbaycanın qardaş ölkənin iqtisadiyyatına yatıracağı investisiyanın həcminin 20 milyard dollara çatdırılması planlaşdırılmışdır. Bu istiqamətdə Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (SOCAR) irimiqyaslı transmilli fəaliyyəti mühüm əhəmiyyət kəsb edir. Buna konkret misal olaraq 2008-ci ildə Türkiyənin ilk və yeganə neft-kimya müəssisəsi olan "Petkim Holdinq"in özəlləşdirilməsi zamanı SOCAR-ın 2,04 mlrd.dollar həcmində vəsait qoyuluşu ilə şirkətin səhmlərinin 51 faizinə sahib olmasını göstərmək olar. İllik istehsal gücü 3,6 milyon ton olan, 60 növdə məhsul istehsal edən və bu məhsulları 50-dən çox ölkəyə ixrac edən "Petkim Holdinq" hazırda Türkiyənin neft-kimya məhsullarına olan tələbatının 20%-ni təmin edir. Bundan əlavə, SOCAR tərəfindən Türkiyədə inşa edilmiş "Star" neft emalı zavodu Azərbaycan tarixində xarici ölkə iqtisadiyyatına ən böyük həcmdə sərmayə qoyuluşu layihəsi hesab olunur. Ümumi neft emalı gücü 10 milyon ton təşkil edən "Star" zavodunun tikilməsinə SOCAR tərəfindən 6,3 milyard dollar həcmində investisiya qoyulmuşdur. Layihənin həyata keçirilmə müddətində 19500 işçi çalışmış və zavod işə başladığı andan 1100 yeni iş yeri yaradılmışdır. İlkin hesablamalara görə, neftin qiymətindən asılı olaraq "Star"ın ticarət həcmi hər il 6-8 milyard dollar təşkil edəcəkdir. Bütün bunlar Azərbaycanın "ikinci iqtisadiyyatı"nın yaradılması istiqamətində önəmli addımlar olmaqla yanaşı, müasir beynəlxalq iqtisadi münasibətlər sistemində "nümayiş effekti" və "miqyas effekti" yaradan mühüm iqtisadi amil olaraq ölkəmizin dünya bazarındakı mövqelərini daha da gücləndirir.

Son 15 ildə Azərbaycan 3 qitəni və 3 dənizi birləşdirən nəhəng transkontinental neft-qaz və nəqliyyat-kommunikasiya layihələrnə imza atmışdır ki, bununla da ölkəmiz mühüm əhəmiyyət kəsb edən beynəlxalq enerji-kommunikasiya mərkəzinə, strateji nəqliyyat qovşağına çevrilmişdir. Nəhəng transmilli enerji layihələri olan Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəməri, Bakı-Tbilisi-Ərzurum qaz kəməri, təzəcə açılışını etdiyimiz Cənub Qaz Dəhlizi və onun tərkib hissəsi olan "Şahdəniz 2" layihəsi, Cənubi Qafqaz boru kəməri, TANAP qaz ixrac kəməri, yekunlaşmaqda olan TAP qaz ixrac kəməri, dünyanın enerji xəritəsini dəyişməklə, Avropanın enerji təhlükəsizliyində mühüm layihələrdən olmaqla, uzun müddət ölkəmizə milyardlarla valyuta gəlirlərinin gəlməsini təmin etməklə yanaşı, Azərbaycanı yaxın coğrafiya ücün, eləcə də Avropa üçün cox əhəmiyyətli ölkəyə çevirir.

2017-ci il sentyabrın 14-də Ümummilli lider Heydər Əliyev dühasının möhtəşəm nailiyyəti olan, XX əsrin neft sənayesi tarixinin ən nəhəng müqaviləsi sayılan "Əsrin müqaviləsi"nin başa çatmasına 7 il qalmış, onun fəaliyyət müddətinin daha əlverişli şərtlərlə 2050-ci ilədək uzadılmasını nəzərdə tutan, dünyanın ən məşhur 8 neft şirkəti ilə SOCAR arasında daha bir nəhəng, qlobal əhəmiyyətli - beynəlxalq ictimaiyyət tərəfindən "Yeni əsrin müqaviləsi" adlandırılan Sazişin imzalanması Azərbaycanın müstəqillik tarixinin çox əlamətdar hadisəsi olaraq, İlham Əliyev dövrünün ən mühüm uğurlarından biri kimi dəyərləndirilməlidir. Bu Saziş mübaliğəsiz olaraq, Prezident İlham Əliyevin 15 illik hakimiyyəti dövründə apardığı müstəqil, uzaqgörən, birmənalı şəkildə Azərbaycan xalqının milli mənafelərinə xidmət edən, gələcəyə - uzunmüddətli perspektivə hədəflənmiş müdrik siyasətinin təntənəsi kimi şərh olunmalıdır.

**Azərbaycan dövlətinin belə bir nəhəng sazişə imza atması ən azı 2050-ci ilə qədər ölkəmizin davamlı və dayanıqlı iqtisadi və sosial inkişafı üçün zəmanət yaratmaqla, həm də Azərbaycanın neft strategiyasında yeni eranın başlanğıcını qoydu.** Bu nəhəng transregional enerji müqaviləsinin son illərdə qlobal iqtisadiyyatda müşahidə olunan qeyri-stabil şərait fonunda baş tutması, birmənalı olaraq, ölkə rəhbərimiz Prezident İlham Əliyevin məharətli idarəçiliyini və regiondakı güclü Lider obrazını bir daha təsdiq edir.

"Yeni əsrin müqaviləsi"nin imzalanması sentyabr ayının ilk günlərində bəzi xarici mətbuatlarda Azərbaycan hakimiyyətinə qarşı səsləndirilən bütün qarayaxmalara da çox tutarlı cavab oldu. Bütün bu siyasi təzyiqlərə, toqquşan maraqlara baxmayaraq, nəhəng qlobal neft şirkətlərinin Azərbaycana uzunmüddətli dövr ərzində böyük miqdarda investisiya qoyuluşunu həyata keçirməsi dünya birliyinin Azərbaycan Prezidentinə, Azərbaycan iqtidarına olan inamının, etibarının ən bariz göstəricisi oldu, eyni zamanda, Prezident İlham Əliyevin cəsarətini, güclü siyasi iradəsini, Azərbaycanın necə etibarlı beynəlxalq tərəfdaş olduğunu bütün dünyaya nümayiş etdirdi.

"Əsrin müqaviləsi"nin 23 illik fəaliyyəti (1994-2017) dövründə 33 milyard dollar həcmində sərmayə qoyuluşu ilə 440 milyon ton neft hasil edilərək ölkəmizə 125 milyard dollardan çox birbaşa mənfəət qazandırmış "Azəri", "Çıraq" və "Günəşli" yataqlarının potensialının yarısından çoxunun hələ istifadə edilmədiyini nəzərə alsaq, onda yeni Sazişin ölkəmizin sosial-iqtisadi rifahına verəcəyi misilsiz töhfələr əvəzedilməz hesab edilməlidir. Belə ki, "Yeni əsrin müqaviləsi"nin şərtlərinə görə, fəaliyyət göstərəcəyi 32 il ərzində əlavə olaraq 40 milyard dollar həcmində investisiya qoyuluşları, 3,6 milyard dollar məbləğində bonusun dövlətə ödənilməsi, 500 milyon tondan çox neft hasilatının proqnozlaşdırılması, neftlə yanaşı hasil ediləcək səmt qazının tamamilə Azərbaycana məxsus olacağı nəzərdə tutulur. Mənfəət neftindən 75 faizlik payın əldə edilməsi və SOCAR-ın payının 2 dəfədən çox artaraq 11,65 faizdən 25 faizə yüksəldilməsi, xeyli sayda yeni iş yerlərinin yaradılması ölkə iqtisadiyyatının dinamik inkişafına səbəb olacaq böyük multiplikativ effektlər doğuracaqdır.

Eləcə də 40 milyard ABŞ dolları həcmində sərmayə qoyuluşu nəzərdə tutulan və indiyə qədər 31,4 milyard dolları

*Son 15 illik zaman kəsiyində baş verən uğurlu iqtisadi inkişaf prosesi ölkədə sosial sahədə də geniş islahatların aparılmasına və əhalinin sosial rifahının yüksəldilməsinə real imkanlar yaratmışdır*

sərf edilən, uzunluğu 3500 kilometr və 4 seqmentdən ibarət olan "Cənub Qaz Dəhlizi" layihəsini xüsusi olaraq vurğulamaq lazımdır. Artıq layihənin 3 seqmenti üzrə işlər, demək olar ki, yekunlaşmışdır. Xəzər dənizinin Azərbaycan sektorundakı "Şahdəniz-2" yatağından hasil olunacaq qazın bu ilin sonlarında Türkiyəyə, 2020-ci ilədək isə Avropaya nəql edilməsi planlaşdırılmışdır. Türkiyə və Avropanın enerji təhlükəsizliyi baxımından böyük əhəmiyyət daşıyan bu layihə Azərbaycanın qaz ixracatçısı ölkəsi kimi də dünya enerji bazarında mövqeyini gücləndirəcək və ildə 31 milyard kubmetrə qədər artırılması proqnozlaşdırılan qaz ixracı ölkəmizə böyük həcmdə gəlir - valyuta daxilolmaları təmin edəcəkdir.

Eyni zamanda, istifadəyə verilmiş Bakı-Tbilisi-Qars dəmir yolu xətti, Bakı Beynəlxalq Dəniz Ticarət Limanı, yeni Ələt-Astara-İran İslam Respublikası ilə dövlət sərhədi magistral avtomobil yolu, tikintisi yekunlaşmaqda olan Qəzvin-Rəşt-Astara (İran)-Astara (Azərbaycan) dəmir yolu xətti "Şərq-Qərb", "Şimal-Cənub" və "Cənub-Qərb" nəqliyyat dəhlizlərinin Azərbaycanda kəsişməsini və inteqrasiyasını təmin edərək ölkəmizi beynəlxalq nəqliyyat qovşaqlarından, logistika mərkəzlərindən birinə çevirir. **Belə qlobal əhəmiyyətli nəhəng layihələrin reallaşdırılması ilə Azərbaycanın Avrasiya geoiqtisadi məkanının bütün istiqamətləri arasında rəqabətqabiliyyətli və effektiv əlaqəni təmin edən "qitələrarası körpü" statusunu qazanması ölkəmizin iqtisadi qüdrətinin artırılmasında yeni mühüm strateji amilə çevrilməklə yanaşı, onun geosiyasi mövqeyini gücləndirəcək, regional təhlükəsizliyə və inkişafa mühüm töhfələr verəcəkdir.**

Bu 15 ildə Azərbaycanın iqtisadi və sosial inkişafının, innovasiyalara əsaslanan yeni iqtisadiyyatının formalaşması, kosmik sənayenin yaradılması, yüksək elmi-texnoloji sıçrayışın və uğurlu xarici siyasətinin məntiqi nəticəsi olaraq, ölkəmizin qısa bir müddətdə zəif inkişaf etmiş keçid iqtisadiyyatlı bir ölkədən dünyanın məhdud saylı, inkişaf etmiş olkələrinin təmsil olunduğu kosmik ölkələr statusuna yüksəlməsi İlham Əliyev siyasətinin ən möhtəşəm nailiyyətlərindən biri kimi qiymətləndirilməlidir. Bütün bu nailiyyətlər son on beş ildə Azərbaycan reallığında arzuların gerçəkləşməsi, xəyalların reallığa çevrilməsi kimi də dəyərləndirilə bilər.

Bu sahədə 2008-ci ildə "Azərbaycan Respublikasında kosmik sənayenin yaradılması və telekommunikasiya peyklərinin orbitə çıxarılması haqqında" Azərbaycan Respublikası Prezidentinin Sərəncamı və buna uyğun olaraq 2009-cu ildə "Azərbaycan Respublikasında kosmik sənayenin yaradılması və inkişafı üzrə Dövlət Proqramı"nın təsdiq olunması və reallaşdırılması ölkəmizdə yüksək texnologiyaların tətbiq olunmasına, kosmik sənayenin yaradılmasına, müasir kosmik layihələrin həyata keçirilməsinə təkan verdi. Məlum olduğu kimi, cənab İlham Əliyevin 15 illik Prezidentliyi dövründə "Azərkosmos" Açıq Səhmdar Cəmiyyəti yaradılmış, üç peyk - 2013-cü ilin fevral ayında "Azerspace-1", 2014-cü ilin dekabr ayında "Azersky", 2018-ci ilin sentyabr ayında "Azerspace-2" peykləri orbitə çıxarılmışdır. Bu peyklərin orbitə çıxarılması Azərbaycanı magistrallarının kəsişdiyi çoxölçülü informasiya-kommunikasiya məkanına çevirərək, onun geoiqtisadi funksiyalarını genişləndirmiş, xarici ölkələrdən informasiya asılılığını aradan qaldırmış və informasiya təhlükəsizliyini təmin etmişdir.

Hazırda Azərbaycan dünyanın 25 ölkəsində fəaliyyət göstərən 100-dən çox özəl və dövlət şirkətlərinə peyk xidmətləri göstərir və bu günə qədər bu xidmətlərdən əldə edilən gəlirlərin həcmi 104 milyon dollar təşkil etmişdir. Bu istiqamətdə ixracın genişləndirilməsi üçün mövcud olan böyük potensial növbəti illərdə daha çox özünü büruzə verəcək və təqribən 900 milyon dollardan çox vəsaitin daxil olmasını təmin edəcəkdir. Kommersiya xarakterli fəaliyyətlə yanaşı, peyklər ölkəmizin sosial-iqtisadi yüksəlişində, yeni elmi-tədqiqat sahələrinin yaranmasında, insan kapitalının inkişafında, beynəlxalq əməkdaşlığın genişləndirilməsində və s. müstəsna rol oynayacaqdır.

Bütün bunlar müasir dövrdə Azərbaycan iqtisadiyyatının dinamik inkişafında əhəmiyyətli rol oynamaqla yanaşı, gələcək illərdə də ölkəmizin siyasi və iqtisadi yüksəlişinə xüsusi dinamizm gətirəcəkdir. Bununla yanaşı, qarşılıqlı ticarət-iqtisadi əlaqələrin genişlənməsinə real şərait yaradan struktur dəyişikliklərinin həyata keçirilməsi, enerji, nəqliyyat, logistika, informasiya-kommunikasiya infrastrukturlarının yaradılması, yeni nəqliyyat dəhlizlərinin layihələri üzrə razılaşmaların əldə edilməsi, Xəzər dənizinin hüquqi statusu barədə Konvensiyanın qəbul edilməsi, əlverişli multikultural və biznes mühitinin yaradılması, Azərbaycanın regionun iqtisadi, maliyyə, enerji, tranzit və turizm mərkəzi kimi mövqeyini daha da gücləndirəcəkdir.

**Son 15 illik zaman kəsiyində baş verən uğurlu iqtisadi inkişaf prosesi ölkədə sosial sahədə də geniş islahatların aparılmasına və əhalinin sosial rifahının yüksəldilməsinə real imkanlar yaratmışdır.** Bütün bunların məntiqi nəticəsi olaraq, bu dövrdə nominal ifadədə əhalinin gəlirləri 8,6 dəfə, orta aylıq əməkhaqqı 7 dəfə, minimum əməkhaqqı 14,4 dəfə, pensiyalar 11,8 dəfə artmış, 2 milyona yaxın yeni iş yeri açılmış, yoxsulluğun səviyyəsi 5,4 faizə, işsizliyin səviyyəsi isə 5 faizə enmişdir. Ölkəmizdə sosial yönümlü bazar iqtisadiyyatı modelinin xarakterinə uyğun olaraq gəlirlərin yenidən bölgüsünü təmin edən dövlət büdcəsinin ildən-ilə əhəmiyyətli dərəcədə artması bütövlükdə ölkə iqtisadiyyatının çox sürətlə inkişaf etməsini göstərməklə yanaşı, bu inkişafın cəmiyyət həyatının bütün sahələrinə sirayət etməsinə geniş imkanlar yaratmışdır. Qeyd edək ki, 2003-cü illə müqayisədə 2018-ci ildə dövlət büdcəsinin gəlir və xərclərinin təqribən 18 dəfədən çox artması nəticəsində, bu dövr ərzində iri sosial, investisiya və infrastruktur layihələri həyata keçirilmişdir. Bütün bunların nəticəsi olaraq, hazırda Azərbaycan Respublikasının dövlət büdcəsi Cənubi Qafqaz ölkələri büdcəsinin 70 faizə qədərini təşkil edir ki, bu da ictimai həyatın bütün sferalarının inkişafında Azərbaycan dövlətinin işğalçı Ermənistanla müqayisədə ölçüyə gəlməz dərəcədə üstün olan gücünün və imkanlarının bariz göstəricisidir.

**Sosial rifah göstəricilərinin yüksək templərlə artmasına paralel olaraq əhaliyə göstərilən ictimai və sosial xidmətlərin həcmi və keyfiyyəti də əhəmiyyətli dərəcədə yüksəlməkdədir.** Bu istiqamətdə sosial innovasiyalara əsaslanan institusional mexanizmlərin yaradılması ölkəmizi dünya səviyyəsində nümunəyə çevirmişdir. Buna misal

davamı 5-ci səhifədə

# Azərbaycan iqtisadiyyatında fundamental keyfiyyət dəyişiklikləri

əvvəli 4-cü səhifədə

olaraq, 2012-ci ildə Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar Agentliyinin təsis edilməsini, onun idarəçiliyində hazırda dünyada Azərbaycan brendi kimi tanınan "ASAN xidmət" mərkəzlərinin fəaliyyət göstərməsini xüsusilə qeyd etmək lazımdır. Dövlət orqanlarının əhaliyə göstərdiyi xidmətləri vahid sistemdə birləşdirən bu mərkəzlərə indiyə qədər 24 milyona qədər müraciət daxil olmuş və xidmətlərin keyfiyyəti əhali tərəfindən yüksək qiymətləndirilmişdir. Eyni zamanda, "ABAD" (Ailə Biznesinə Asan Dəstək) mərkəzlərinin fəaliyyət göstərməsi və özünüməşğulluq proqramının icra olunması aztəminatlı ailələrin sosial yardımlardan asılılığının aradan qalxmasına və onların sosial fəallığının yüksəlməsinə şərait yaratmışdır. Bütün bunlar bir daha təsdiq edir ki, son 15 ildə ölkəmizdə həyata keçirilən sosial siyasətin xarakteri tamamilə dəyişmiş, sosial müdafiə və sosial təminat sferalarında əsaslı dönüşə nail olunmuşdur ki, nəticədə passiv sosial siyasətdən tədricən imtina edilərək aktiv sosial siyasətə keçid prosesinə başlanılmışdır. Hazırda bu istiqamətdə həyata keçirilən islahatlar uğurla davam etdirilməkdədir. Belə ki, əhalinin məşğulluğu, əmək, sosial müdafiə və sosial təminatı sahələrində idarəetmənin təkmilləşdirilməsi məqsədilə ölkə başçısının müvafiq Sərəncamı ilə Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dayanıqlı və Operativ Sosial Təminat (DOST) Agentliyi yaradılmış və onun idarəçiliyində "ASAN xidmət"in analoqu - DOST mərkəzlərinin yaradılması prosesinə start verilmişdür.

*Azərbaycançılıq ideologiyasının təkamülünə İlham Əliyev mərhələsi özünəməxsus dinamizm gətirərək, milli ideologiyamızı və milli şüurun əsaslarını daha da zənginləşdirməklə, Azərbaycan xalqının dünya birliyindəki mövqelərinin əhəmiyyətli dərəcədə yüksəldilməsinə nail olmuşdur*

**Məhz qazanılmış uğurların nəticəsidir ki, bu gün hər bir Azərbaycan vətəndaşı azərbaycanlı olduğu üçün qürur hissi keçirir.** Bu gün Azərbaycan vətəndaşının sosio-mədəni identiklik aspektindən özünü yenidən dərk etməsi prosesi baş verir. Müstəqilliyin ilk illərində özünü yoxsul, zəif bir ölkənin vətəndaşı sayan və hətta bu reallığı gizlətməyə çalışan insan artıq qısa bir müddət ərzində sürətli inkişaf və modernləşmə sayəsində qüdrətli bir dövlətə çevrilmiş ölkənin vətəndaşı olaraq həyatını fərqli meyarlar əsasında dəyərləndirir. Bu gün Ulu öndər Heydər Əliyevin "Mən fəxr edirəm ki, Azərbaycanlıyam" kəlamı hər bir vətəndaşın həyat devizinə, şərəf və qürur mənbəyinə çevrilmişdir. Müasir dünyada fərdləşmənin, kosmopolitləşmənin geniş cərəyan etdiyi bir dövrdə Azərbaycanda öz vətəninə, dövlətinə, xalqına, milli-mənəvi dəyərlərinə bağlılıq, vətəndaşlıq mövqeyi, azərbaycançılıq ideyası daha açıq şəkildə özünü büruzə verir. XIX əsrin sonu - XX əsrin əvvəllərindən təşəkkül tapmağa başlamış və bir əsr ərzində davamlı inkişaf yolu keçmiş azərbaycançılığın bütün dünya azərbaycanlılarını birləşdirən vahid ideologiya halına gəlməsi, müstəqil Azərbaycan dövlətinin ideya əsasına çevrilməsi Ümummilli lider Heydər Əliyevin tarixi xidmətidir və Onun adı ilə bağlıdır. 2001-ci il noyabr ayının 9-da Dünya azərbaycanlılarının birinci qurultayında dövlətin siyasətini səciyyələndirərkən Ulu öndər onun prioritet istiqamətini belə nəzərə çatdırmışdır: *"Müstəqil Azərbaycan dövlətinin əsas ideyası azərbaycançılıqdır. Hər bir azərbaycanlı öz milli mənsubiyyətinə görə qürur hissi keçirməlidir və biz azərbaycançılığı – Azərbaycan dilini, mədəniyyətini, milli-mənəvi dəyərlərini, adət-ənənələrini yaşatmalıyıq".* Azərbaycançılıq – müstəqil, suveren Azərbaycanın istiqlalını və bu ölkədə dünyəvi prinsiplərə malik sivil, demokratik dövlət uğrunda mübarizəni strateji məqsəd seçən Azərbaycan xalqının milli ideologiyasıdır.

**Azərbaycançılıq ideologiyasının təkamülünə İlham Əliyev mərhələsi özünəməxsus dinamizm gətirərək, milli ideologiyamızı və milli şüurun əsaslarını daha da zənginləşdirməklə, Azərbaycan xalqının dünya birliyindəki mövqelərinin əhəmiyyətli dərəcədə yüksəldilməsinə nail olmuşdur.** Cənab Prezident İlham Əliyev azərbaycançılıq məfkurəsini dövlətçiliyimizin ideoloji əsası kimi xarakterizə edərək demişdir: *"Bizi əsrlər boyu bir millət, bir xalq kimi qoruyan, saxlayan dəyərlərimiz olmuşdur. Bu gün bu məsələyə çox böyük diqqət göstərilir. Bu gün qloballaşan, çətinliklərlə üzləşən dünyada milli dəyərlərimiz bizim dövlətçiliyimizin təməlini təşkil edir. Bizim dövlətçiliyimizin çox möhkəm ideoloji əsasları vardır. Azərbaycançılıq məfkurəsi bizim əsas ideoloji dayağımızdır".* Bu gün azərbaycançılıq - təkcə sosial-mədəni sferada deyil, eləcə də sosial-iqtisadi müstəvidə hər bir Azərbaycan vətəndaşının siyasi, mənəvi, hüquqi, sosial keyfiyyətlərini birləşdirərək monolit bir xalq kimi milli bütövləşməsinin təməl prinsipi olmaqla ölkənin özünəməxsus inkişaf modelinin formalaşmasında müstəsna rol oynamaqdadır.

**Xüsusi vurğulamaq lazımdır ki, son 15 ildə ölkəmizdə sosial həmrəylik, sosial əməkdaşlıq və sosio-mədəni identikliyə, vətəndaş həmrəyliyinə, xalq-iqtidar birliyinə əsaslanan ictimai-siyasi sabitliyin daha da gücləndirilməsinə nail olunması məhz azərbaycançılığın dövlət siyasətinin prioritet istiqaməti olaraq müəyyən edilməsi və bu istiqamətdə ardıcıl, məqsədyönlü işlərin həyata keçirilməsi ilə əlaqədar olmuşdur.** Xüsusilə, dünyada və yaxın coğrafiyamızda islamofobiya, ksenofobiya, antisemitizm, dini radikalizm və dini ekstremizm meyillərinin gücləndiyi, dini, etnik və siyasi zəmində qanlı toqquşmaların, vətəndaş müharibələrinin, terror və s. kimi xoşagəlməz faciəli hadisələrin baş verdiyi bir şəraitdə ictimai-siyasi sabitliyin qorunması və onun daha da dərinləşdirilməsi həyati vacib məsələyə çevrilmişdir. Hazırda Azərbaycan ərazisində 804-ü islam, 31-i qeyri-islam (xristian, yəhudi və s.) olmaqla 835 dini qurum, eyni zamanda, 2250 məscid, 14 kilsə, 7 sinaqoq fəaliyyət göstərir. Göründüyü kimi, əhalisinin əksər hissəsinin müsəlman-türk mənşəli olmasına baxmayaraq, Azərbaycan çoxmillətli və çoxkonfessiyalı ölkə hesab olunur və ölkəmizin geosiyasi mövqeyi mədəni, etnik və dini müxtəlifliklərin meydana gətirə biləcəyi riskləri, o cümlədən assimilyasiya və dövlətin unitar əsaslarına təhdid ola biləcək riskləri hər zaman etibarlı şəkildə nəzarətdə saxlamağı tələb edir. Məhz azərbaycançılıq məfkurəsindən irəli gələrək ölkəmizdə vətəndaş həmrəyliyinə əsaslanan əlverişli multikultural mühitin yaradılması nəticəsində Azərbaycan bu sahədə qibtə olunacaq səviyyədə makrososial və ictimai sabitliyə nail olmuş, bu gün əsl demokratik və liberal dəyərlərə əsaslanan dövlət idarəçiliyi və dövlət siyasətini, nümunəvi tolerantlıq və multikulturalizmə əsaslanan həyat tərzini dünyaya təqdim etməkdədir.

Bu gün ölkəmizdə, sözün əsl mənasında, vətəndaş həmrəyliyi mövcuddur, müxtəlif dinlərə, konfessiyalara, etnik qruplara mənsub olan insanların bir arada sülh, əmin-amanlıq, qarşılıqlı hörmət və etimad şəraitində yaşaması üçün dövlət tərəfindən bütün şərait yaradılmışdır. 2003-2018-ci illər ərzində Azərbaycanda 220-dən çox məscid, kilsə, sinaqoqun tikilməsi, yaxud bərpa olunması və əsaslı surətdə yenidənqurulması bunun əyani sübutudur. Bunlarla yanaşı, ölkə başçısı cənab İlham Əliyevin müvafiq sərəncamları ilə azərbaycançılıq məfkurəsinə uyğun olaraq tolerantlığın və mədəni, dini, linqvistik müxtəlifliyin qorunmasını təmin etmək, habelə Azərbaycanı dünyada multikulturalizm mərkəzi kimi tanıtmaq və mövcud multikultural modelləri tədqiq və təşviq etmək məqsədilə 2014-cü ildə "Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi" yaradılmış, mənəvi dəyərlərin qorunmasına və inkişafına, bu sahədə sosial layihələrin reallaşdırılmasına, həmçinin vətəndaşların dini etiqad azadlığının həyata keçirilməsinə dövlət dəstəyinin göstərilməsi məqsədilə 2017-ci ildə "Mənəvi Dəyərlərin Təbliği Fondu" təsis edilmişdir. Azərbaycanda multikulturalizm ənənələrinin qorunub saxlanılması, daha da inkişaf etdirilməsi və geniş təbliğ olunması məqsədilə 2016-cı il "Multikulturalizm İli", İslam dünyasında həmrəyliyinin bərqərar olmasında Azərbaycanın özünəməxsus mövqeyinin möhkəmləndirilməsini təmin etmək məqsədi ilə 2017-ci il "İslam Həmrəyliyi İli" elan olunmuşdur. Eyni zamanda, ölkəmizin paytaxtı Bakı şəhərində multikulturalizm, sivilizasiyalararası dialoq və tolerantlıq mövzusunda çoxlu sayda nüfuzlu beynəlxalq tədbirlər, konfrans və forumlar keçirilmişdir. Hazırda dünyanın 13, Azərbaycanın 28 ali təhsil müəssisəsində Azərbaycan multikulturalizmi kursu tədris olunur. Göründüyü kimi, Azərbaycan bu 15 il ərzində dünyada multikulturalizmin inkişafına böyük töhfələr verən nadir ölkələrdən birinə çevrilmişdir.



Eyni zamanda, bu istiqamətdə Prezident İlham Əliyevin şəxsi təşəbbüsü sayəsində 2008-ci ildən reallaşdırılmağa başlayan "Bakı Prosesi"ni xüsusilə qeyd etmək lazımdır ki, bunun da müxtəlif sivilizasiyalar və xalqlar arasında dialoq və əməkdaşlığın inkişaf etdirilməsində müstəsna əhəmiyyəti beynəlxalq ictimaiyyət tərəfindən qəbul edilmiş və böyük rəğbətlə qarşılanmışdır. Eləcə də 2009-cu ildə Bakı şəhərinin və bu il isə Naxçıvan şəhərinin İslam mədəniyyətinin paytaxtı elan olunması, xüsusilə 2017-ci ildə IV İslam Həmrəyliyi Oyunlarının Bakıda keçirilməsi və bu mötəbər, çoxmillətli, multi-idman turnirində ilk dəfə olaraq 54 müsəlman ölkəsini təmsil edən 3 mindən çox idmançının iştirak etməsi Azərbaycanın İslam dünyasındakı nüfuzundan və dünya müsəlmanlarının həmrəyliyinin gücləndirilməsi istiqamətində özünəməxsus əhəmiyyətli mövqeyindən xəbər verir. Beləliklə, təsadüfi deyil ki, son 15 ildə **Azərbaycan beynəlxalq humanitar, mədəni, sivilizasiyalararası dialoq, multikulturalizm mərkəzlərindən birinə çevrilərək dünya birliyində yeni dəyər, yeni status qazanmışdır.** Azərbaycan bu illər ərzində milli, mənəvi dəyərlərini zənginləşdirməklə yanaşı, ümumbəşəri dəyərlərə və qlobal xarakterli problemlərin həllinə də çox mühüm töhfələr vermişdir. Bu gün Azərbaycan etibarlı tərəfdaş, qlobal və regional sülh, təhlükəsizlik, əməkdaşlıq və inkişaf təşəbbüskarı, sivilizasiyalararası dialoq məkanı, tolerantlıq və multikulturalizm mərkəzi, xarici və daxili siyasətdə hər zaman humanizm və ədalətliliyə söykənən dövlət kimi dünyada tanınır və bu dəyərlər sisteminin nümunəvi daşıyıcısı kimi böyük nüfuz qazanmışdır.

Xüsusi olaraq vurğulamaq lazımdır ki, son 15 ildə **Azərbaycanda hüquqi-demokratik dövlət quruculuğu istiqamətində geniş islahatlar həyata keçirilmiş, bütün fundamental azadlıqlar (söz, sərbəst toplaşma, mətbuat, vicdan azadlığı və s.) tam təmin edilmiş, vətəndaş cəmiyyəti institutlarının fəaliyyəti üçün əlverişli şərait formalaşdırılmışdır.** Bu dövrdə dövlətçiliyimizin konstitusion əsaslarının təkmilləşdirilməsi istiqamətində mühüm əhəmiyyət kəsb edən mütərəqqi addımlar atılmışdır. Bildiyimiz kimi, hər bir ölkədə Konstitusiya cəmiyyət həyatının iqtisadi, siyasi, sosial, mədəni və digər sahələrində yaranan münasibətləri tənzimləyən, dövlətin institusional sistemini və ölkənin gələcək inkişaf istiqamətlərini müəyyənləşdirən, həmçinin vətəndaş cəmiyyətinin formalaşmasını, insan hüquqları və azadlıqlarını təmin edən ali qanunvericilik sənədi hesab edilir. Xalqımızın xoşbəxtliyi ondadır ki, müstəqil Azərbaycanın Konstitusiyasının hazırlanması Ulu öndər Heydər Əliyevə nəsib olmuş və O, bu vəzifənin öhdəsindən çox məharətlə və uzaqgörənliklə gəlmişdir. Bu Konstitusiya ilə müstəqil Azərbaycanın dövlət quruculuğunun hüquqi əsasları müəyyən edildi, Azərbaycan demokratik, hüquqi, dünyəvi dövlət kimi ilk dəfə olaraq insan hüquqlarının prioritetliyini və hakimiyyət bölgüsünün demokratikliyini özünün gələcək inkişaf yolu kimi seçmişdir. Beləliklə, 1995-ci ildə Azərbaycan Respublikasının yeni Konstitusiyasının qəbulu müstəqillik tariximizin şərəfli səhifələrindən biri olmaqla, müasir Azərbaycan dövlətçiliyinin inkişafında müstəsna rol oynamış və oynamaqdadır.

Zaman-zaman dünyada baş verən qlobal çağırışlara, dinamik dəyişən geosiyasi şəraitin xarakterinə, ölkədə həyata keçirilən köklü islahatlara adekvat olaraq ümummilli inkişaf maraqları kontekstində referendumlar yolu ilə Konstitusiyaya əhəmiyyətli dəyişikliklər qəbul edilmişdir. Bu dəyişikliklər nəticəsində ölkədə seçki sistemi daha da təkmilləşdirilmiş, insan hüquq və azadlıqlarının təminatı gücləndirilmiş, dövlətin sosial məsuliyyətinin artırılması, yerli özünüidarənin inkişafı və s. istiqamətlərdə mütərəqqi dəyişikliklər baş vermişdir. Xüsusilə 2016-cı ildə qəbul edilən sonuncu dəyişikliklər bugünkü Azərbaycan cəmiyyətində mövcud olan ictimai-siyasi və iqtisadi sabitliyi qoruyub saxlamaq, dövlət hakimiyyəti institutlarının fəaliyyətini, dövlət təhlükəsizliyi və ordu quruculuğunu təkmilləşdirmək, vətəndaşların hüquq və azadlıqlarının təminatını gücləndirmək, gənclərin ölkənin ictimai-siyasi həyatında daha fəal iştirakını təmin etmək, mülkiyyət və əmək münasibətlərində səmərəliliyi və sosial məsuliyyəti artırmaq istiqamətində səmərəli islahatlar həyata keçirməyə əlverişli hüquqi təminat yaratmışdır.

2016-cı il referendumunun ən mühüm nəticələrindən biri də ölkəmizdə dövlət idarəçiliyi sisteminin daha da təkmilləşdirilməsinə xidmət edən vitse-prezidentlik institutunun təsis olunmasıdır. Məhz bu mütərəqqi dəyişiklik nəticəsində 21 fevral 2017-ci il tarixində Mehriban xanım Əliyevanın Azərbaycan Respublikasının Birinci vitse-prezidenti təyin edilməsi Azərbaycanın ictimai-siyasi həyatında müstəsna əhəmiyyət kəsb edən çox müdrik bir qərar olmuşdur. Belə ki, o, bu dövrə qədər Azərbaycanın birinci xanımı, Milli Məclisin deputatı, Yeni Azərbaycan Partiyasının Sədr müavini, Heydər Əliyev Fondunun, Azərbaycan Mədəniyyət Fondunun və Azərbaycan Gimnastika Federasiyasının prezidenti, UNESCO və İSESCO-nun xoşməramlı səfiri kimi gördüyü genişmiqyaslı və çoxşaxəli işlərlə özünü nəinki Azərbaycanda və yaxın coğrafiyada, eləcə də dünyada böyük nüfuza sahib olan dövlət xadimi kimi tanıtmış və təcrübəli siyasətçi, yüksək idarəetmə və təşkilatçılıq məharətinə malik səriştəli dövlət adamı kimi tamamilə doğrultmuşdur. Ölkə ictimaiyyəti tərəfindən də birmənalı şəkildə müsbət qarşılanan bu qərar hər şeydən öncə Azərbaycan dövlətçiliyinin möhkəmləndirilməsinə, milli təhlükəsizliyimizin qorunmasına və Heydər Əliyev siyasətinin uğurla davam etdirilməsinə xidmət edəcəkdir. Mehriban xanım Əliyevanın yeni, yüksək məsuliyyət tələb edən Birinci vitse-prezident vəzifəsinə təyin olunması, eyni zamanda, Azərbaycan qadınının cəmiyyətdəki rolunun artırılmasına, xalqımızın sosial, mədəni rifahının və ölkəmizin beynəlxalq nüfuzunun yüksəldilməsinə əhəmiyyətli töhfələr verməklə, prezidentlik institutunu da gücləndirərək dövlətçilik tariximizə yeni mərhələ kimi daxil olacaqdır.

Dövlət idarəçiliyi sisteminin təkmilləşdirilməsi və effektivliyinin yüksəldilməsi ilə yanaşı, bu dövrdə həyata keçirilmiş islahatların məntiqi nəticəsi olaraq, ölkəmizdə formalaşdırılmış tam demokratik və şəffaf şəraitdə minlərlə vətəndaş cəmiyyəti institutları - siyasi partiyalar, qeyri-hökumət təşkilatları, kütləvi-informasiya vasitələri (KİV), həmkarlar ittifaqları, sahibkarlıq subyektləri azad fəaliyyət göstərir, dövlət tərəfindən onların fəaliyyətini dəstəkləyən zəruri hüquqi, inzibati və maliyyə dəstəyi mexnizmləri tətbiq edilir. Hazırda ölkədə 55 siyasi partiya, 3 mindən çox qeyri-hökumət təşkilatı, 5 mindən çox KİV-lər, 2 milyona yaxın insanı birləşdirən həmkarlar ittifaqları sərbəst fəaliyyət göstərir. Hər il siyasi partiyaların fəaliyyətinin maliyyələşdirilməsinə dövlət büdcəsindən vəsaitlərin ayrılması, qeyri-hökumət təşkilatlarının bir çox layihələrinin dövlət tərəfindən qrant maliyyələşdirilməsi, KİV-in maddi-texniki bazasının möhkəmləndirilməsi, jurnalistlərin sosial müdafiəsinin gücləndirilməsi, eləcə də onların mənzil şəraitinin yaxşılaşdırılması istiqamətində görülən işlər respublikamızda siyasi plüralizmin, söz və mətbuat azadlığının təmin olunmasına, bir sözlə, vətəndaş cəmiyyəti quruculuğuna dövlətin diqqət və qayğısının bariz təzahürləridir. Ölkəmizdə siyasi, iqtisadi, sosial, mədəni sferalarda könüllü olaraq yaranan və fəaliyyət göstərən vətəndaş cəmiyyəti institutları bu gün ictimaiyyəti maraqlandıran məsələlərə dövlət tərəfindən heç bir təzyiq olmadan azad şəkildə münasibət bildirir, ictimai müzakirələrə fəal surətdə cəlb olunur, qəbul ediləcək qanun layihələri ilə bağlı təkliflər və təşəbbüslər irəli sürür, maarifləndirici layihələr həyata keçirirlər və beləliklə, vətəndaş maraqlarından çıxış edərək dövlət strukturları ilə effektiv münasibətlər sistemi formalaşdırmışlar.

**Son 15 ildə Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Respublikası dövlət quruculuğunun bütün istiqamətlərində olduğu kimi, xarici siyasət sahəsində də ciddi uğurlu addımlar atmışdır.** Əsası Ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş xarici siyasət strategiyası tarixi təcrübəni, geosiyasi reallıqları nəzərə alaraq, çoxvektorlu və tarazlaşdırılmış əsasda praqmatik və realist prinsiplərlə həyata keçirilir. Bu müstəqil siyasətin əsasını Azərbaycanın milli maraqları və ölkə vətəndaşlarının mənafeyinin və təhlükəsizliyinin qorunması təşkil edir. **Məhz bu prizmadan yanaşaraq milli maraqlara söykənən müstəqil xarici siyasət yürütməklə ölkəmiz dünyada etibarlı tərəfdaş kimi beynəlxalq siyasi nüfuzunu və çəkisini xeyli artırmış, regionda söz sahibinə, lider dövlətə çevrilmişdir.** Böyük güclərin çarpazlaşan maraqlarının Azərbaycanın milli mənafelərinə uyğun olaraq bu coğrafiyada balanslaşdırılması ölkə başçımızın yüksək intellekti, cəsarətli və uzaqgörən siyasəti nəticəsində mümkün olmuşdur. Ölkəmizin ikitərəfli və çoxtərəfli regional əməkdaşlıq formatlarında fəal iştirak etməsi və təşəbbüskarlığı, 155 dövlətin dəstəyi ilə BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçilməsi, 120 dövlətin təmsil olunduğu Qoşulmama Hərəkatına üzv və 2019-2022-ci illər üzrə Hərəkata sədrliyinin qəbul edilməsi, Avropa İttifaqına (Aİ) üzv olan 9 ölkə ilə strateji tərəfdaşlıq əlaqələrinin qurulması və Aİ ilə "Tərəfdaşlıq prioritetləri" sənədinin imzalanması, Xəzərin hüquqi statusuna dair Konvensiyanın qəbul edilməsi, sivilizasiyalar arasında dialoqun inkişafı naminə "Bakı Prosesi"nin reallaşdırılması Azərbaycanın regionda və dünyada nüfuzlu aktor və söz sahibi olan dövlətlər sırasında yerini kifayət qədər möhkəmləndirmiş və siyasi çəkisini xeyli artırmışdır.

*Prezident İlham Əliyevin son dərəcə düşünülmüş və uzaqgörən siyasəti nəticəsində işğalçı Ermənistan bütün beynəlxalq layihələrdən təcrid edilərək, bu coğrafiya üçün əhəmiyyətsiz və inkişaf yolunda başlıca maneə yaradan ölkəyə çevrilmişdir*

Prezident İlham Əliyevin güclü siyasi iradəsi, müdrik və uzaqgörən siyasəti nəticəsində Azərbaycan gündən-günə dünyanın əksər ölkələri ilə siyasi, iqtisadi əlaqələrini və dostluq bağlarını gücləndirərək, illər ərzində formalaşdırmış olduğu zəngin iqtisadi və infrastruktur potensialını, geosiyasi və geoiqtisadi mövqeyini, əhatə etdiyi coğrafiyanı böyük üstünlüklərə və inkişafı təmin edən faktorlara çevirə bilmişdir. Azərbaycanın xarici siyasətində qarşılıqlı faydalılıq prinsipi ilə yanaşı, dövlətlərarası çərçivədən çıxan və regional əhəmiyyət kəsb edən ikitərəfli əlaqələrin inkişafına və şaxələndirilməsinə xüsusi diqqət yetirilir və eyni zamanda, regional təhlükəsizlik, xüsusilə ölkənin milli təhlükəsizliyi əsas məqsədlərdən biri kimi müəyyən edilmişdir. Regional və milli təhlükəsizliyin təmin olunmasında əsas şərtlərdən biri də dövlət tərəfindən balanslaşdırılmış siyasətin uğurla həyata keçirilməsidir. Zəngin təbii sərvəti, əlverişli geosiyasi və geoiqtisadi mövqeyi ilə Azərbaycanın dünyanın güc mərkəzlərinin çarpazlaşan maraqları dairəsində olmasına baxmayaraq, Prezident İlham Əliyev müstəqil siyasi iradəsi ilə region ölkələri, xüsusilə də qonşu ölkələrlə strateji münasibətləri yüksələn xətlə inkişaf etdirərək, təşəbbüskarı və iştirakçısı olduğu transmilli enerji və nəqliyyat layihələrini uğurla reallaşdırmaqla bu maraqların balanslaşmasını böyük məharətlə təmin edə bilmişdir. Təbii ki, bu layihələr həm Azərbaycana, həm də iştirakçı ölkələrə böyük dividendlər, faydalar gətirir və şübhəsizdir ki, gələcək dövrlərdə də ölkəmizin regionda təhlükəsizliyinin təmin edilməsinə, səmərəli siyasi-iqtisadi əlaqələrinin inkişaf etdirilməsinə əhəmiyyətli töhfələr verəcəkdir.

Məhz 15 il ərzində xarici siyasət sahəsində əldə edilmiş uğurların nəticəsidir ki, Prezident İlham Əliyev hakimiyyətə gəldiyi gündən etibarən Ermənistan-Azərbaycan Dağlıq Qarabağ problemi ilə bağlı prinsipial mövqeyini yüksək siyasi iradəsi, intellekti və diplomatik məharəti sayəsində - BMT-nin Baş Assambleyası, ATƏT, AŞPA, Avropa İttifaqının Parlament Assambleyası, İƏT və s. nüfuzlu beynəlxalq təşkilatların müvafiq sənədlərində əks olunmasına nail ola bilmişdir və bu da problemin yalnız ölkəmizin ərazi bütövlüyünün təmin olunması prinsipi ilə həllinin mümkünlüyü deməkdir. Eyni zamanda, **Prezident İlham Əliyevin son dərəcə düşünülmüş və uzaqgörən siyasəti nəticəsində işğalçı Ermənistan bütün beynəlxalq layihələrdən təcrid edilərək, bu coğrafiya üçün əhəmiyyətsiz və inkişaf yolunda başlıca maneə yaradan ölkəyə çevrilmişdir.**

Böyük qürur hissi ilə qeyd edilməlidir ki, **Prezident İlham Əliyevin son illərdə Ali Baş Komandan kimi diqqət və qayğısı sayəsində ölkəmizin hərbi qüdrəti əhəmiyyətli dərəcədə yüksəlmişdir.** Bu il 26 iyun Azərbaycan Ordusunun 100 illiyi və 15 sentyabr Bakının işğaldan azad olunmasının 100 illiyi münasibətilə keçirilmiş iki möhtəşəm hərbi paradda ölkəmizin hərbi-müdafiə potensialının kiçik bir hissəsi Azərbaycan xalqına və dünyaya nümayiş etdirildi. Hazırda dünyada ən güclü 50 ordu sırasında Azərbaycanın Silahlı Qüvvələrinin də yer alması bunun bariz nümunəsidir. Ordumuzun gücünün və döyüş qabiliyyətinin ən real təsdiqi isə Silahlı Qüvvələrimizin 2016-cı ilin aprel və 2018-ci ilin may aylarında qısa müddət ərzində minlərlə hektar ərazini işğalçılardan azad etməsidir. Qürurverici faktdır ki, döyüşlərdə əsasən yerli istehsal olan hərbi məhsullardan istifadə edilmişdir. Qeyd etmək lazımdır ki, hazırda ölkəmizdə 1200 adda hərbi təyinatlı məhsul istehsal edilir və eyni zamanda, istehsal olunan bu məhsullar daxili ehtiyaclarımızı tam ödəməklə yanaşı, dünyanın onlarla ölkəsinə ixrac olunmaqdadır ki, bu da ölkəmizin hərbi-strateji mövqeyinə keyfiyyətcə yeni məzmun qazandırmışdır.

Şübhəsizdir ki, əldə edilmiş bütün bu misilsiz nailiyyətlər qlobal siyasi-iqtisadi arenada böyük "nümayiş effekti" yaradaraq, bu gün Azərbaycanla strateji əməkdaşlığın inkişafında və dərinləşdirilməsində maraqlı olan ölkələrin diqqətini cəlb edir və sayını əhəmiyyətli dərəcədə artırır.

**Bütün bunlar bir daha təsdiq edir ki, cənab İlham Əliyev ötən dövr ərzində həyata keçirdiyi genişmiqyaslı, misilsiz işləri ilə, həqiqətən də, hər bir azərbaycanlının Prezidenti olduğunu tam təsdiq etmişdir. Azərbaycan ərazisinə, əhalinin sayına və iqtisadiyyatının həcminə görə böyük ölkə olmasa da, onun İlham Əliyev kimi böyük Lideri, müdrik və uzaqgörən rəhbəri vardır.** ABŞ-ın nüfuzlu konqresmeni Kurt Ueldonun sözləri ilə desək: *"Bir çox xalqlar arzulayırlar ki, onların da cənab İlham Əliyev kimi bacarıqlı, 5 dildə danışa bilən, müxtəlif mövzulara dair geniş bilgilərə malik, geniş dünyagörüşlü Lideri olsun. Hesab edirəm ki, bu mənada Azərbaycan xoşbəxt ölkədir, çünki bu ölkəyə İlham Əliyev kimi Lider qismət olmuşdur".* Məhz İlham Əliyevin rəhbərliyi ilə bu gün ölkəmizdə müasir, müstəqil Azərbaycan dövlətinin banisi Ümummilli lider Heydər Əliyev siyasəti yaşayır və cəmiyyətimizin həyatında, dünyada baş verən proseslərə, müasir dövrün tələb və çağırışlarına uyğun olaraq təkmilləşdirilir, modernləşdirilir və uğurla davam etdirilir. Heç bir alternativi olmayan bu ümummilli inkişaf yolu həm müasir Azərbaycanın memarı Ümummilli lider Heydər Əliyevin, həm də 100 illiyini qeyd etdiyimiz Azərbaycan Xalq Cümhuriyyətinin qurucularının xalqımızın suveren və firavan gələcəyi ilə bağlı arzularını tam gerçəkliyə çevirməklə yanaşı, bizi daha böyük uğurlara, tərəqqiyə və ümumxalq rifahına aparır.

# Misir və Livan mətbuatı Ulu öndər Heydər Əliyev haqqında silsilə məqalələr yayıb





Misirin və Livanın aparıcı mətbuat orqanları Ulu öndər Heydər Əliyev haqqında silsilə məqalələr yayıb.

AZƏRTAC xəbər verir ki, Misirin yarım milyon tirajla çıxan gündəlik “Əl-Əhram” qəzeti, eləcə də nüfuzlu “El-Vatan”, “Al-Masry Al-Youm” qəzetləri, həmçinin Livanın “Ən-Nəhar”, “Al3arabia.net”, “Lebanesenews”, “Alseyasa.com”, “Cedarnews.net”, “Araznews” və digər xəbər saytları tərəfindən yayılan məqalələrdə Heydər Əliyev şəxsiyyətinin böyüklüyündən, Onun zəngin və çoxşaxəli fəaliyyətindən, Azərbaycan xalqı və dövləti qarşısındakı misilsiz xidmətlərindən ətraflı bəhs edilir.

Məqalələrdə Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin vəfatından 15 il keçdiyi bildirilir.

Qeyd edilir ki, bu böyük insan Azərbaycana onilliklər boyu rəhbərlik edib, xalqın xatirəsində tarixi lider və ölməz şəxsiyyət kimi yaşayır. Heydər Əliyev Azərbaycanı parçalanmaq təhlükəsindən xilas edərək birliyə, sabitliyə nail olub, onu yoxsulluq səviyyəsindən, gerilikdən qurtararaq həyatın bütün sahələrində tərəqqiyə, çiçəklənməyə aparıb. Məhz buna görə də O, ölməz tarixi lider və müasir Azərbaycanın memarı kimi yaddaşlara həkk olub. O, milli birlik üçün sabitlik yaradıb, Azərbaycan xalqının həyatının çətin anlarında vətəndaş müharibəsinin baş verməsinin qarşısını alıb. Bu böyük liderin həyat və fəaliyyətindən yazmaq üçün bir ensiklopediya lazımdır. Onun tərcümeyi-halının hər bir məqamı milli irsdir, Azərbaycan xalqının fəxr mənbəyidir. Heydər Əliyev Azərbaycanın müasir tarixini yaradıb.

Yazılarda Heydər Əliyevin 1923-cü il mayın 10-da Azərbaycanın qədim diyarı olan Naxçıvanda dünyaya göz açdığı qeyd edilir. Naxçıvanın Azərbaycan tarixində, elmində, mədəniyyətində dərin izlər qoymuş ədiblərin, mütəfəkkirlərin vətəni olduğu diqqətə çatdırılır. Ulu öndərin gənclik illəri, tutduğu yüksək vəzifələr, hələ Sovet Azərbaycanına rəhbərliyi dövründə respublikanın inkişafı üçün gördüyü mühüm işlər haqqında ətraflı məlumat verilir. Bildirilir ki, Heydər Əliyev gənclərə hər zaman diqqət və qayğı ilə yanaşırdı. O, hesab edirdi ki, gənclər Azərbaycanın gələcəyidir. Ona görə də Heydər Əliyevin prioritetlərindən biri məhz gənclər üçün təhsil imkanlarının təmin edilməsi idi. Bu gün həmin gənclər ölkənin inkişafına xüsusi töhfələr verirlər.

1982-ci ildə Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsi Siyasi Bürosunun üzvü seçilən Heydər Əliyevin SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsinə təyin olunduğu qeyd edilən məqalələrdə bunun Ulu öndərin siyasi karyerasında yeni mərhələ olduğu diqqətə çatdırılır. Vurğulanır ki, Heydər Əliyevin Siyasi Büroya üzv seçilmiş ilk azərbaycanlı olması da Azərbaycan xalqının tarixində mühüm hadisə idi.

Yazılarda 1993-cü ildə Ümummilli lider Heydər Əliyevin müstəqil Azərbaycan Respublikasında siyasi hakimiyyətə qayıdışından sonra ölkədə gedən sürətli inkişaf prosesləri, həyata keçirilən islahatlar barədə məlumatlar ətraflı şəkildə oxucuların diqqətinə çatdırılır. Bildirilir ki, Prezident Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi dövrdə ölkənin müstəqilliyinin möhkəmlənməsi, inkişafı yolunda çalışıb. Təsadüfi deyil ki, Onun hakimiyyəti illəri, haqlı olaraq, Azərbaycanın müasir dövlət quruculuğu yolunda köklü dəyişikliklər və inkişaf mərhələsi sayılır. Həmin illərdə daxili və xarici siyasətdə böyük dəyişikliklər baş verdi. Azərbaycan Heydər Əliyevin rəhbərliyi ilə müasir tarixinin yeni mərhələsinə daxil oldu, dünya birliyində fəal dövlətə çevrildi, beynəlxalq ictimaiyyətin nəzəri Xəzər dənizi hövzəsində yerləşən Qafqaz regionundakı bu ölkəyə yönəlməyə başladı.

Məqalələrdə vurğulanır ki, Ümummilli lider Heydər Əliyevin vəfatından 15 il keçsə də O, özünün böyük xidmətləri ilə Azərbaycan xalqının yaddaşında qalır. Azərbaycan xalqının Ulu öndərin vəfatının ildönümlərini qeyd etməsi Onun xatirəsinə ehtiramdan irəli gəlir.

Qeyd edilir ki, bu gün Azərbaycan Heydər Əliyevin irsinə əsaslanaraq Prezident İlham Əliyevin rəhbərliyi ilə dinamik inkişaf edən ölkədir. Azərbaycan iqtisadiyyatı çox böyük inkişaf göstəriciləri əldə edib. Prezident İlham Əliyevin davamlı demokratik və iqtisadi islahatları, Onun müdrik rəhbərliyi, fəal xarici siyasəti Azərbaycanı regional müstəvidə öncül dövlətə və beynəlxalq münasibətlərdə etimad edilən inamlı tərəfdaşa çevirib. Azərbaycan bütün regional məsələlərdə aparıcı rol oynayır, inkişafın bəhrələrini tərəfdaşlıq və əməkdaşlıq əsasında region dövlətləri ilə bölüşür.

# Ukraynanın birinci prezidenti: Heydər Əliyev özünü ölkəsindən kənarda təsəvvür etmirdi

**“Heydər Əliyev Azərbaycanın Övladıdır. Bu barədə əlavə heç nə deməmək də olar... Bununla hər şey deyilib. O, öz xalqının Övladıdır. Heydər Əliyev mənimlə söhbətində həmişə Azərbaycan barədə danışırdı. O, özünü ölkəsindən kənarda təsəvvür etmirdi”.**




Ukraynanın birinci prezidenti Leonid Kravçuk bu sözləri “Moskva-Bakı” portalına müsahibəsində söyləyib.

AZƏRTAC xəbər verir ki, L.Kravçuk Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyev haqqında xatirələrini bölüşüb. O deyib:

- Heydər Əliyevi ilk dəfə Sov. İKP qurultayında gördüm. O, çıxış edirdi, mən isə zalda Onu dinləyirdim. Heydər Əliyev çox parlaq, emosional çıxış edir, şərqlilərə xas olan müqayisələr aparırdı. Onda həmkarlarımdan soruşdum: “Heydər Əliyev əvvəllər harada işləyib?” Mənə dedilər ki, təhlükəsizlik xidmətində çalışıb. Mən heyrətləndim, çünki DTK-da işləyən adamlar, bir qayda olaraq, parlaq natiqlər deyildi, onlar şəxsiyyətləri ilə seçilməyən, kölgədə işləməyə vərdiş etmiş adamlar olur. İndi isə bu adam belə bir səhnəyə, qurultayın tribunasına çıxıb, zal adamla doludur (bu hadisə Qurultaylar Sarayında olmuşdu), zal Onu dinləyirdi. Zalda 4 min adam olanda auditoriyanı ələ almaq çox çətindir. Sənin qarşında 20 nəfər olanda onların hamısını görürsən, 4 min nəfəri görmək isə çətindir. Amma Heydər Əliyev bunu bacardı. Heydər Əliyev mənim yaddaşımda ilk dəfə bu epizodla qaldı.

Daha bir məqam. L.İ.Brejnev Bakıya gəlmişdi. Onu necə qarşıladıqlarını televizorda müşahidə edirdim. Leonid İliçi bütün Bakı qarşılayırdı. Demək olar ki, bütün evlərin balkonlarında xalçalar asılmışdı. Bu cür qarşılamanı, bu qədər xalçanı görəndə dərhal bunlar diqqətimi cəlb etdi. Mən həmkarlarımdan soruşdum: “Sov. İKP MK-nın baş katibini bu cür fəal, belə emosional şəkildə və səmimi qarşılayırlar...” Mənə cavab verdilər: “Bizdə ənənə belədir, ali qonaq gələndə onu dəbdəbə ilə, qəşəng, kütləvi şəkildə qarşılayırıq”. Maraqlandım: “İndi sizdə bu cür ənənələri kim davam etdirir?”. “Əliyev”, - deyə cavab verdilər.

Heydər Əliyevlə şəxsən görüşənə qədər bu iki məqam yaddaşıma həkk olundu və məndə Onun haqqında təsəvvür yarandı. Ümumiyyətlə, mənim fikrim qeyri-standart idi, çünki bu insan özü qeyri-standart idi...

Daha bir epizod. Bu hadisə Moskvada, MDB dövlət başçılarının iclasında olub. İclası Boris Nikolayeviç Yeltsin aparırdı. İclas zamanı Heydər Əliyev Ona müraciətlə bəzi məsələlərin həllində Azərbaycana kömək göstərilməsini xahiş etdi. Hafizəm məni aldatmırsa, Heydər Əliyev, o cümlədən, ərzaq məsələsində kömək istədi, habelə MDB-nin ümumi məkanının qorunması üçün şərait yaradılması məsələsini qaldırdı. Heydər Əliyevin bu təklifinin cavabında Yeltsin dedi ki, biz bu suala dərhal cavab verməyə hələ hazır deyilik, çünki bütün bunlar Rusiyaya həvalə olunacaq, Rusiya isə hələ buna hazır deyil. Onda mən Heydər Əliyevi şəxsən dəstəkləməyi qərara aldım və dedim: “Boris Nikolayeviç, Əliyev məsələni düzgün qoyur. Ukraynada da bu məsələlər var. Bu məsələni qaldırdığına görə biz Ona sadəcə təşəkkür etməli və məsələni həll etməyə başlamalıyıq”. Yeltsin cavab verdi: “Yaxşı, əgər Ukrayna bunu belə dəstəkləyirsə, qoy olsun”. Sonra fasilədə Əliyevlə görüşdüm. Onu dəstəklədiyimə görə mənə təşəkkürünü bildirdi, mən isə izah etdim ki, O, məsələni düzgün qoyub, buna görə mənim Onu dəstəkləməyim təbiidir.

Heydər Əliyev Azərbaycanın Övladıdır. Bu barədə əlavə heç nə deməmək də olar... Bununla hər şey deyilib. O, öz xalqının Övladıdır. Heydər Əliyev mənimlə söhbətində həmişə Azərbaycan barədə danışırdı. O, özünü ölkəsindən kənarda təsəvvür etmirdi.

Məndə olan məlumata görə, Heydər Əliyevin SSRİ Nazirlər Sovetinin sədri vəzifəsinə namizədliyi təklif olunmuşdu. Əliyevin Sov. İKP MK-nın baş katibi vəzifəsinə namizədliyinin təklif olunması məsələsinə gəldikdə isə, mənim belə məlumatım olmayıb. Baş nazir təyinatı barədə Ukrayna ilə söhbət olmuşdu, belə müzakirələr gedirdi ki, bu vəzifəyə Şerbitski namizəd ola bilər. Ola bilsin, Şerbitskinin namizədliyini bilirdim, çünki bu söhbətin birbaşa Ukraynaya aidiyyəti vardı və belə məlumat tez bir vaxtda mənim əlimə keçirdi.

Əgər Heydər Əliyev Sovet İttifaqına başçılıq etsəydi, nəyinsə başqa cür olub-olmayacağı barədə indi danışmaq çətindir. Niyəsini deyim. Partiyada (Sov. İKP-də), xüsusən Rusiyada kadr məsələləri çox mürəkkəb şəkildə həll edilir. Müttəfiq respublikadan olan adamın ümumittifaq vəzifəsinə irəli çəkilməsi heç də asan olmur. Onlar partiyanın, Sovetin birinci vəzifələrinə, Ali Sovetin Rəyasət Heyətinə çox nadir hallarda irəli sürülürdü. İkinci, üçüncü rollara ola bilərdi, amma birinci vəzifələrə irəli sürülmək çox-çox çətin idi. Hətta belə bir hadisə baş versəydi və deyək ki, Heydər Əliyevi Sov. İKP MK-nın birinci katibi və ya baş katibi seçsəydilər, nəyinsə dəyişib-dəyişməyəcəyi məlum deyil... Əlbəttə, ola bilərdi. Mən güman etmirəm ki, bu halda yenidənqurma həmin variantda həyata keçirilərdi. Heydər Əliyev “dil pəhləvanı” deyildi. O, necə deyərlər, az danışır, amma söz danışırdı. Mixail Qorbaçov isə gəlişigözəl danışmağı ilə məşhurlaşmışdı, “tutuquşu” kimi danışmağı bacarırdı: adamları toplayır, onlarla danışır, ilk baxışda çox demokratik rol oynayır, daim vədlər verir, qarşıda duran vəzifələri tez-tez dəyişirdi. Düşünürəm ki, əgər onun yerində Əliyev olsaydı, hər şey daha sakit və daha ciddi şəkildə cərəyan edərdi.

O vaxt Azərbaycan birinci Belovejsk Sazişində iştirak etməmişdi, amma bu Sazişi dəstəkləmişdi. MDB-ni möhkəmlətmək lazım olanda Heydər Əliyev işləyir və həmişə elə hallər tapırdı ki, onlar Azərbaycan xalqının milli maraqlarını zəiflətməsin. O, Öz ölkəsini möhkəmlətmək ideyası vasitəsilə MDB çərçivəsində məsələlərin həlli yollarını tapırdı.

İndi, Prezident İlham Əliyevin dövründə Azərbaycan həm milli, həm də beynəlxalq baxımdan yaxşı mövqe tutur. Bakıda tikinti işlərinin vüsəti məni heyrətləndirdi. Bu, Yaxın Şərqin zəngin ölkələri ilə müqayisə edilə biləcək genişmiqyaslı, müasir tədbirlərdir. Təəssüf ki, bütün ölkəni görməyə imkan tapmadım. Azərbaycana 3 il bundan əvvəl gəlmişəm və yalnız Bakıda olmuşam. Lakin paytaxt mənə müsbət təsir bağışlayıb.

Mənim fikrimcə, bu gün Azərbaycan ağıllı xarici siyasət yürüdür. O, regionda münaqişələrin səbəbi və ya münaqişə ocağı deyil, hər hansı münaqişəli mövzular və problemlərlə bağlı deyil. Deməli, bu ölkə rahat inkişaf edə bilər.

Mən müasir Azərbaycanın yürütdüyü siyasəti, onun atdığı addımları müsbət qiymətləndirirəm. Ən başlıcası, ölkə yaşayır və inkişaf edir. Mən köhnə Bakını da xatırlayıram, indi onun necə dəyişməsini də görürəm. Bu, paytaxtın simasını qısa müddətdə necə dəyişmək olduğunu göstərən nümunədir. Bu, çox böyük işdir. Bu işə böyük vəsait qoyulub, böyük qüvvə sərf edilib. Azərbaycan bunu necə edib?! Düşünürəm ki, Azərbaycandan öyrənilməli məsələlər var - bu ölkədə mövcud olan asayişi, görülən təşkilati işləri və məsuliyyət hissini öyrənməyə dəyər.

# Vitali İqnatenko: Heydər Əliyev zamanın fövqündə duran şəxsiyyətdir

İTAR-TASS agentliyinin sabiq baş direktoru Vitali İqnatenko Azərbaycanın Ümummilli lideri Heydər Əliyevin insanlara olan sevgisini, səmimiliyini və özünə qarşı xeyirxahlığı qiymətləndirmək qabiliyyətini yüksək dəyərləndirib. AZƏRTAC xəbər verir ki, o, dahi şəxsiyyətlə bağlı düşüncələrini “Moskva-Bakı” portalına danışıb.




- Heydər Əliyev zamanın fövqündə duran şəxsiyyətdir. Onu xatırladıqda, böyük xoşbəxtlik hissi keçirirsən ki, haçansa sənə bu dahi şəxsiyyətin yanında olmaq səadəti nəsib olub. Şəxsiyyətinin miqyası çox nəhəng olan Heydər Əliyev özünün yüksək mədəniyyəti, cazibəsi, güclü iradəsi, geniş intellekti sayəsində çox şeyə qadir idi. Heydər Əliyev Azərbaycan xalqının taleyüklü məsələləri ilə bağlı çox mühüm işlər görüb. Hər bir insanın taleyinə töhfə vermiş bu dahi şəxsiyyətin xatirəsi ildən-ilə yeni keyfiyyətlərlə zənginləşərək, daim yaşayacaq.

Digər tərəfdən, biz hamımız Onun necə gözəl ata, baba, ömürgün yoldaşı, silahdaşları üçün dost və yoldaş olduğunu xatırlamalıyıq. Düşünürəm ki, Onun bu keyfiyyətləri hər zaman yaddaşlarda qalacaq. Heydər Əliyev ətrafdakılar üçün çox dərin düşüncəyə malik və əhəmiyyətli bir insan idi. O, gələcək nəsillərə çox vacib miras qoyub. Heydər Əliyevi əvəz edən nəslin nümayəndələri Onun şəxsiyyətinin miqyasının böyüklüyünü daim nəzərdən keçirməli, öyrənməli və lazımınca qiymətləndirməlidir.

Yolunun Onunla kəsişdiyi ən xoşbəxt insanlardan biri də mənəm. Əlbəttə, həyatda qismətimiz olan xidməti mövqe, vəzifə baxımından mən Onun yanında deyildim. Lakin biz bir neçə dəfə görüşmüşük. Bu görüşlər məndə və ailə üzvlərimdə böyük təəssüratlar doğurub.

Prezident Administrasiyasında işlədiyim vaxt mənə yay mövsümü üçün xidməti bağ evi təklif etdilər. Böyük, gözəl və rahat bağ evi idi. Mən ona baxdıqdan və ən kiçik detalları nəzərdən keçirdikdən sonra elə təəssürat yarandı ki, sanki bağ evinin sahibi harasa çıxıb və indi qayıdacaq. Mən burada kimin yaşadığını soruşdum. Cavab verdilər: “Əliyev. O, indi xəstəxanadadır və bu bağ evinə qayıtmayacaq”. Doğrusu, mən bundan çox pis oldum. Nəticə olaraq, mən bağ evindən imtina etdim. Məni gözləməyə məcbur etdilər və uzun müddət heç nə vermədilər...İllər ötdü, mən bu hadisəni unutdum. Bağ evinin xidmətçilərindən biri bu əhvalatı Heydər Əliyevə danışıb. Uzun illər sonra Heydər Əliyev Azərbaycan Respublikasının Prezidenti oldu. Biz qəbulların birində görüşdük və O, həmin hadisəni mənim jurnalist həmkarlarıma danışdı. Onun bu əhvalatı xatırlaması məni çox mütəəssir etdi!

...İnsanı həmişə kiçik detalların prizmasından qiymətləndirmişəm. Bu, onun çox yüksək vəzifə daşıdığı vaxt daha da mühümdür. Belə ki, onda insanlara sevgi hissi, səmimilik və hər zaman köməyə çatmaq kimi keyfiyyətlər üzə çıxır. Əgər bütün bunlar mövcuddursa, onda başa düşürsən ki, qarşındakı böyük şəxsiyyətdir. Onda heç bir zaman “başgicəllənmə” olmayacaq və bütün vəziyyətlərdə insani keyfiyyətləri ön planda tutacaq, böyük işlər haqqında düşünəcək və onları həyata keçirəcək. Fikirləşirəm ki, bütün bunlar sonradan kollektivə, şəhərə və ölkəyə sirayət edir. Son nəticədə isə ona gətirib çıxarır ki, ölkənin daxilində və ətrafında tamamilə fərqli mühit yaranır. Yalnız qeyri-adi taleyə və zəngin daxili mədəniyyətə malik olan şəxsiyyət bunu etməyə qadirdir.

Heydər Əliyev mənim üçün məhz bu cür şəxsiyyət idi.

# Heydər Əliyev Mərkəzində Xocalı-Gədəbəy arxeoloji mədəniyyəti incisinin təqdimatı olub





Heydər Əliyev Mərkəzində erkən dəmir dövrünə aid bəzək əşyalarının təqdimatı olub. Eksponatlar Mərkəzdəki “Azərbaycan inciləri: tarixin axarında” sərgisində nümayiş etdiriləcək.

AZƏRTAC xəbər verir ki, bəzək əşyaları Azərbaycan Milli Elmlər Akademiyasının Arxeologiya və Etnoqrafiya İnstitutunun Gəncə-Qazax bölgəsində apardığı arxeoloji kəşfiyyat işləri zamanı aşkar olunub. Təbii və antropogen təsirlər nəticəsində dağıntıya məruz qalmış qədim qəbir abidələrinin birində 52 ədəd qızıl məmulatı - yüksək ustalıqla hazırlanmış bir cüt sırğa, üzük, yarpaqşəkilli və boruşəkilli muncuqlar, asma bəzək əşyaları tapılıb.

Tapıntılar Azərbaycanın qədim tarixində mühüm bir mərhələni təşkil etmiş Xocalı-Gədəbəy arxeoloji mədəniyyətinin son mərhələsinə aiddir.

Həmin mərhələ arxeoloji dövrləşmədə (eradan əvvəl II minilliyin ikinci yarısı - I minilliyin əvvəlləri) son tunc - erkən dəmir dövrü adlandırılır.

Bu bəzək əşyaları sayına və rəngarəngliyinə görə Azərbaycanın qədim tarixinə aid aşkar edilmiş qızıldan olan ən zəngin tapıntılardır.

Təqdimat zamanı çıxış edən Heydər Əliyev Mərkəzinin departament direktoru Məhəbbət Mehdiyeva bildirib ki, Mərkəz fəaliyyətə başladığı ilk gündən Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin dövlətçilik ənənələrinin, irsinin araşdırılması, gənc nəsil arasında yaşadılması ilə yanaşı, mədəniyyət və incəsənətimizin təbliği ilə bağlı bir sıra layihələr həyata keçirib. Ziyarətçilərin ən çox üz tutduğu ekspozisiyalar sırasında olan “Azərbaycan inciləri: tarixin axarında” sərgisində nümayiş etdiriləcək bu eksponatlar vasitəsilə qonaqlara tariximiz barədə yeni məlumat çatdırılmış olacaq.

AMEA-nın Arxeologiya və Etnoqrafiya İnstitutunun direktoru Maisə Rəhimova qeyd edib ki, instituta dövlət səviyyəsində göstərilən böyük diqqət sayəsində arxeoloji tədqiqatlar daha da genişlənir. O deyib: **“Bu gün arxeoloji ekspedisiyalar nəticəsində yüzlərlə tarixi abidələr, maddi-mənəvi dəyərlər üzə çıxır. Bu tapıntılar bir daha Azərbaycanın ən qədim insan məskənlərindən, sivilizasiya mərkəzlərindən olduğunu göstərir”.**

AMEA-nın Arxeologiya və Etnoqrafiya İnstitutunun direktor müavini Nəcəf Müseyibli bildirib ki, hazırda təqdimatı keçirilən bu arxeoloji tapıntılar hələ eramızdan əvvəl, 3000-2700 il bundan əvvəl Azərbaycanda qızıl metallurgiyasının yüksək inkişaf səviyyəsində olduğunu sübut edir və bu zinət əşyaları həmin dövrün araşdırılması baxımından yüksək tarixi dəyərə malikdir.

# Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin 70 illiyi münasibətilə Bakıda sərgi açılıb



Birləşmiş Millətlər Təşkilatının Azərbaycandakı nümayəndəliyi İnsan Hüquqları Günü və Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin 70 illiyi münasibətilə Bakıdakı Muzey Mərkəzində sərgi təşkil edib.

AZƏRTAC xəbər verir ki, sərginin açılışında çıxış edən BMT-nin Azərbaycandakı rezident əlaqələndiricisi Qulam İshaqzai 70 il əvvəl qəbul edilmiş Ümumdünya İnsan Hüquqları Bəyannaməsi haqqında danışıb. Bildirilib ki, bəyannamədə öz əksini tapan prinsiplər 1948-ci ildəki aktuallığını bu gün də qoruyub saxlayır. Prinsiplər bizi öz hüquqlarımızı, eləcə də digər insanların hüquqlarını müdafiə etməyə, həmçinin bizi qoruyan hüquqları bilməyə çağırır. Eyni zamanda, bu sənədin qəbulu ilə dilindən, dinindən, cinsiyyətindən asılı olmayaraq hər kəsin azad hüquqlara malik olduğu bəyan edilib.




Qulam İshaqzai söyləyib ki, bu bəyannamə 500-dən çox dilə tərcümə edilib. O, bəyannamənin inqilabi təsirə malik olduğunu vurğulayaraq qeyd edib ki, sənəd siyasi, mülki, sosial, iqtisadi sahələrdə insan hüquqlarının formalaşmasında bir baza rolunu oynayır. Bəyannamə bununla bağlı siyasətin, konstitusiyaların formalaşmasında əsas olub, beynəlxalq insan hüquqları üçün təməl yaradıb.

İnsan hüquqları üzrə müvəkkil Elmira Süleymanova bildirib ki, bəyannamənin prinsipləri sonralar digər sənədlərdə, konstitusiyalarda, konvensiyalarda öz əksini tapıb. Sənəddən sonra iki pakt da qəbul olunub ki, burada da insan hüquqları sahəsində bütün istiqamətlər öz əksini tapıb.

Milli Məclis sədrinin müavini, İnsan hüquqları komitəsinin sədri Bahar Muradova çıxış edərək bildirib ki, insan hüquqlarının təmini üçün səylərimizi birləşdirməliyik, yorulmadan hədəfə doğru getməliyik. Çünki yolun sonunda insan və onun hüquqları dayanır. Nə qədər bəşəriyyət var, insan hüquqları olacaq və biz də bu hüquqlara öz töhfəmizi verməliyik.




Azərbaycan Milli QHT Forumunun prezidenti Rauf Zeyni deyib ki, insan hüquqları sahəsində bərabərliyin təmin edilməsi çox önəmlidir. O, Azərbaycanda insan hüquq və azadlıqlarının yüksək səviyyədə qorunduğunu vurğulayıb.

Üç gün davam edəcək sərgidə dünyanın hər yerindən olan karikaturaçı rəssamların bəyannamənin 30 maddəsinə həsr etdikləri əsərlər və 40 tanınmış qrafik dizaynerin insan hüquqlarına dair təxəyyüllərinin təsvir olunduğu və hər kəsi insan hüquqlarının müdafiəsinə çağıran posterlər nümayiş olunacaq. Bununla yanaşı, ziyarətçilər BMT agentliklərinin dərc etdiyi müxtəlif nəşr və tədris materialları ilə tanış ola və onları əldə edə biləcəklər.

# "Xəzər hövzəsi və enerji təhlükəsizliyi" kitabının təqdimatı olub



Dekabrın 10-da Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında Beynəlxalq Münasibətlərin Araşdırılması Mərkəzinin sədri, siyasi elmlər üzrə fəlsəfə doktoru Rufiz Qonaqovun "Xəzər hövzəsi və enerji təhlükəsizliyi" adlı kitabının təqdimatı olub. Kitabın elmi redaktoru və ön sözün müəllifi Azərbaycan Respublikası Prezidentinin İctimai-siyasi məsələlər üzrə köməkçisi, tarix elmləri doktoru, professor Əli Həsənovdur.

Əvvəlcə Ulu öndər Heydər Əliyevin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

AZƏRTAC xəbər verir ki, tədbiri açan Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rektoru, akademik Urxan Ələkbərov əsas prioritetləri Ulu öndər Heydər Əliyev tərəfindən müəyyən olunan və bu gün Prezident İlham Əliyevin siyasi iradəsi ilə balanslaşdırılan enerji siyasətinin uğurlarını qeyd edib. O, "Xəzər hövzəsi və enerji təhlükəsizliyi" kitabının Xəzərin hüquqi statusunun müəyyən olunduğu bir vaxtda ərsəyə gəlməsinin əhəmiyyətindən danışıb.

Akademik bildirib ki, Ümummilli lider Heydər Əliyev tərəfindən əsası qoyulan balanslaşdırılmış enerji siyasəti kursunun həm də enerji təhlükəsizliyi baxımından təhlili məsələləri, Prezident İlham Əliyevin bu siyasəti uğurla davam etdirməsi, Xəzərin hüquqi statusu ilə bağlı danışıqlar prosesi, xəzəryanı dövlətlərin münasibətləri, əldə edilən nəticələrin təhlili tədqiqatın başlıca məqsəd və vəzifələri sırasındadır. Elmi-praktiki əhəmiyyətə malik yeni nəşrdə xəzəryanı ölkələrin regional maraqlarının analitik təhlili aparılıb.




Kitabın rəyçilərindən olan Milli Məclisin deputatı, professor Elman Nəsirov deyib ki, elmi-tədqiqat əsərində enerji resurslarının mühüm siyasi çəkiyə malik olduğu göstərilib. Bir zamanlar fövqəldövlət anlayışı nüvə silahına sahib olmaqla müəyyənləşdirilirdi. Bu gün isə bu, enerji resurslarına malik olmaqla təyin olunur. Azərbaycanın Avropanın enerji təhlükəsizliyinin təminində mühüm rol oynadığını deyən E.Nəsirov vurğulayıb ki, ölkəmiz köhnə qitə üçün enerji mənbəyidir. Azərbaycanın bu cür önəmli yerə sahib olması Ulu öndər Heydər Əliyevin əsasını qoyduğu regional enerji siyasəti ilə bağlıdır. Bu gün bu siyasət Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilərək Xəzər dənizində sülh və əmin-amanlığı möhkəmləndirib.

Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin sədri Siyavuş Novruzov bu gün enerji təhlükəsizliyinin mühüm önəm daşıdığını bildirib. O qeyd edib ki, müəllif kitabda enerji təhlükəsizliyi məsələləri ilə bağlı ayrı-ayrı dövlətlərin enerji siyasətini təhlil edib, problemin nəzəri və təcrübi aspektlərinə xüsusi yer ayırıb. Kitabda dünyada baş verən münaqişələr kontekstində Xəzərin statusu ilə əlaqədar Xəzəryanı dövlətlər arasında əldə edilmiş konsensusun beynəlxalq hüquqi və politoloji əhəmiyyəti uğurla tədqiq edilib, hövzə dövlətləri arasında Azərbaycanın potensial imkanları və onun üstün cəhətləri sistemli şəkildə müqayisə olunub.

Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri, akademik Ziyad Səmədzadə bildirib ki, kitabda Xəzər ətrafında gedən siyasi proseslər düzgün təhlil olunub. **"Ulu öndər Heydər Əliyevin müəyyənləşdirdiyi düzgün strategiyanın nəticəsidir ki, ölkəmiz bu gün müstəqil siyasətə və iqtisadiyyata malikdir",** - deyən komitə sədri Azərbaycanın XXI əsrdə enerji və enerji təhlükəsizliyi məsələləri istiqamətində ən sabit ölkə olacağını, bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə reallaşdırılan böyük layihələrin həm də regionu sabitlik diyarına çevirəcəyini bildirib.

Daha sonra filologiya üzrə elmlər doktoru Rövşən Məmmədov, "BP Azerbaijan" şirkətinin əlaqələr, xarici işlər və strategiya üzrə vitse-prezidenti Bəxtiyar Aslanbəyli, siyasi elmlər üzrə fəlsəfə doktoru Hüseyn İbrahimov çıxış edərək "Xəzər hövzəsi və enerji təhlükəsizliyi" kitabının aktuallığından danışıb, onun geniş oxucu kütləsi, eləcə də ekspertlər üçün vacib əhəmiyyət daşıdığını bildiriblər.

Sonda çıxış edən müəllif Rufiz Qonaqov tədbirin təşkilatçılarına və iştirakçılarına minnətdarlığını bildirib, kitab haqqında ətraflı məlumat verib.

# "Kompas" və "Öz sözünü de" təlimat vəsaitlərinin Azərbaycan dilinə tərcümə edilmiş versiyalarının təqdimatı olub








Dekabrın 10-da Bakıda Gənclər və İdman Nazirliyinin, Avropa Şurası Gənclər Departamentinin birgə təşkilatçılığı, gənclərin iştirakı ilə insan hüquqları və vətəndaşlıq təhsili üzrə milli forum keçirilib. Forum çərçivəsində gənclərin iştirakı ilə insan hüquqlarının təhsili üzrə "Kompas" və gənclərin ictimai həyatda yerli və regional səviyyədə iştirakına dair "Öz sözünü de" təlimat vəsaitlərinin Azərbaycan dilinə tərcümə edilmiş versiyalarının təqdimatı olub.

AZƏRTAC xəbər verir ki, forumun keçirilməsində məqsəd Azərbaycanda insan hüquqları və vətəndaşlıq təhsili barədə gənclər, təhsil və insan hüquqları sahəsində fəaliyyət göstərən tərəfdaşlar və iştirakçılarla fikir mübadiləsi aparmaqdır.

Milli Məclis sədrinin müavini, parlamentin İnsan hüquqları komitəsinin sədri Bahar Muradova tədbirdə çıxış edərək bildirib ki, bu gün dünyada insan hüquqları ilə bağlı vəziyyət narahatvericidir. Münaqişələr nəticəsində dünyada fundamental insan hüquqlarının pozulması ilə yanaşı, müxtəlif cəmiyyətlərdə irqi, dini ayrı-seçkilik halları da çoxalıb.

Azərbaycanda insan hüquqları ilə bağlı mükəmməl qanunvericilik bazasının yaradıldığını deyən B.Muradova bildirib ki, Azərbaycan Respublikasının Konstitusiyasında və digər qanunvericilik aktlarında insan hüquqlarının, azad yaşamaq, təhsil almaq və digər fundamental hüquqların təmin edilməsi əksini tapıb. Azərbaycan bu istiqamətdə beynəlxalq konvensiyalara qoşulub, aidiyyəti təşkilatlarla əməkdaşlıq edir. İnsan hüquqlarının təmin edilməsi sahəsində görülən genişmiqyaslı işlər ölkəmizdə daha nikbin gələcəyi proqnozlaşdırmağa imkan verir.

Avropa Şurasının Bakı Ofisinin rəhbəri Zoltan Hernyes qeyd edib ki, Avropa Şurasının Gənclər Departamentinin insan hüquqlarının gənclər arasında təbliğinə və tədrisinə yönəlmiş "İnsan hüquqlarının təhsili üzrə gənclər layihəsi" bu sahədə görülən işlərə mühüm töhfədir. "İnsan hüquqları təhsili üzrə gənclər proqramı" kimi də tanınan layihənin əsas hədəflərindən biri "Demokratik vətəndaşlıq və insan hüquqları təhsili üzrə Avropa Şurası Xartiyası"nın icrası prosesində gənclər sahəsində çalışan qeyri-hökumət təşkilatlarının rolunu dəstəkləmək və gücləndirməkdir. Buna nail olmaq üçün insan hüquqlarının təhsili üzrə vəsait və resursların hazırlanması və paylaşılması ilə yanaşı, təlimçilər, multiplayerlər və insan hüquqları təhsili üzrə vəkillər üçün bacarıq artırma tədbirləri də keçirilir. Layihə çərçivəsində "Kompas" və "Öz sözünü de" vəsaitlərinin Azərbaycan dilinə tərcüməsi və istifadəsi bu baxımdan mühüm rol oynayır.

Gənclər və idman nazirinin müavini İntiqam Babayev çıxışında bildirib ki, gənclərin iştirakı ilə insan hüquqlarının təhsili üzrə "Kompas" və gənclərin ictimai həyatda yerli və regional səviyyədə iştirakına dair "Öz sözünü de" təlimat vəsaitlərinin Azərbaycan dilinə tərcümə olunması gənclərin insan hüquqları mövzusunda maarifləndirilməsinə mühüm təkan verəcək. Gənclər və İdman Nazirliyi ilə Avropa Şurası arasında xüsusi ikitərəfli əməkdaşlıq fəaliyyətləri ilk dəfə olaraq Avropa Şurasının 2016-2017-ci illərdə Azərbaycan üzrə Fəaliyyət Planına daxil edilib. Bu fəaliyyət Azərbaycandan olan gənc liderlər və fəallar üçün bacarıq artırma tədbirləri, insan hüquqları təhsili və demokratik vətəndaşlıq layihələri üzrə qruplaşdırılıb.

Gənclərin Azərbaycanda həyata keçirilən dövlət siyasətinin mühüm istiqamətlərindən birini təşkil etdiyini deyən nazir müavini ölkəmizdə bu istiqamətdə görülən işlərdən danışıb.

İnsan hüquqları üzrə müvəkkil (ombudsman) Elmira Süleymanova bildirib ki, Ümummilli lider Heydər Əliyev Azərbaycanda hakimiyyətə qayıtdıqdan sonra ölkəmizdə digər sahələrlə yanaşı, insan hüquqlarının təmin olunmasına da xüsusi diqqət yetirib. Ulu öndərin bilavasitə rəhbərliyi ilə hazırlanan və 1995-ci ildə ümumxalq səsverməsi ilə qəbul olunan müstəqil Azərbaycanın ilk Konstitusiyasında bütün fundamental hüquqlar əksini tapıb.

Diqqətə çatdırılıb ki, insan hüquqları sahəsində problemlərdən biri də gender bərabərliyinin pozulmasıdır. Azərbaycanda bu istiqamətdə də mühüm tədbirlər həyata keçirilir, geniş maarifləndirmə işləri aparılır. İnsan hüquqlarının pozulmasının mərkəzində dayanan əsas məsələlərdən biri də zorakılıq olduğunu vurğulayan ombudsman qeyd edib ki, zorakılığın qarşısını almaq üçün həyata keçirilən tədbirlər səmərəli nəticələr verir. Uşaqların insan hüquqları sahəsində biliklərə yiyələnməsinin təmin olunması üçün geniş maarifləndirmə işləri aparılır. Ümumiyyətlə, Azərbaycanda insan hüquqları sahəsində sistemli iş həyata keçirilir. Azərbaycan Prezidenti tərəfindən imzalanan Milli Fəaliyyət Planı bu baxımdan mühüm əhəmiyyət daşıyır.

Xüsusi tapşırıqlar üzrə səfir Elşad İsgəndərov və Azərbaycan Respublikası Gənclər Təşkilatları Milli Şurasının sədri Məryəm Məcidova forumun təşkilinin və hər iki vəsaitin Azərbaycan dilində çapdan çıxmasının gənclərin insan hüquqları ilə bağlı biliklərinin artırılmasında rolunu vurğulayıblar.

Sonra "Kompas" və "Öz sözünü de" təlimat vasitələrinin Azərbaycan dilinə tərcümə edilmiş versiyaları təqdim olunub.

Daha sonra ortaq fəaliyyət çərçivəsində keçirilən seminarların iştirakçılarına sertifikatlar təqdim olunub.

Açılış çıxışlarından sonra Avropa Şurasının gənclər departamentinin təhsil və təlim şöbəsinin müdiri Rui Qomeş "Demokratik vətəndaşlıq və insan hüquqlarının təhsilinə dair Avropa Şurasının praktiki yanaşmaları" mövzusunda təqdimatla çıxış edib.

Qısa fasilədən sonra tədbir işini "Azərbaycanda insan hüquqlarının təhsili və gənclərin iştirakı - çağırışlar və perspektivlər" mövzusunda panel iclası ilə davam etdirib.

İclasda gənclər və idman nazirinin müavini Fərhad Hacıyev, Təhsil İşçilərinin Peşəkar İnkişafı İnstitutunun direktoru, Avropa Şurasının Təhsil Siyasəti Məşvərətçiləri Şəbəkəsinin (EPAN) üzvü Vəfa Yaqublu və Ombudsman Aparatının hüquqi maarifləndirmə sektorunun müdiri Müqalib Mahmudov çıxış ediblər.

Sonda "Kompas" və "Öz sözünü de" təlimat vəsaitləri və onlardan istifadə qaydalarına dair seminar keçirilib.

# Ulu öndər Heydər Əliyev xalqına dərindən bağlı olan və böyük məhəbbət bəsləyən vətənpərvər şəxsiyyət idi



*Azərbaycan Respublikası Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin sədri Əhməd Əhmədzadə www.yap.org.az saytına müsahibə verib:*

**- Əhməd müəllim, 12 dekabr Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin anım günüdür. Xalqımız müasir müstəqil Azərbaycanın memarı və qurucusu olan Ulu öndər Heydər Əliyevin əziz xatirəsini dərin ehtiramla yad edir. Sizin Ulu öndərlə bağlı xatirələriniz nədən ibarətdir, Onunla ilk görüşünüzü necə xatırlayırsınız?**

- Ümummilli lider Heydər Əliyevlə ilk görüşüm 1975-ci il iyun ayında olub. Həmin vaxt Qax rayonunda Suvarma Sistemləri İdarəsinin rəisi vəzifəsində çalışırdım, eyni zamanda, rayon partiya komitəsinin büro üzvü idim. Bəhs etdiyim tarixdə Azərbaycan SSRİ Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi Heydər Əliyevin qəbulunda oldum, təxminən 15 dəqiqə ərzində söhbətimiz oldu. Dahi rəhbər mənə rayonun təsərrüfat həyatı və inkişafı barədə, bu istiqamətdə perspektivlə bağlı müəyyən suallar ünvanladı. Sonra mənim Qax rayon Xalq Deputatları Soveti İcraiyyə Komitəsinin sədri vəzifəsinə namizədliyimi vermək istədiyini qeyd etdi. Mən bunun olduqca məsuliyyətli və çətin vəzifə olduğunu, amma etimadı doğrultmağa çalışacağımı qeyd etdim. Ulu öndər Heydər Əliyev söhbət əsnasında gənc kadrlara xüsusi diqqət göstərdiyini, onları müxtəlif vəzifələrə irəli çəkərək etimad göstərdiyini diqqətə çatdırdı və mənə "işində məsuliyyətli, ən əsası, maddi və mənəvi baxımdan təmiz ol" tövsiyəsini verdi. Beləliklə, Ümummilli lider Heydər Əliyev ilə ilk görüşümüz məhz bu cür oldu.

**- Ulu öndər Heydər Əliyevin respublikaya rəhbərlik etdiyi dövrdə SSRİ-nin ən nüfuzlu ali təhsil müəssisələrində 18 minədək yüksək ixtisaslı mütəxəssis hazırlandı. Heydər Əliyevin SSRİ-nin ən nüfuzlu ali təhsil müəssisələrinin məzunlarına münasibət necə idi? Həmin məzunlardan biri kimi bu münasibəti öz nümunənizdə necə xatırlayırsınız?**

- Bilirsiniz ki, Ümummilli lider Heydər Əliyev Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi olaraq respublikamıza rəhbərlik etdiyi dövrdə müxtəlif sahələrin inkişafını təmin edən misilsiz işlər görməklə yanaşı, kadr hazırlığı məsələsini də daim diqqət mərkəzində saxlayırdı. Bu mənada, Ulu öndərin azərbaycanlı gəncləri keçmiş ittifaqın nüfuzlu ali məktəblərində təhsil almağa göndərməsi xüsusilə qeyd edilməlidir. Bu, dahi rəhbərin milli təəssübkeşliyinin ifadəsi olmaqla yanaşı, Onun uzaqgörənliyini göstərirdi. Ümumilikdə, Heydər Əliyevin respublikaya rəhbərlik etdiyi dövrdə SSRİ-nin ən nüfuzlu ali təhsil müəssisələrində 18 minədək yüksək ixtisaslı mütəxəssis hazırlandı.

Ulu öndər Heydər Əliyevin təhsil almaq üçün xaricə göndərdiyi şəxslər sırasında mən də var idim. 1976-1978-ci illər ərzində Moskvada İctimai Elmlər Akademiyasında təhsil aldıqdan sonra Abşeron rayon Xalq Deputatları Sovetinin İcraiyyə Komitəsinin sədri vəzifəsinə təyin edildim. Həmin vaxt Ümummilli lider Heydər Əliyev xaricdə, daha dəqiq desəm, Bolqarıstanda səfərdə idi. Ona görə də təyinatdan əvvəl Onunla görüşmək imkanımız olmadı. Beləliklə, bəhs etdiyim vəzifəyə təyin edildikdən sonra fəaliyyətə başlamaq üçün Abşeron rayonuna yola düşdüm. Əlbəttə, bilirdim ki, bu vəzifədə də qarşıya qoyulan məqsədləri yerinə yetirmək üçün məsuliyyətlə çalışmaq, dahi rəhbərin etimadını doğrultmaq lazımdır. Məhz Onun tövsiyə və tapşırıqlarını məsuliyyətlə və layiqincə icra etməklə qarşıya qoyulan vəzifələrin yerinə yetirilməsi istiqamətində fəaliyyətimi davam etdirdim.

Ulu öndər Heydər Əliyev kadr seçiminə daim xüsusi diqqətlə yanaşır və kadrlarına Öz dəstəyini əsirgəmirdi. Bu, şübhəsiz ki, şəxslər qarşısında böyük məsuliyyət hissi yaratmaqla yanaşı, onların öz vəzifələrini layiqincə yerinə yetirməsini təmin edirdi.

Həmin dövrdə də Ümummilli lider Heydər Əliyev ilə görüşlərdə iştirak etmişəm. Bu dönəm ilə əlaqədar bir məqamı diqqətə çatdırmaq istərdim. Belə ki, 1980-ci ilin dekabrında yenidən Mərkəzi Komitəyə dəvət olundum. Bu dəfə Ulu öndər Heydər Əliyev tərəfindən Füzuli rayon Partiya Komitəsinin birinci katibi vəzifəsinə tövsiyə olunmuşdum. Doğrudur, həmin vaxt bu vəzifədə necə çalışacağımla bağlı özlüyümdə suallarım var idi, çünki əvvəllər Füzulidə heç vaxt olmamışdım və rayonun yerli xüsusiyyətlərinə bələd deyildim. Həmin vaxt ikinci dəfə Ulu öndər Heydər Əliyevin qəbulunda oldum, bu barədə fikirlərimi dahi rəhbərin diqqətinə çatdırdım. Ulu öndər isə mənə etimad göstərdiyini, məsuliyyət hissimi yüksək qiymətləndirdiyini bildirərək bu vəzifənin öhdəsindən gələ biləcəyimi söylədi. Bu, mənim üçün böyük etimad olmaqla yanaşı, həm də xüsusi stimul idi. Ümummilli lider ilk görüşdə verdiyi nəsihətləri təkrar nəzərə çatdırdı.

1982-ci il iyulun 18-də Heydər Əliyev Füzuliyə gələrək üzümçülərin respublika müşavirəsini keçirdi. Müşavirədə Mərkəzi Komitənin Büro üzvləri, 45 rayonun rəhbər işçiləri və digər şəxslər iştirak edirdilər. Bununla yanaşı, rayonda kolxoz və sovxozların əhatəsində və fərqli məkanlarda əhali ilə görüşlər oldu. Ulu öndər Heydər Əliyev görüşlərdə çıxış etməklə yanaşı, insanların suallarını da ətraflı cavablandırdı, diqqətə çatdırılan müxtəlif məsələlərin yerində həlli üçün müvafiq tapşırıqlarını verdi. Təbii ki, dahi rəhbərin insanlarla bu cür səmimi şəkildə ünsiyyətdə olması, onları dinləyərək müvafiq tövsiyə, tapşırıq və göstərişlərini verməsi bizim üçün ayrıca bir məktəb idi. Görüşlərdə biz həmçinin insanların Ümummilli lider Heydər Əliyevə necə rəğbətlə yanaşdıqlarını, Onun fəaliyyətini çox yüksək qiymətləndirdiklərini müşahidə edirdik. Bu, təsadüfi deyildi, çünki Ulu öndər Azərbaycan xalqının rifahı və firavanlığı üçün misilsiz işlər görmüşdü...

**- Yeri gəlmişkən, Ulu öndər Heydər Əliyevin 1969-1982-ci illər ərzində ölkəmizə rəhbərlik etdiyi dönəm respublikamızın tərəqqi dövrü kimi yadda qaldı. Bu dövrdə həyata keçirilən tədbirlər və əldə edilən nəticələrlə bağlı fikirlərinizi bilmək istərdik...**

- Həmin dövrdə Ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə görülən işlər - həyata keçirilən tədbirlər respublikamızın dirçəlişini və inkişafını, eləcə də əhalinin rifahının daha da yaxşılaşmasını təmin etdi, yeni perspektivlər yaratdı. Bilirsiniz ki, o vaxt SSRİ-nin tərkibində olan ayrı-ayrı respublikaların inkişaf göstəriciləri fərqli idi. Azərbaycan isə 1969-cu ilədək sənaye, kənd təsərrüfatı və digər strateji əhəmiyyətli sahələrdə nailiyyətlər əldə edə bilməmişdi, hətta respublikada ciddi tənəzzül müşahidə edilirdi. Yəni Azərbaycan İttifaq miqyasında sosial-iqtisadi göstəricilərə görə nəinki ön cərgədə qərarlaşa bilməmişdi, hətta olduqca geridə qalmış, sonuncu sıralarda qərarlaşmışdı. Belə olan halda, ayrı-ayrı sahələrin inkişafını və respublikanın tərəqqisini təmin edəcək konkret fəaliyyət planı və real işlər ortaya qoymaq lazım idi. Bunu etmək mümkün idi, çünki respublikamız geniş potensiala malik idi. Məhz Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin 1969-cu il iyul plenumunda Ulu öndər Heydər Əliyevin Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi seçilərək respublikanın rəhbəri olmasından sonra bu məqsədə nail olmaq, yəni Azərbaycanın inkişafı və yüksəlişini təmin etmək mümkün oldu. Təsadüfi deyil ki, qısa müddətdə Azərbaycan İttifaq səviyyəsində sənaye istehsalının artım sürətinə görə ilk yerdə qərarlaşdı, digər sahələrdə də çox əhəmiyyətli irəliləyişlər qeydə alındı. Ən əsası, aqrar sektorun inkişafını təmin edən, bu sahədə yeni perspektivlər yaradan mühüm işlər görüldü, əhəmiyyətli nəticələr əldə edildi. 1970-ci ildə Ümummilli lider Heydər Əliyevin təşəbbüsü və səyləri ilə SSRİ Nazirlər Sovetinin qəbul etdiyi "Azərbaycan SSR-də kənd təsərrüfatını inkişaf etdirmək tədbirləri haqqında" Qərar bu sahənin inkişafına xdmət edən mühüm vasitə oldu. Bunun ardınca 9 iyul 1975-ci il tarixli "Azərbaycan SSR-də kənd təsərrüfatı istehsalını daha da ixtisaslaşdırmaq, üzümçülüyü və şərabçılığı inkişaf etdirmək haqqında" Qərar da böyük əhəmiyyətə malik idi. Kənd təsərrüfatının sənaye təməli üzərində inkişaf etdirilməsi və istehsal olunan məhsulların orta illik həcminin mütəmadi olaraq artırılması böyük nailiyyət idi. Artıq 1982-ci ildə kənd təsərrüfatı məhsullarının istehsal həcmi ilk dövrlərlə müqayisədə 6 dəfə artırılmışdı.

**- Bəs Ulu öndərin 1969-1982-ci illərdə respublikamıza rəhbərlik etdiyi dövrdə su və meliorasiya təsərrüfatı sahəsində görülən işlərin əhəmiyyəti haqqında nə söyləmək olar?**

- Bütövlükdə, 1969-1982-ci illərdə Ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə meliorasiya və su təsərrüfatında böyük quruculuq işləri aparılıb, güclü istehsal bazasına, tikinti və istismar təşkilatlarına, elmi-tədqiqat və layihə-axtarış institutlarına malik ixtisaslaşmış meliorasiya və su təsərrüfatı sahəsi, su axımını bölüşdürən və tənzimləyən suvarma sistemləri, kollektor-drenaj şəbəkələri, nasos stansiyaları və su anbarından ibarət tutarlı meliorasiya və su təsərrüfatı kompleksi yaradılıb, suvarılan torpaqların ümumi sahəsi 1,5 dəfə artıb. Həmin illərdə meliorasiya və su təsərrüfatı sahəsinə əvvəlki 50 il ərzində qoyulan vəsaitdən 2 dəfədən çox vəsait qoyulub, min kilometrlərlə suvarma kanalları, kollektor-drenaj sistemləri, iri nasos stansiyaları, hidroqovşaqlar ümumi su tutumu 3 milyard kubmetr olan su anbarları və s. tikilib istifadəyə verilib, meliorativ fondların həcmi 2 dəfədən çox artıb və bütün bunların hesabına torpaqların məhsuldarlığı qat-qat yüksəlib, suvarma əkinçiliyi özünü doğruldub, böyük səmərə verib.

Ulu öndər Heydər Əliyev İttifaq rəhbərliyində olarkən də meliorasiya və su təsərrüfatı sahəsinə öz qayğısını əsirgəmir, bu sahədə işlərin gedişinə daim nəzarət edirdi. Həmin dövrdə Ümummilli liderin yaxından köməkliyi sayəsində respublika üçün son dərəcə vacib olan Baş Mil-Muğan kollektorunun yenidən qurulması, Naxçıvan MR-də Vayxır su anbarının, Şəmkir magistral kanalının və onlarla digər vacib obyektlərin tikintisi ilə əlaqədar məsələlərə baxılıb həll olunmuşdur.

**- Müstəqillik dövründə bu sahədə nə kimi tədbirlər həyata keçirildi, hansı nəticələr əldə olundu?**

- Müstəqillik dövrünün ilk illərində ölkədə bütün sahələrdə olduğu kimi, meliorasiya və su təsərrüfatı sahəsində də böhranlı vəziyyət hökm sürürdü. Böyük zəhmət və külli miqdarda vəsait hesabına yaradılmış qurğular, suvarma sistemləri qəza halına düşmüşdü, sahənin fəaliyyətinə və inkişafına ayrılan sərmayənin həcmi heçə endirilmişdi. 1993-cü ildə Ulu öndər Heydər Əliyevin xalqın təkidli tələbi ilə hakimiyyətə gəlməsindən sonra meliorasiya və su təsərrüfatı sahəsi öz inkişafının yeni mərhələsinə qədəm qoydu. Bu sahəyə diqqət və dövlət qayğısı bərpa olundu, mövcud meliorasiya potensialının dağıdılmasının qarşısı alındı, ondan daha səmərəli istifadə olunması yolları və sahənin gələcək inkişaf istiqamətləri müəyyənləşdirildi. Hər il meliorasiya su təsərrüfatı sistemlərinin istismarına müəyyən miqdarda vəsait ayrılaraq təmizləmə işləri həyata keçirildi və bu vəsaitin həcmi ilbəil artırıldı. Aqrar sahədə aparılan islahatlarla paralel olaraq meliorasiya və su təsərrüfatında da islahatların aparılmasına başlanıldı. İlk növbədə islahatların normativ hüquqi bazası yaradıldı. Bu məqsədlə 30-dan artıq normativ hüquqi sənəd hazırlandı. Meliorasiya və irriqasiya sahəsində islahatların aparılması və onun gələcək inkişafının təmin olunması üçün ümdə əhəmiyyətə malik olan bu iki qanun və onların əsasında qəbul olunmuş 30-a yaxın normativ-hüquqi sənəd meliorasiya və su təsərrüfatı sahəsində fəaliyyətin, su təsərrüfatının idarə olunmasının və su münasibətləri sahəsində islahatların əsas istiqamətlərini və prinsiplərini, habelə su təsərrüfatı obyektlərində mülkiyyət münasibətlərini müəyyənləşdirdi. O vaxt özəlləşdirmə proqramına meliorasiya obyektlərinin də özəlləşməsi məsələsinin daxil edilməsi müzakirə edilirdi. Bu barədə keçirilən iclaslardan birində meliorasiya obyektlərinin özəlləşdirilməsi qadağan olunan obyektlərin siyahısına daxil edilməsinin məqsədəmüvafiq olduğunu Ümummilli lider Heydər Əliyevin diqqətinə çatdırdım və Ulu öndər bu təklifi dəstəklədi. Bütövlükdə, meliorasiya və su təsərrüfatı sahəsində görülən ardıcıl, məqsədyönlü işlər bu istiqamətdə əsaslı dönüşün yaranmasına səbəb oldu.

**- Əhməd müəllim, müasir müstəqil Azərbaycan Ümummilli lider Heydər Əliyevin ideyaları əsasında inkişaf edir. Azərbaycan Ulu öndərin əsasını qoyduğu siyasəti uğurla davam etdirən Prezident İlham Əliyevin rəhbərliyi ilə möhtəşəm nailiyyətlər qazanır. Bugünkü reallıqları və perspektivi necə dəyərləndirirsiniz?**

- Ümummilli lider Heydər Əliyev ölkəmizə rəhbərlik etdiyi bütün dövrlərdə həyata keçirilən siyasət, aparılan islahatlar gələcək inkişafın fundamental bazasını, etibarlı təməlini yaradıb və bu gün biz bunun nəticələrini bütün sahələrdə aydın görürük. Bu gün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Ulu öndər Heydər Əliyevin əsasını qoyduğu siyasəti uğurla davam etdirir, bu siyasət milli maraqlara, müasir tələblər və çağırışlara cavab verir, yeni müsbət reallıqların yaranmasını şərtləndirir. Ümumiyyətlə, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasətin nəticəsi kimi, Azərbaycan güclü - qüdrətli ölkəyə, ən əsası, regionun lider dövlətinə çevrilib. Son 15 ildə əldə edilən nailiyyətlərə, sosial-iqtisadi inkişaf sahəsində göstəricilərə nəzər saldıqda aydın görünür ki, Azərbaycan çox böyük bir yol qət edib və bu gün də yeni zirvələr fəth edir. Bu gün Azərbaycan Prezident İlham Əliyevin müdrik rəhbərliyi altında öz tarixinin yeni inkişaf mərhələsini yaşayır. Ölkəmizdə bütün sahələrdə dərin islahatlar həyata keçirilir. Son 15 ildə meliorasiya və su təsərrüfatı sahəsində də çox mühüm işlər görülüb, meliorasiya və irriqasiya sistemlərinin normal istismarının təşkili, tələb olunan həcmlərdə təmir-bərpa işlərinin görülməsi, suvarılan torpaqların su təminatının və onların meliorativ vəziyyətinin yaxşılaşdırılması, sel və daşqın sularına qarşı mübarizə işlərinin davam etdirilməsi və digər istiqamətlərdə müvafiq tədbirlər həyata keçirilib.

Nəticə etibarilə, Azərbaycan Prezident İlham Əliyevin rəhbərliyi ilə inkişaf yolunda əmin addımlarla irəliləyir, bütün sahələrdə davamlı nailiyyətlər əldə edir. Azərbaycan xalqı bu reallıqları çox yüksək qiymətləndirərək Prezident İlham Əliyevin siyasətini dəstəkləyir. Əminliklə söyləmək olar ki, Ümummilli lider Heydər Əliyevin ideyaları əsasında inkişaf edən müasir müstəqil Azərbaycan yeni möhtəşəm uğurlar qazanacaq və güclü, qüdrətli dövlət kimi öz inkişafını uğurla davam etdirəcək.

# Ulu öndər Heydər Əliyev müasir və müstəqil Azərbaycan dövlətinin banisidir



**Əhəd Abıyev,**
**Daşkəsən rayon İcra Hakimiyyətinin başçısı**

Heydər Əliyev - müasir və müstəqil Azərbaycanın banisi, yaradıcısı, qurucusu, xalqımızın Ümummilli lideri, dahi və müdrik Şəxsiyyət, dünya şöhrətli siyasətçi... Ulu öndərin atdığı hər bir tarixi addımı bilavasitə bir amala - Azərbaycan dövlətinin və xalqının müstəqillik məfkurəsinin yaradılmasına yönəlmişdi. Əbəs deyil ki, bu dahi Şəxsiyyət Azərbaycan xalqı, ölkəmizin müstəqilliyə qovuşması uğrunda canını, sağlamlığını belə əsirgəməyib, bu yolda nəinki Özünün, hətta ailə üzvlərinin həyatını təhlükədə qoymaqdan çəkinməyib və biz, bu tarixi məqamların təhlilini apardıqca hər dəfə yeni şərəf səhifəsini açmış oluruq.

Azərbaycan xalqının qan yaddaşına daxil olan 20 Yanvar faciəsi zamanı, demək olar ki, müqəddəratı həll olunmuş xalqının səsinə hər kəsdən əvvəl səs verən məhz bu dahi Şəxsiyyət - Ulu öndər Heydər Əliyev oldu. O zaman Ümummilli liderimiz Moskvada, Kremldə xüsusi nəzarət altında olsa da, hadisələrdən dərhal sonra, 1990-cı il yanvarın 21-də ölkəmizin Moskvadakı daimi nümayəndəliyinə gələrək, bu qanlı təcavüzə kəskin etirazını bildirdi, faciəni törədənləri ən sərt şəkildə ittiham etdi, qoşunların Bakıdan çıxarılması tələbini irəli sürərək, bütün dünyaya qanlı yanvar olayları ilə bağlı səs saldı. Məhz Heydər Əliyev Özünün və ailə üzvlərinin həyatını açıq təhlükə qarşısında qoyaraq, bu addımı atdı, hər şeydən əvvəl Vətən, xalq qarşısında Öz vətəndaşlıq və milli mövqe missiyasını həyata keçirdi və bu yolda hətta canını əsirgəməyəcəyi gerçəkliyini ortaya qoymuş oldu. Əgər həmin tarixi bəyanat olmasa idi, xalqımız və dövlətimiz, sözün həqiqi mənasında, daha ağır məşəqqətlərə uğraya, hətta öz müstəqilliyini belə, elan edə bilməzdi. Bu, bir aksiomdur və onu danmaq, sadəcə, mümkün deyil.

Ulu öndər Heydər Əliyev sakitliyi və rahatlığı deyil, Vətəninin taleyini düşünürdü. Buna görə də Ulu öndər Vətənə qayıtmaq istəyirdi. Naxçıvanlılar da qədim diyarın yetişdirdiyi böyük dövlət xadiminin gəlişini səbirsizliklə gözləyirdilər. Onun 1990-cı il iyulun 22-də möhtəşəm qayıdışını doğulub boya-başa çatdığı Naxçıvan torpağı, əhali hədsiz sevgi, məhəbbət və inamla qarşıladı. Ulu öndər Heydər Əliyev doğma torpağa gəlişi ilə insanların sabaha inamını özlərinə qaytardı, ağır blokada şəraitində olmasına baxmayaraq, bu qədim diyarı dirçəltməyə başladı. Məhz Naxçıvanda bu gün Cənubi Qafqazın ən böyük siyasi təşkilatı - Yeni Azərbaycan Partiyasının əsası qoyuldu və məhz Naxçıvanda üçrəngli bayrağımız dövlət rəmzi olaraq qəbul olundu.

Həmin dövrdə Azərbaycanda da vəziyyət olduqca acınacaqlı idi. Ölkəmizdə yaranmış siyasi və iqtisadi böhran, o dövrdəki naşı hakimiyyətin siyasi səriştəsizliyi müstəqilliyimizi yenidən itirmə təhlükəsi ilə qarşı-qarşıya qoydu, hətta ölkəmizin parçalanmasına, bir dövlət kimi yox olmasına zəmin yaratdı. Bir tərəfdən təcavüzkar Ermənistanın Azərbaycana qarşı iddiaları, bu iddiaları çərçivəsində torpaqlarımızın bir hissəsini işğal etməsi, digər tərəfdən isə hakimiyyət daxilində siyasi çəkişmələr, eləcə də bölgələrimizdə separatçılıq meyillərinin cücərməsi ölkəmizi hər gün, hətta saatbasaat qaranlıq uçuruma doğru sürükləyirdi. Siyasi böhranla yanaşı, hökm sürən iqtisadi böhran, ərzaq qıtlığı, insanların çətin sosial durumu vəziyyəti hər gün daha da gərginləşdirirdi.

Məhz belə bir vaxtda xalq bu acınacaqlı və olduqca təhlükəli vəziyyətdən çıxış yolunu Ulu öndər Heydər Əliyevin yenidən hakimiyyətə gəlməsində gördü və bu tələblə küçələrə axışmağa başladı. "HEYDƏR XALQ - XALQ HEYDƏR!" tarixi şüarı da məhz o məqamlarda Azərbaycan xalqının birmənalı şüarına çevrildi. Nəticədə 1993-cü ilin iyun ayında xalqın istəyi və tələbi ilə Heydər Əliyevin Naxçıvandan Bakıya gələrək, yenidən hakimiyyətə qayıdışı müstəqil Azərbaycan tarixində dönüş nöqtəsi oldu.

Ulu öndər Heydər Əliyev hakimiyyətə gəldiyi ilk günlərdən ölkədə ictimai-siyasi sabitliyin bərqərar olması, müstəqilliyin və dövlətçiliyin möhkəmlənməsi istiqamətində çətin işləri həyata keçirməyə başladı və bütün bunlar əməli şəkildə reallaşdırıldı. Qısa müddət ərzində qanunsuz silahlı dəstələr və separatçı qüvvələr zərərsizləşdirildi, dövlət çevrilişi cəhdlərinin qarşısı alındı, müharibədə uzunmüddətli atəşkəsə nail olunmaqla erməni təcavüzü dayandırıldı. Məhz bu siyasətin həyata keçirilməsi ilə dahi Şəxsiyyət, bütün həyatını xalqına və Azərbaycanın müstəqil dövlət quruculuğuna həsr etmiş Ulu öndər Heydər Əliyevin hakimiyyətə qayıdışı xalqımızın itirilmiş inamını özünə qaytarmaqla, müstəqilliyin möhkəmlənməsinin və ölkənin yeni inkişaf dövrünün əsasını qoydu.

İlkin çətinliklər geridə qoyulduqdan və ölkə üçün çox zəruri olan ictimai-siyasi sabitləşməyə nail olunduqdan sonra demokratik prinsiplərin və təsisatların yaradılması və təkmilləşdirilməsi, dövlət aparatının möhkəmləndirilməsi və iş qabiliyyətli dövlət idarəçilik təsisatlarının formalaşdırılması, cəmiyyətdə yeni davranış norma və stereotiplərinin yaradılması, yeni - açıq və demokratik vətəndaşlığın formalaşdırılması, qanunvericilik bazasının təkmilləşdirilməsi, həyat qabiliyyətli tarazlı xarici siyasət modelinin yaradılması istiqamətində əməli işlərə başlanıldı. Azərbaycanın demokratik dəyərlər əsasında dayanıqlı inkişafını təmin etmək istiqamətində Ulu öndər Heydər Əliyev tərəfindən atılan ən mühüm addımlardan biri də müstəqil Azərbaycanın yeni Konstitusiyasının qəbulu oldu.

Ulu öndər Heydər Əliyevin qarşısında dayanan əsas vəzifələrdən biri də xarici siyasət prioritetləri, eləcə də beynəlxalq münasibətlərin qurulması məsələsi idi. Belə ki, müstəqil Azərbaycan dövlətinin beynəlxalq münasibətlər sistemində yeri, Avropa ölkələri və ABŞ ilə, yeni müstəqil dövlətlər və Rusiya ilə, türkdilli dövlətlər və Türkiyə ilə, müsəlman dünyası və İranla, nüfuzlu beynəlxalq təşkilatlarla əlaqələrinin yaxın dövr üçün prioritetləri müəyyənləşdirildi və tədricən həyata keçirilməyə başlandı. Qısa müddət ərzində bir çox ölkələrlə qarşılıqlı səmərəli əməkdaşlıq quruldu. Balanslaşdırılmış xarici siyasət sayəsində Azərbaycan dünyanın siyasi xəritəsində geostrateji mövqeyini möhkəmləndirməyə başladı. Ulu öndərin çoxsaylı xarici səfərləri, ikitərəfli və beynəlxalq səviyyədə imzalanmış mühüm saziş və sənədlər, beynəlxalq və regional təşkilatlarla aparılan gərgin iş ölkəmizin inkişafının sürətləndirilməsinə mühüm töhfəsini verməyə başladı. Eyni zamanda 1993-1995-ci illərdə Azərbaycan Prezidentinin bir sıra xarici ölkələrə səfərləri, keçirdiyi görüşlər, eləcə də dünyanın ayrı-ayrı dövlətlərindən respublikamıza gələn nümayəndələrlə aparılan danışıqlar Ermənistanın Azərbaycana təcavüzü haqqında həqiqətlərin beynəlxalq aləmə çatdırılması baxımından əhəmiyyətli rol oynadı.

Ulu öndər Heydər Əliyevin hakimiyyətə qayıtması ilə bütün sahələrdə olduğu kimi, ölkəmizin iqtisadi həyatında da taleyüklü dəyişikliklərin əsası qoyuldu, Azərbaycan dövlətini və ölkə iqtisadiyyatını labüd fəlakətdən, hərc-mərclikdən xilas edən Heydər Əliyev ölkənin iqtisadi yüksəlişi üçün təcili tədbirlər görməyə başladı. Dahi siyasətçi Heydər Əliyev tərəfindən müəyyənləşdirilmiş strategiyanın əsasını iqtisadiyyatın inkişafına, mövcud resurslardan səmərəli istifadəyə, dünya iqtisadiyyatına inteqrasiyaya və nəticə etibarilə vətəndaşların rifah halının yüksəldilməsinə hesablanan sosialyönümlü bazar iqtisadiyyatının yaradılması təşkil edirdi. Onun rəhbərliyi dövründə iqtisadi sahələrin tənzimlənməsi ilə bağlı 70-dən artıq qanun qəbul edildi, 100-dən çox Fərman və Sərəncam imzalandı, 30-a yaxın Dövlət Proqramı təsdiq edildi.

Azərbaycanın o zamankı məhdud imkanlarını nəzərə alan Ulu öndər Heydər Əliyev iqtisadiyyatda ciddi dönüşə nail olmaq üçün respublikanın malik olduğu zəngin karbohidrogen ehtiyatlarından səmərəli istifadəni vacib hesab edirdi. Ümummilli lider neft və qaz hasilatının artımına ölkənin qarşıdakı iqtisadi və sosial çətinliklərinin aradan qaldırılmasında əsas vasitələrdən biri kimi baxırdı. Belə bir şəraitdə maliyyə vəsaitinin məhdudluğu xarici şirkətlərin və investorların cəlb olunmasını strateji zərurətə çevirmişdi. Ulu öndər Heydər Əliyevin hakimiyyətə qayıdışından dərhal sonra xarici investorlarla neft müqavilələri üzrə fəal danışıqlara başlandı və çətin danışıqlar prosesindən sonra Azərbaycanın maraqlarına tamamilə cavab verən müqavilə şərtləri əldə edildi. 1994-cü il sentyabrın 20-də Bakıda "Gülüstan" sarayında Qərbin neft şirkətləri ilə bağlanmış neft sazişi müstəqil Azərbaycan Respublikasının yeni tarixinin şanlı səhifəsini açdı. Sonradan haqlı olaraq "Əsrin müqaviləsi" adlandırılan bu saziş, həqiqətən, müstəqil Azərbaycanın neft salnaməsinə əbədi həkk olundu. "Əsrin müqaviləsi" adı ilə indi bütün dünyada tanınmış bu müqavilənin imzalanması və onun gerçəkləşməsi müstəqil Azərbaycanın iqtisadi inkişaf konsepsiyasını təşkil edən və böyük siyasətçi Heydər Əliyev tərəfindən işlənib hazırlanmış neft strategiyasının həyata keçirilməsinin parlaq təzahürü oldu.

Ümummilli lider Heydər Əliyevin düşünülmüş iqtisadi siyasəti nəticəsində müstəqil Azərbaycanda makroiqtisadi sabitliyə nail olundu və davamlı iqtisadi artımın əsası qoyuldu, iqtisadiyyatın bütün sahələrində islahatlara başlanıldı, əhalinin həyat səviyyəsinin yaxşılaşdırılması istiqamətində ciddi addımlar atıldı.

Ulu öndər Heydər Əliyev aqrar siyasətə də böyük önəm verir, bu istiqamətdə islahatların həyata keçirilməsi üçün müvafiq tədbirlərini görürdü. Məhz Onun təşəbbüsü və rəhbərliyi ilə 1995-ci ildən başlayaraq, iqtisadiyyatın bazar münasibətləri əsasında qurulması, aqrar islahatların həyata keçirilməsi, sovxoz və kolxozlara məxsus torpaqların, mal-qaranın və əmlakın kəndlilərə paylanması, qiymətlərin sərbəstləşdirilməsi və s. tədbirlər aqrar bölmənin inkişafına təkan verdi, kənd təsərrüfatında ciddi struktur dəyişiklikləri aparıldı, yeni sahələr yarandı, məzmunca fərqli münasibətlər formalaşdırıldı. Məhz Ümummilli liderin təşəbbüsü ilə kənd təsərrüfatı məhsulları istehsalçılarının əvvəlki vergi borcları silindi, onlara uzunmüddətli vergi tətillərinin verilməsinə başlandı.

Ulu öndər Heydər Əliyevin diqqət yetirdiyi sahələrdən biri də özəl sektor idi. Belə ki, ölkənin gələcək iqtisadi inkişafının məhz özəl sektorla bağlı olduğunu vurğulayan Ulu öndər Heydər Əliyev deyirdi: "Sahibkarlığın inkişaf etdirilməsi, sərbəst iqtisadiyyata yol verilməsi, bazar iqtisadiyyatının yaradılması bizim strateji yolumuzdur".

Ümummilli lider Heydər Əliyevin ölkənin gələcək inkişafı ilə bağlı qarşıya qoyduğu vəzifələrdən biri də ölkə regionlarının tarazlı və davamlı inkişafının təmin edilməsi oldu. Ulu öndər Heydər Əliyev Azərbaycanın davamlı inkişafı baxımından regionların inkişafını və bölgələrdəki potensialdan səmərəli istifadəni vacib hesab edirdi. Regionların inkişafı istiqamətində qəbul edilən mühüm qərarlar və bu qərarlardan doğan vəzifələr ardıcıllıqla həyata keçirilir, artıq əsas diqqətlərdən biri də paytaxtımızdan bölgələrimizə doğru yönəlməyə başlandı. Çətinliklərə baxmayaraq, Ulu öndər Heydər Əliyev tez-tez rayon və bölgələrimizə səfərlər edir, aparılan işlərlə yaxından maraqlanır, əhali ilə yaxından təmaslarda olur, problemləri dinləyib, onların yerindəcə həll edilməsinə tapşırıqlarını verirdi.

Beləliklə, Heydər Əliyev strategiyasının həyata keçirilməsi nəticəsində 1995-ci ildən Azərbaycanda inkişafın yeni mərhələsi - bərpa və dinamik inkişaf dövrü başladı. 1995-2003-cü illər ərzində ümumdaxili məhsul 90,1 faiz, dövlət büdcəsinin gəlirləri 3,9 dəfə, ölkənin valyuta ehtiyatları 85 dəfə, sənaye məhsulunun həcmi 22,4 faiz, kənd təsərrüfatı istehsalı 52,8 faiz, xarici ticarət dövriyyəsi 4 dəfə, iqtisadiyyatda məşğul olanların orta aylıq əməkhaqqı 6,2 dəfə artdı, inflyasiya səviyyəsi 2-3 faizə qədər endirildi. Bu dövrdə iqtisadiyyata bütün maliyyə mənbələri hesabına 20 milyard ABŞ dolları həcmində investisiyanın qoyulması təmin olundu.

Bu gün azərbaycançılıq həm Azərbaycanda, həm də bütün dünyada yaşayan azərbaycanlılar üçün əsas ideyaya çevrilmişdir. Ümummilli lider bütün dünyada yaşayan soydaşlarımıza bu ideya ətrafında birləşməyi təlqin edir və bildirirdi ki, azərbaycançılıq öz milli mənsubiyyətini, milli-mənəvi dəyərlərini qoruyub saxlamaq, eyni zamanda, onların ümumbəşəri dəyərlərlə sintezindən, inteqrasiyasından bəhrələnmək və hər bir insanın inkişafını təmin etməkdən ibarətdir. Ulu öndərimiz xaricdə yaşayan azərbaycanlıların birliyi və təşkilatlanması məsələsini daim diqqət mərkəzində saxlamış, Azərbaycan diaspor cəmiyyətlərinin problem və qayğılarına böyük həssaslıqla yanaşmışdı.

Ulu öndər Heydər Əliyev dünyanın müxtəlif ölkələrində yaşayan soydaşlarımızın və həmvətənlərimizin müstəqil Azərbaycan Respublikası ilə əlaqələrinin daha da möhkəmləndirilməsi, dünya azərbaycanlıları arasında mənəvi, siyasi birliyin və həmrəyliyin təmin olunması, Azərbaycan icmaları, cəmiyyət və birliklərinin fəaliyyətinin gücləndirilməsi və əlaqələndirilməsinin ətraflı müzakirəsinin zəruriliyini nəzərə alaraq 2001-ci ilin may ayının 23-də xüsusi Sərəncam imzaladı, həmin Sərəncama uyğun olaraq 2001-ci il noyabrın 9-10-da Bakıda keçirilmiş Dünya azərbaycanlılarının I qurultayı soydaşlarımızın azərbaycançılıq ideyası ərtafında sıx birləşməklə təşkilatlanması baxımından tarixi əhəmiyyət kəsb etdi. Bu addım diaspor hərəkatının inkişafında yeni mərhələnin başlanğıcını qoydu.

Ulu öndər Heydər Əliyev bu sahədə sistemli dövlət siyasətinin həyata keçirilməsini təmin etmək məqsədilə 2002-ci ildə "Xarici ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsinin yaradılması barədə" Fərman imzaladı. Komitənin yaradılması xaricdəki Azərbaycan cəmiyyətlərinin, birliklərinin və dərnəklərinin fəaliyyətinin vahid mərkəzdən koordinasiyasına, habelə onların dövlət qayğısı ilə əhatə olunmasına geniş imkanlar verdi. Dövlət komitəsinin yaradılması dünya azərbaycanlılarının konsolidasiyasında, diaspordan lobbiyə doğru inkişafında yeni mərhələnin başlanğıcını qoydu.

Bu gün Ulu öndərimiz bizim aramızda cismən olmasa da, Onun əbədi ideyaları hər birimizin qəlbində yaşamaqdadır. Eyni zamanda, bu ideyalar məhz Onun layiqli davamçısı, siyasi varisi, Prezident İlham Əliyev cənabları tərəfindən uğurla, qətiyyətlə, məqsədyönlü şəkildə reallaşdırılmaqdadır. Azərbaycan xalqı da əbədiyaşar Liderinin ideya və arzularını Cənab Prezident İlham Əliyevin ətrafında daha sıx birləşməklə yaşadacaq, həyata keçirəcəkdir.

# Jurnalistlər hər zaman Ulu öndər Heydər Əliyevdən atalıq qayğısı, doğmalıq hiss ediblər



***"SƏS" qəzetinin baş redaktoru Bəhruz Quliyev www.yap.org.az saytına müsahibə verib:***

**- Bəhruz müəllim, xalqımız Ulu öndər Heydər Əliyevin anım gününü qeyd edir. Siz, bir mətbuat nümayəndəsi olaraq, xalqımızın Ümummilli lideri barədə hansı fikirlərinizi bölüşərdiniz?**

- İlk olaraq, qeyd etmək istərdim ki, Azərbaycan xalqının böyük oğlu, dahi şəxsiyyət Heydər Əliyev bu gün cismən aramızda olmasa da, Onun əbədiyaşar ideyaları daim həyata keçirilməkdə, reallaşdırılmaqdadır. Biz Heydər Əliyev deyərkən, müasir, müstəqil Azərbaycanın, onun tərəqqisinin, inkişafının mənzərəsinin şahidlərinə çevrilirik. Məhz Onun sayəsində bu günün Azərbaycanı dünya miqyasında layiqli mövqeyini tutub, lider ölkələr sırasındakı yerini möhkəmləndirərək, söz sahibinə çevrilib. Ölkəmizin bütün sahələrdə əldə etdiyi inkişaf və tərəqqi mətbuatımızdan da yan keçməyib. Demokratik medianın və azad sözün bugünkü reallığı bütün mənalarda həmin faktorların bariz göstəricisi olaraq qiymətləndirilməkdədir. Azərbaycan mətbuatı heç vaxt indiki qədər dövlət və ictimai qayğı ilə əhatə olunmayıb. Eləcə də dünyanın heç bir ölkəsində Azərbaycanda olduğu qədər mətbuata xüsusi diqqət və qayğı mövcud deyil. Məhz bu baxımdan, Azərbaycan mətbuatının bugünkü inkişaf səviyyəsi haqqında danışarkən, sözün həqiqi mənasında, keçilmiş uzun və mürəkkəb yol göz önündə canlanır. Bu mənada, insanda mediamızın inkişafı ilə bağlı çoxsaylı suallar da meydana çıxır. Düşünürük ki, necə oldu Azərbaycan mətbuatı qısa müddət ərzində bu qədər inkişaf etdi, maddi-texniki vəziyyəti yüksəldi, demokratikləşdi?

Məhz səslənən suala cavab axtararkən, ilk olaraq lider faktoru və mətbuatın inkişafı istiqamətində həyata keçirilən islahatların əhəmiyyəti önə çıxır. Elə reallaşdırılan fəaliyyətin və islahatların nəticəsində ötən zaman ərzində söz, fikir və özünüifadə azadlığının təmin və müdafiə olunması yönündə fundamental nailiyyətlər əldə edilib.

**- Bu fikirlərinizi hansı aspektlərlə şərh edərdiniz?**

- Bilirsiniz, bu aspektlər bir sıra tarixi faktlara əsaslanır. Bu baxımdan, qeyd etmək yerinə düşər ki, 1991-ci ildə müstəqilliyimizin ikinci dəfə əldə olunmasının ardından mətbuat sahəsindəki vəziyyət də, digər sahələrdə olduğu kimi, ürəkaçan deyildi. Təsadüfi şəxslərin ölkə rəhbərliyinə gəlməsi, ölkənin silahlı qruplaşmaların mübarizə meydanına çevrilməsi və ölkədə qeyri-sabit vəziyyətin yaranması təbii olaraq mətbuatın da inkişafına maneələr törədirdi. Həmin vaxtlarda çətinliklə nəşr edilən qəzetlərə yaradılan bürokratik əngəllər əsl həqiqətin xalqa çatdırılmasına mane olurdu. AXC-Müsavat hakimiyyətinin jurnalistikaya, jurnalistlərə münasibəti hakimiyyətdə təmsil olunma səviyyələri ilə adekvat idi. Məmurlar istənilən jurnalist haqqında istədiyi qərarı verirdi və söz azadlığı, fikir plüralizmi kimi məfhumlar Azərbaycana yad meyarlara çevrilmişdi. İstər Həsən bəy Zərdabi dövründən miras qalan, istərsə də Ümummilli liderimiz Heydər Əliyev tərəfindən formalaşdırılan milli mətbuat ənənələri kobud şəkildə dağıdılırdı. Millətin gərgin psixoloji durumundan istifadə edərək şantaj, hədə-qorxu yolu ilə pul qazanmaq hərisliyi bəzi məqamlarda jurnalist adına ləkə vurulması ilə də nəticələnirdi. Hətta bu gün belə mübarizə aparılan, jurnalistikanın ən ağrılı yeri sayılan "reket jurnalistikası" da məhz o günlərdən bizə qalan "yadigar"dır. Mətbuatın inkişafına mane olmaq, azad sözü boğmaq üçün 1992-ci ildə yaradılan hərbi senzura yazılı mətbuatın vəziyyətini daha da ağırlaşdırdı. Milli maraqları maddiyyata satanlar qorxurdular ki, onların əleyhinə hər hansı bir informasiyanın, əslində isə, həqiqətin xalqa çatdırılması onların siyasi iflasına gətirib çıxaracaq. 1993-cü ilin aprel ayında senzuranın tətbiqinin miqyasının genişləndirilməsi və bütün informasiya yayımını əhatə etməsi haqqında verilən sərəncam məlumat azadlığını, jurnalistlərin sərbəst məlumat əldə etmək və yaymaqla bağlı peşə fəaliyyətini ciddi şəkildə məhdudlaşdırırdı.

Amma mətbuatın inkişafının qarşısını alan, onu dar çərçivədə məhdudlaşdıran antidemokratik siyasətə Ümummilli liderimiz Heydər Əliyevin 1993-cü ildə xalqın təkidi və tələbi ilə yenidən siyasi hakimiyyətə qayıdışı ilə son verildi. Azərbaycanda ictimai-siyasi sabitliyin yaradılması, vətəndaşların təhlükəsizliyinin təmini, sosial-iqtisadi problemlərin həlli söz, fikir azadlığının qorunması sahəsində əsaslı irəliləyişlərə şərait yaratdı.

**- Belə demək mümkündürsə, mətbuatın inkişafı üçün hüquqi baza yaradıldı və islahatlara başlanıldı...**

- Tamamilə doğrudur. Belə ki, Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin ikinci dəfə hakimiyyətə gəlməsindən sonra həyata keçirilən demokratik transformasiya və milli inkişaf strategiyasının fonunda media təsisatının təşəkkülü və inkişafına xüsusi diqqət göstərildi və bu sahədə strateji səciyyəli fundamental işlər görüldü. İlk növbədə, kütləvi informasiya vasitələrinin səmərəli fəaliyyəti üçün qanunvericilik bazası formalaşdırıldı və müvafiq hüquqi substratlar təsbit edildi. Mətbuat orqanlarının azad fəaliyyətinə yaradılan şərait, qanunvericilik bazasının təkmilləşdirilməsi istiqamətində görülən tədbirlər ölkədə fikir plüralizminin genişləndirilməsinə yol açdı. Müstəqil kütləvi informasiya vasitələrinin təsis edilməsi milli mətbuat ənənəsinin davam etdirilməsinə yol açdı. Ümummilli liderimiz Heydər Əliyevin rəhbərliyi ilə hazırlanan müstəqil Azərbaycanın Konstitusiyasında da mətbuata verilən qiymət öz əksini tapdı: **"Demokratiyanın, siyasi plüralizmin və vətəndaş cəmiyyətinin əsas atributlarından hesab olunan söz və məlumat azadlığının başlıca daşıyıcıları kütləvi informasiya vasitələridir".**

Azərbaycan Respublikasının Konstitusiyasının qəbul edilməsi ərəfəsində onun memarı, yaradıcısı Ulu öndər Heydər Əliyevin səyləri ilə insan və vətəndaş hüquq və azadlıqlarının - sərbəst düşüncə və özünüifadə, dini etiqad və məslək azadlığının təmin olunması istiqamətində xüsusi maddələr Ana Qanuna salındı. Ulu öndər Heydər Əliyevin ölkəyə rəhbərlik etdiyi dövrdə media sektorunun inkişafına, söz, fikir və özünüifadə azadlığının təmin və müdafiə olunmasına fundamental töhfələr bəxş edən çox ciddi addımlar atıldı. 1998-ci ildə Ulu öndər Heydər Əliyev tərəfindən imzalanan "Azərbaycan Respublikasında söz, fikir və məlumat azadlığının təmin edilməsi sahəsində əlavə tədbirlər haqqında" Fərmana müvafiq surətdə həyata keçirilən işlər kütləvi informasiya vasitələrinin fəaliyyət mexanizminin səmərəlilik səviyyəsinin artırılmasına fundamental şərait yaratdı. Həmin Fərmanla Nazirlər Kabineti yanında Mətbuatda və digər Kütləvi İnformasiya Vasitələrində Dövlət Sirlərini Mühafizə edən Baş İdarə ləğv edildi, hərbi senzura yaradılması haqqında 16 aprel 1992-ci il tarixli fərman və bütün informasiya yayımı üzərində nəzarət tətbiq edilməsi ilə bağlı 15 aprel 1993-cü il tarixli sərəncam qüvvədən düşmüş hesab olundu.

Əlbəttə ki, Azərbaycanda senzuranın ləğv olunması haqqında Fərmanın imzalanması həmin dövr üçün inanılmaz addım idi. Bu, çox böyük siyasi iradə tələb edirdi. Belə bir missiyanı məhz Ulu öndər Heydər Əliyev həyata keçirdi. Ulu öndər Heydər Əliyev bu qərarı verməklə böyük siyasi iradə nümayiş etdirdi. Bununla da Azərbaycan mətbuatının inkişafında yeni mərhələnin başlanğıcı qoyuldu. Məhz senzuranın ləğvindən sonra jurnalistlərin öz peşələrinə münasibətdə məsuliyyəti də artdı. Çünki senzura yaradıcı insanlar üçün bir buxov idi. 6 avqust Fərmanı həm də o dövrdə postsovet məkanında ilk olaraq Azərbaycan mətbuatının dövlət nəzarətindən çıxmasına şərait yaratmışdı. Yəni bu məzmunlu Fərman yeganə olaraq Azərbaycanda verilmişdi.

1999-cu ilin sonunda isə "Kütləvi informasiya vasitələri haqqında" yeni Qanunun qəbulu media təsisatının inkişafını şərtləndirən, bəhs edilən sahəyə müvafiq surətdə sahəvi və ümummilli münasibətləri tənzimləyən hüquqi bazanın zənginləşdirilməsi işinə əhəmiyyətli töhfə oldu. 2000-ci ilin mart ayında Ümummilli lider Heydər Əliyevin Sərəncamı ilə "2000-2001-ci illərdə kütləvi informasiya vasitələrinin maddi-texniki şəraitinin yaxşılaşdırılması üzrə tədbirlər Proqramı" təsdiq olundu. İdarəçilik sisteminin islahatı çərçivəsində Mətbuat və İnformasiya Nazirliyi ləğv edildi, kütləvi informasiya vasitələrinin yaranması və fəaliyyətinin hüquqi əsaslarının möhkəmləndirilməsi məqsədilə Milli Mətbuat, Teleradio və İnternet Şurası yaradıldı. Bir sıra qəzetlərin "Azərbaycan" nəşriyyatına olan borcları donduruldu, sonradan isə ləğv edildi. 2003-cü ilin mart ayında Azərbaycan jurnalistlərinin qurultayında media-ictimaiyyət, media-hakimiyyət münasibətlərini tənzimləyən qurum - Azərbaycan Mətbuat Şurası yaradıldı. Bütün bunlar öz növbəsində Azərbaycanda söz, fikir və mətbuat azadlığının bərqərar olunması üçün əlamətdar tarixi hadisələr kimi qiymətləndirilməlidir.

Təbii ki, bu cür islahatların həyata keçirilməsi üçün qərarların verilməsi və reallaşdırılması liderin mənəvi baxışlarından da irəli gəlir. Yəni nə qədər lider mətbuata və onun nümayəndələrinə qarşı diqqətli olsa, diqqət və qayğı göstərsə, bir o qədər də nəticələr müsbət olar. Məhz Ümummilli lider Heydər Əliyevin mətbuata xüsusi diqqət və qayğısı, mənəvi dəstəyi, həmçinin jurnalistlərlə mütəmadi olaraq ünsiyyətdə olması bu sektorun sürətlə inkişaf etməsinə, stereotiplərin sındırılmasına səbəb olub. Dəfələrlə xarici ölkələrə və ya ölkə regionlarına səfərləri zamanı jurnalistlərə siyasi-iqtisadi məsələlərlə bağlı daha aydın reportajlar hazırlamaq üçün əlavə məlumatlar verərdi və əhəmiyyətli söhbətlər edərdi. Onlardan bəziləri həqiqətən insanın yaddaşında silinməz izlər qoyub...

Ümumiyyətlə, jurnalistlər hər zaman Ulu öndər Heydər Əliyevdən atalıq qayğısı, doğmalıq hiss ediblər.

**- Ulu öndər Heydər Əliyevin mətbuata qayğısından bəhs edərkən, bu qayğının Prezident İlham Əliyev cənabları tərəfindən də davam etdirilməsi barədə nə deyərdiniz?**

- Söz yox ki, bu gün Ulu öndər Heydər Əliyevin siyasi kursunu Onun layiqli siyasi varisi Prezident İlham Əliyev uğurla davam etdirir. Davamlı dövlət qayğısı, Prezident İlham Əliyevin diqqəti mətbuatın problemlərinin həllində mühüm yer tutur. Bu məsələyə toxunan dövlət başçısı **"Bizim ümumi məqsədimiz ondan ibarət olmalıdır ki, Azərbaycanı hərtərəfli şəkildə inkişaf etdirək, müasir dövlətə çevirək, dünyada mövcud olan bütün mütərəqqi təcrübəni tətbiq edək, insanların bütün azadlıqlarını təmin edək, hüquqi dövlət quruculuğu işində daha da böyük addımlar ataq. Ancaq bu halda Azərbaycan uzunmüddətli və dayanıqlı inkişaf imkanlarını tam şəkildə ortaya qoya bilər"** - deyib.

Prezident İlham Əliyevin ölkəyə rəhbərliyi dövründə də media sektorunun inkişafı yönündə fundamental addımlar atıldı, söz, fikir və özünüifadə azadlığının təmin və müdafiə olunması yönündə fundamental nailiyyətlər əldə edildi. Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən rasional siyasət kursu nəticəsində iqtisadi qüdrətimiz artdıqca mətbuatın maddi probleminin həlli ilə bağlı çox ciddi addımlar atıldı və müvafiq tədbirlər görüldü. İlk növbədə, öz peşəsini dürüst və obyektiv surətdə yerinə yetirən, Azərbaycan mətbuatının inkişafına xüsusi xidmət edən ayrı-ayrı jurnalistlərin müxtəlif problemlərinin həlli ilə bağlı fundamental addımlar atılmağa başlandı. Bununla yanaşı, Kütləvi İnformasiya Vasitələrinə Dövlət Dəstəyi Konsepsiyasının qəbul olunması ilə bağlı qərarın qəbul olunması, Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun (KİVDF) yaradılması, jurnalistlərə fəxri adların verilməsi, onların orden və medallarla təltif olunması, qəzet redaksiyalarına, informasiya agentliklərinə birdəfəlik maliyyə yardımlarının edilməsi və s. kimi tədbirlər media sektorunun inkişafını sürətləndirən fundamental mexanizm qismində çıxış etdi.

Bütövlükdə, KİV-in fəaliyyətini stimullaşdırmaq məqsədilə, həmçinin jurnalist əməyinə verilən yüksək qiymətin göstəricisi olaraq Prezident İlham Əliyev 2005-ci il iyul ayının 21-də "Azərbaycan mətbuat işçilərinin təltif edilməsi haqqında", "Azərbaycan mətbuat işçilərinə fəxri adların verilməsi haqqında", habelə "Kütləvi informasiya vasitələrinə maliyyə yardımı göstərilməsi haqqında" sərəncamlar imzalayıb. Dövlət başçısının Azərbaycan mətbuatının 130 illik yubileyinin qeyd edilməsi haqqında 2005-ci ildə imzaladığı Sərəncamda müstəqil milli mətbuatımızın üzərinə düşən məsuliyyət ifadə olunur. Prezident İlham Əliyevin 2006-cı il 8 fevral tarixli "Qəzetlərin "Azərbaycan" nəşriyyatına olan borclarının ödənilməsi barədə" Sərəncamını isə Ulu öndərin mətbuatın maddi-texniki imkanlarının yaxşılaşdırılması yönündə həyata keçirdiyi siyasətin davamı kimi qiymətləndirmək olar. Sərəncama əsasən, qəzetlərin nəşriyyata olan 450 min ABŞ dolları həcmində borcu dövlət büdcəsindən ödənildi. Xatırladaq ki, qəzetlərin borclarının dondurulması haqqında mütərəqqi qərar hələ 2001-ci ildə Ulu öndər Heydər Əliyev tərəfindən verilmişdi. Dövlət büdcəsinin gəlirlərinin artması və respublikamızın maliyyə imkanlarının yaxşılaşması borcların büdcə hesabına birdəfəlik ödənilməsinə şərait yaratdı. Qeyd edək ki, borcları ödənilən qəzetlər içərisində müstəqil və müxalifyönlü qəzetlər üstünlük təşkil edib. Bu isə bir daha təsdiq edir ki, siyasi mövqeyindən asılı olmayaraq, ölkədə bütün mətbuat orqanlarına dövlətin münasibəti, diqqət və qayğısı eynidir, onların azad fəaliyyətinə heç bir maneə yoxdur. Bundan başqa, Azərbaycan mətbuat işçilərinin mənzil-məişət şəraitinin yaxşılaşdırılması və onlar üçün yaşayış evlərinin tikilməsi də bu reallığın bariz göstəricisidir. Ümumiyyətlə, bu bir həqiqətdir ki, Prezident İlham Əliyevin mətbuat sahəsinə göstərdiyi xüsusi diqqət və qayğı bu sahənin sürətlə inkişaf etməsinə, mətbu orqanların fəaliyyətinin genişlənməsinə və peşəkarlıq səviyyəsinin yüksəlməsinə səbəb olub. Prezident İlham Əliyev də Ümummilli lider kimi jurnalistlərə səmimi münasibət bəsləyir, onların sosial və iş şəraitilə tanış olur, ən əsası, mətbuat nümayəndələrinin xeyrinə qərarlar verir. Belə bir mühit, əlbəttə ki, media nümayəndələri arasında perspektivlə bağlı böyük ümidlər yaradır.

Düşünürük ki, Ulu öndər Heydər Əliyevin layiqli siyasi varisi Prezident İlham Əliyevin səyləri nəticəsində media sektoru daha da inkişaf edəcək və cəmiyyətimizin inkişafına təkan verən əhəmiyyətli sahə kimi formalaşacaq. Bu reallıqlar isə həm əbədiyaşar liderimizin ideyalarının yaşadılması, həyata keçirilməsi üçün, həm də mətbuatımızın inkişafı üçün önəmli bir stimuldur.

# Hikmət Babaoğlu: Bir hərbi xuntanın yeni işğalçı diktatura ilə əvəz edilməsi demokratiya ola bilməz



Ermənistanda dekabr ayının 9-da sərgilənən kütləvi-siyasi şounu seçki adlandırmaq ağıla və məntiqə ziddir. Bunun birinci səbəbi onunla izah edilir ki, bu ölkədə cəmi iki milyona yaxın insan yaşadığı halda seçkini keçirən rəsmi qurum - Mərkəzi Seçki Komissiyası 2 milyon 500 mindən çox seçici müəyyən edib və saxta seçici siyahısı tərtib olunub. Təkcə bu fakt işğalçı ölkədə keçirilən seçkilərin saxta olduğunu söyləməyə kifayətdir. Belə olan halda, ümumiyyətlə, olmayan, yaxud sadəcə seçici siyahısında adı olan seçicinin hansısa fəallığından, yaxud qeyri-fəallığından danışmaq da ciddi olmaz. Ona görə də bu absurd tamaşa heç bir ciddi qiymətləndirmə meyarlarına uyğun gəlmir. Sadəcə, 2018-ci ilin aprel ayından bəri Ermənistanda tamaşaya qoyulan siyasi komediyanı hər hansı şəkildə başa çatdıraraq küçə demokratiyasının liderinin hakimiyyətinə legitimlik donu geyindirmək lazım idi ki, bunu da etdilər. Baş tutan əslində budur. Çünki ziddiyyətli siyasi qütblərin az qala birgə layihəsi kimi qiymətləndirilə biləcək Paşinyan oyunu, nəhayət, fərqli siyasi maraqların müvazinətini təmin etməli, hüquqa və demokratiyaya uyğunlaşdırılmalı idi. Həqiqət isə bundan ibarətdir ki, Ermənistan sözünün yanında hüquq və demokratiya kəlmələrinin işlənməsi hüququn və demokratiyanın təhqir edilməsi deməkdir. Bir hərbi xuntanın yeni işğalçı diktatura ilə əvəz edilməsi demokratiya hadisəsi ola bilməz. Ancaq ermənilər hazırda bunu etməyə çalışırlar.

Bu fikirləri AZƏRTAC-a açıqlamasında Milli Məclisin deputatı, "Yeni Azərbaycan" qəzetinin baş redaktoru Hikmət Babaoğlu bildirib.

Deputatın sözlərinə görə, istər dini liderin, istərsə də separatçı rejimin və hazırkı prezidentin tələm-tələsik Paşinyanı təbrik etmələri də bununla bağlıdır. Onlar Ermənistanda oynanılan oyunu demokratiya kimi təqdim etməklə ümumxalq konsolidasiyasının olduğunu və ermənilərin demokratik cəmiyyət qura bildiklərini sübut etməyə çalışırlar. Görünən odur ki, bəzi beynəlxalq və insan hüquqları təşkilatları da bunu belə qələmə verməyə hazırlaşırlar. Ancaq baş verən seçki saxtakarlığı o qədər böyük miqyasda və o qədər təkzibedilməz ölçüdədir ki, bunu ört-basdır etmək mümkün deyil.

Hikmət Babaoğlu qeyd edib ki, heç bir halda ölkə əhalisinin 30 faizinin seçimi həmin ölkədə sabitliyin təminatçısı ola bilməz. Ona görə də Ermənistan cəmiyyəti olduqca ciddi sosial partlayış ərəfəsindədir. Bunu şərtləndirən ikinci amil isə ötən aylar ərzində iqtisadi sahədə heç bir islahatın aparılmaması, ölkənin yoxsulluq vəziyyətində olmasıdır. İslahatlar isə ona görə aparılmır ki, bunu etmək mümkün deyil, çünki islahatları təmin edəcək iqtisadi resurslar bu ölkədə yoxdur. Belə olan halda, Ermənistanda yeni eranın başladığını iddia edənlər yalnız siyasi xəyalpərəstlər ola bilərlər. Ermənistanda yeni era o vaxt mümkün ola bilər ki, bu ölkə işğalçılıq siyasətinə son qoysun, zəbt etdiyi Azərbaycan torpaqlarını geri qaytarsın. Əks təqdirdə, heç bir güc göydən zənbillə bu ölkəyə iqtisadiyyat gətirə bilməyəcək. Çünki iqtisadiyyat real resurslara və kommunikasiyaya əsaslanaraq qurulur. Bu resursların və kommunikasiyaların açarı isə Azərbaycanın əlindədir.

Milli Məclisin deputatı əlavə edib ki, Paşinyan hər nə qədər öz legitimliyini qəbul etdirməyə çalışsa da, bu, baş tutmayacaq, çox keçmədən əhali yenidən iqtisadi tələblərlə meydanlara çıxacaq. Ona görə də yaxşı olar ki, yeni seçilən komanda öz xalqının və qonşu xalqların ümumi mənafeyinə uyğun olan addımlar atmaq barədə düşünsün. Yoxsa Azərbaycanın da səbri sonsuz deyil və şərtlər uyğun olan kimi yeni həmlələrlə torpaqlarını azad etmək istiqamətində ciddi addımlar atılacaq.

# Vüqar Rəhimzadə: Saxta seçki ilə hakimiyyətə gələn Paşinyan iqtidarı özü və Ermənistan üçün yaxşı heç nə vəd etmir



Ermənistanda keçirilən növbədənkənar parlament seçkiləri ölkənin tarixinə növbəti biabırçılıq kimi düşdü. Buna seçki demək nə dərəcədə doğrudur? Sözsüz ki, bu, seçki yox, "seçki fırıldağı" kimi yadda qaldı.

AZƏRTAC xəbər verir ki, bu fikirləri AZƏRTAC-a açıqlamasında YAP Siyasi Şurasının üzvü, "İki sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadə bildirib.

Vüqar Rəhimzadə qeyd edib ki, seçicilərin heç 50 faizi belə səsverməyə gəlmədi. Ermənistan Mərkəzi Seçki Komissiyasının sədri Tiqran Mukuçyan açıqlama yayıb ki, seçici fəallığı cəmi 48,63 faiz təşkil edib. İnsanların daha çox yaşadığı İrəvanda belə seçici passivliyi müşahidə edilib. Bu, hələ rəsmi statistikadır, şişirdilmiş rəqəmdir. Əslində isə bu faiz daha aşağıdır. Bu da insanların köhnə və yeni hakimiyyətə inamsızlığından irəli gəlir. İllərdir ki, xalqı boş vədlərlə aldadan terrorçu Sarkisyan rejimindən sonra hakimiyyətə gələn Paşinyan şirin vədlərlə öz şəxsində "lider" obrazı fomalaşdırmağa çalışdı. Ancaq onun 7 aylıq hakimiyyət dövrü göstərdi ki, Paşinyan xalqın yox, "başqaları"nın qulluğundadır. Ermənistanda seçici passivliyinin baş verməsi isə məhz bu amillərlə bağlıdır.

Baş redaktor bildirib ki, Ermənistandakı seçkilər zamanı kifayət qədər qanun pozuntusu qeydə alınıb: **"Seçkilərdə ciddi saxtakarlıqlar baş verdi. Bunların əksəriyyəti isə cinayət tərkiblidir. Haradadır Azərbaycanda keçirilən şəffaf, ədalətli seçkilərə hər fürsətdə qara yaxmağa çalışan bəzi beynəlxalq qurumlar, təşkilatlar? Nə üçün Ermənistanda baş verən biabırçılığa reaksiya vermirlər, hesabatlar yaymırlar? Bu mənada hesab edirəm ki, dünyanın nüfuzlu beynəlxalq təşkilatları, o cümlədən ATƏT və digər qurumlar Ermənistandakı seçki saxtakarlığına lazım olan qiyməti verməlidirlər. Bütün dünyanın gözü qarşısında baş verən qanun pozuntuları, seçici passivliyi, şişirdilmiş rəqəmlər və müxalifətin, xalqın etirazı beynəlxalq təşkilatların hesabatlarında öz əksini tapmalıdır".**

V.Rəhimzadə əlavə edib ki, saxta seçki ilə hakimiyyətə gələn Paşinyan iqtidarı özü və Ermənistan üçün yaxşı heç nə vəd etmir: **"Paşinyan hakimiyyətə gəldiyi ilk günlərdə xalqı yalan vədlərlə aldatmağa çalışdı, bir müddət bunu bacardı da. Ancaq vaxt keçdikcə insanlar onun əsl simasını gördülər və 9 dekabr "seçki oyunu" da bunun bariz nümunəsi oldu".**

# Baş Prokurorluqda Ulu öndər Heydər Əliyevin xatirəsinə həsr olunmuş anım mərasimi keçirilib



Dekabrın 10-da Baş Prokurorluqda müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, xalqımızın Ümummilli lideri Heydər Əliyevin xatirəsinə həsr olunmuş anım mərasimi keçirilib.

Baş Prokurorluğun mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, tədbir iştirakçıları əvvəlcə Ulu öndər Heydər Əliyevin Baş Prokurorluğun inzibati binasındakı büstü önünə əklil və gül dəstələri qoyub, dahi şəxsiyyətin unudulmaz xatirəsini dərin ehtiramla yad ediblər.

Mərasimdə çıxış edən baş prokuror Zakir Qaralov diqqətə çatdırıb ki, Ümummilli lider Heydər Əliyevin xatirəsini yad edərkən bütün Azərbaycan xalqı kimi, prokurorluq orqanlarının hər bir əməkdaşı da dahi şəxsiyyətin zəngin irsinə, nəsillərə örnək olan həyat yoluna nəzər salaraq ehtiramını bildirir, əbədiyaşar liderimizin Vətəni və xalqı üçün gördüyü nəhəng işlərin, milli dövlətçilik və müstəqillik ideyalarının gerçəkləşməsində xidmətlərinin hədsiz əhəmiyyətini minnətdarlıq hissi ilə qeyd edir.

Bildirilib ki, müasir Azərbaycanın şərəfli inkişaf tarixinin 30 ildən artıq bir dövrü fenomenal xüsusiyyətlərə, dərin təfəkkürə və güclü iradəyə malik ən böyük azərbaycanlının adı ilə bilavasitə bağlıdır. Məhz Onun dəyanəti və cəsarəti, mətinliyi və zəkası, qətiyyəti və qüdrəti sayəsində xalqımız zamanın ağır sınaqlarından üzü ağ çıxaraq çətinliklərə sinə gərib, təzyiq və təhlükələrdən xilas olaraq ictimai-siyasi sabitliyin bərqərar olunmasına, milli dövlətçilik ideyasının gerçəkləşdirilməsinə, insan hüquq və azadlıqlarının təmin edilməsi istiqamətində mühüm tədbirlərin həyata keçirilməsinə, vətəndaş cəmiyyətinin əsaslarının formalaşdırılmasına nail ola bilib. Azərbaycanlı olması ilə hər zaman fəxr edən, milli mənsubluğundan hədsiz iftixar hissi keçirən Ulu öndər Heydər Əliyev Öz fəaliyyəti və misilsiz xidmətləri sayəsində xalqımızın qəlbinə və yaddaşına həmişəlik həkk olunub və elə bir iz qoyub ki, ölkəmiz dahi rəhbəri ilə daim fəxr edəcək. Ulu öndər Heydər Əliyev sovet dövründə, eləcə də müstəqillik illərində xalqımızın müdafiəsi və rifahı, milli dövlətimizin qurulması və möhkəmləndirilməsi üçün elə bir yorulmaz və əzmkar fəaliyyət göstərib ki, Azərbaycan xalqı Onu özünün həmişəlik Ümummilli lideri seçib, vətəndaşların ürəyində və qəlbində əbədi yer tutub.

Vurğulanıb ki, respublikada əfvetmə institutunun bərpası, ölüm hökmünün ləğv olunması, İnsan Hüquqları üzrə Müvəkkil İnstitutunun yaradılması, hüquq-mühafizə orqanlarında dövrün tələblərinə cavab verən mütərəqqi islahatların aparılması - bütün bunlar məhz Ulu öndər Heydər Əliyevin qətiyyətli addımları sayəsində gerçəkliyə çevrilib.

Diqqətə çatdırılıb ki, Heydər Əliyev ideyalarına və xalqına sadiqliyini əməli işləri ilə sübuta yetirən Prezident İlham Əliyev tərəfindən həmin ideyaların reallaşdırılması istiqamətində məqsədyönlü və yeni məzmunlu daxili və xarici siyasət həyata keçirilir. Dövlətimizin başçısının uğurlu fəaliyyəti bir daha göstərir ki, Heydər Əliyev ideyaları yaşayır və onların reallaşdırılması istiqamətində görülən işlər bu dahi şəxsiyyətin unudulmaz xatirəsinin əbədiləşdirilməsini və vətənimizin hərtərəfli tərəqqisini təmin edir. Dünya birliyinə sürətlə inteqrasiya olunan Azərbaycan regionun lider dövləti statusunu özündə saxlamaqla iqtisadi inkişaf göstəricilərinə görə dünyanın aparıcı ölkələri sırasında yerini qoruyub saxlayıb, böyük enerji layihələrinin reallaşdırılması istiqamətində inamlı addımlar atıb.

Qeyd edilib ki, Heydər Əliyev ideyalarını hər sahədə uca tutan, onları praktiki şəkildə gerçəkləşdirən, mərkəzində Azərbaycan vətəndaşı, onun qayğı və maraqları dayanan sosialyönümlü siyasət həyata keçirən dövlətimizin başçısı daim müdrik qərarları, səriştəli və bacarıqlı idarəçiliyi ilə xalqımızı ciddi sınaqlardan, iqtisadi risklərdən və onların yarada biləcəyi fəsadlardan xilas edərək, ölkənin davamlı və dayanıqlı tərəqqisini təmin edib. Son illər həyata keçirilən mütərəqqi islahatlar, idarəetmənin təkmilləşdirilməsi istiqamətində mühüm yeniliklər, korrupsiya hallarının qarşısının alınması, şəffaflığın və ictimai nəzarətin artırılması ilə bağlı qəbul olunan strateji əhəmiyyətə malik innovativ qərarlar göstərilənlərin bariz nümunəsi olmaqla Heydər Əliyev siyasətinə alternativin olmadığını bir daha təsdiqləyir.

Xüsusi vurğulanıb ki, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə ordumuz Aprel döyüşlərində öz hərbi gücünü və qətiyyətini real şəkildə bütün dünyaya nümayiş etdirməsi nəticəsində işğaldan azad olunan Cocuq Mərcanlı kəndində yeni qəsəbənin açılışı, eləcə də Günnüt kəndi və ətrafındakı mühüm strateji əhəmiyyətli yüksəkliklərin azad edilməsi xalqımızın və dövlətimizin tarixində çox əlamətdar hadisələrdən biri olub. Bu zəfərlər doğma yurd-yuvalarından didərgin düşmüş məcburi köçkünlərimizin işğal altındakı torpaqlara qayıtmaq əzmini daha da artırıb.

Bildirilib ki, Ulu öndər Heydər Əliyevin ölkənin sosial-iqtisadi, mədəni tərəqqisi, sivil dünya birliyinə inteqrasiyası, xalqın maddi rifahının yaxşılaşdırılması naminə müəyyən etdiyi ideyaları reallaşdıran, məqsədlərinin əhəmiyyətinə və miqyasına görə Azərbaycanda alternativi olmayan Heydər Əliyev Fondu tərəfindən milli-mənəvi dəyərlərimizin qorunması, təhsil, səhiyyə, idmanın inkişafı sahəsində dövlətin yürütdüyü siyasətə dəstək verilməsi, xüsusilə Azərbaycanda müasir xeyriyyəçilik institutunun əsasını qoymuş Fondun prezidenti Mehriban xanım Əliyevanın xoşməramlı və əzmkar fəaliyyəti Ulu öndərimizin irsinə verilən dəyərli töhfə kimi qəbul edilir.

Tədbirdə əminliklə bildirilib ki, Ulu öndər Heydər Əliyevin ideyalarına, Onun müəyyən etdiyi siyasi kursa və strateji inkişaf konsepsiyasına daim sadiq olan prokurorluğun kollektivi bundan sonra da bütün səylərini dövlət müstəqilliyinin və milli maraqların, ölkəmizdə ictimai-siyasi sabitliyin hər cür cinayətkar qəsdlərdən qorunmasına səfərbər edəcək.

Mərasimin sonunda Ümummilli liderin xatirəsinə həsr olunmuş, Azərbaycan Televiziya və Radio Verilişləri Qapalı Səhmdar Cəmiyyəti tərəfindən hazırlanmış "Ömür. Tale. Epoxa" adlı sənədli film nümayiş etdirilib.

# YAP Qaradağ rayon təşkilatında Ulu öndər Heydər Əliyevin anım günü ilə əlaqədar tədbir keçirilib





Yeni Azərbaycan Partiyası (YAP) Qaradağ rayon təşkilatında Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin anım günü ilə əlaqədar tədbir keçirilib. Tədbirdə çıxış edən Milli Məclisin deputatı, YAP Qaradağ rayon təşkilatının sədri Aydın Hüseynov deyib ki, türk dünyasının böyük oğlu, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin adı xalqımızın yaddaşına əbədi həkk olunub. Azərbaycan xalqı hər zaman Ulu öndərin xatirəsini dərin hörmət və ehtiramla yad edir: **"Azərbaycanın yeni tarixinin bütöv bir mərhələsi bilavasitə dünya səviyyəli siyasətçi və dövlət başçısı, zəmanəmizin bənzərsiz şəxsiyyəti Heydər Əliyevin adı ilə bağlıdır. Ümummilli liderimizin adı özünü azərbaycanlı sayan hər bir kəsin qəlbində sadəliyi, səmimiyyəti, alicənablığı, vətənpərvərliyi və bütün digər yüksək insani keyfiyyətləri ilə unudulmaz izlər buraxıb. Bu dahi insanın adı Azərbaycan xalqının simvoluna, əməlləri isə şəxsi hünər rəmzinə çevrilib, həyat və fəaliyyəti doğma xalqına və torpağa məhəbbət və sədaqət meyarı olub. Ulu öndər Heydər Əliyevin sarsılmaz polad iradəsi və qətiyyəti, xalqın tərəqqisi yolunda yorulmaq bilmədən çalışması, fədakar əməyi sayəsində müasir Azərbaycanın bünövrəsi ucaldılıb. Bu qüdrətli şəxsiyyətin müəyyən etdiyi yol dinamik inkişafı təmin edən strateji xətt olaraq ölkəmizə və xalqımıza daim uğur gətirib. Zəngin hadisələrlə dolu gərgin dövrdə Heydər Əliyev Azərbaycan dövlətini və millətini zamanın ən çətin sınaqlarından məharətlə çıxararaq ölkəmizin ictimai-siyasi, iqtisadi və mədəni-mənəvi tərəqqisinə nail olub".**

Milli Məclisin deputatı daha sonra Ulu öndər Heydər Əliyevin əsasını qoyduğu dövlət gənclər siyasətinin bu gün ölkəmizdə Prezident İlham Əliyevin rəhbərliyi ilə uğurla davam etdirilməsi nəticəsində bu sahədə qazanılmış nailiyyətlərdən bəhs edib.

Tədbirdə çıxış edən YAP Qaradağ rayon təşkilatı Gənclər Birliyinin üzvləri - Rəfail Quliyev, Səbinə Hüseynli, Nübar Abaslı, Seyidməmməd Məmmədzadə, Coşqun Şalyarov, Könül Əhmədova və digərləri vurğulayıblar ki, Ulu öndər Heydər Əliyev Azərbaycan gənclərinin yaddaşında qurucu və xilaskar dövlət xadimi, milli lider və xalq məhəbbətini qazanan öndər kimi qalmışdır. Gənclər bildiriblər ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə bütün sahələrdə aparılan uğurlu islahatlar, əldə olunan nəticələr xalqın sabaha olan inamını qat-qat artırmış, Heydər Əliyev yolunun layiqincə davam etdirildiyinə, memarı olduğu müstəqil Azərbaycanın etibarlı əllərdə olduğuna möhkəm əminlik yaratmışdır. Ulu öndər Heydər Əliyev siyasətinin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsini aydın görən gənclərimiz bu siyasəti yüksək dəyərləndirir və Onun ətrafında daha sıx birləşirlər.

# ADPU-da Ümummilli lider Heydər Əliyevin anım mərasimi keçirilib





Dekabrın 10-da Azərbaycan Dövlət Pedaqoji Universitetinin (ADPU) 2 saylı tədris binasındakı Heydər Əliyev Mərkəzində Ulu öndər Heydər Əliyevin anım mərasimi keçirilib. Əvvəlcə universitetin rəhbərliyi, professor-müəllim heyəti və tələbə kollektivi Fəxri xiyabanda Ümummilli lider Heydər Əliyevin məzarını ziyarət edib, məzarı önünə əklil və gül dəstələri qoyublar. Görkəmli oftalmoloq alim, akademik Zərifə Əliyevanın da xatirəsi ehtiramla yad edilib, məzarı önünə gül dəstələri qoyulub.

Tədbirdə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib, Ulu öndər Heydər Əliyevin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Tədbirdə çıxış edən Heydər Əliyev Mərkəzinin baş mütəxəssisi Aytən Daşdəmirova bildirib ki, müasir Azərbaycanın qurucusu, Ulu öndər Heydər Əliyevin adı zəmanəmizin ən böyük siyasət və dövlət xadimlərinin, qüdrətli şəxsiyyətlərinin sırasında yer alıb. O qeyd edib ki, Ulu öndər Heydər Əliyev həyatı mübarizə və qələbələrdən keçən, Öz xalqının tarixi taleyində müstəsna rol oynayan dahi şəxsiyyətdir: **"Ulu öndər Heydər Əliyev xalqımızın qarşısında misilsiz xidmətlər göstərərək Ümummilli lider zirvəsinə yüksəlib".**

ADPU-nun rektoru, professor Cəfər Cəfərov çıxışında qeyd edib ki, qədirbilən xalqımız hər il Ulu öndərə vəfa borcunu layiqincə yerinə yetirir. O bildirib ki, Heydər Əliyev Azərbaycanı çətinlik girdabından xilas edib, müstəqil dövlətimizi qüraraq gücləndirib, inkişaf perspektivlərini müəyyən edib və beynəlxalq miqyasda layiqincə tanıdıb: **"Bugünkü müstəqil, qüdrətli, sürətlə inkişaf edən, regionun lider dövlətinə çevrilən Azərbaycan Ulu öndər Heydər Əliyevin şah əsəridir. Hazırda Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmiz həyatımızın bütün sahələrində böyük uğurlar qazanır".**

Rektor həmçinin, Ulu öndər Heydər Əliyevin müəyyənləşdirdiyi elm və təhsil siyasətinin uğurlarından da ətraflı bəhs edib.

Tədbirdə universitetin Tarix və coğrafiya fakültəsinin Türk və Şərqi Avropa xalqları tarixi və tarixin tədrisi metodikası kafedrasının baş müəllimi, tarix üzrə fəlsəfə doktoru Taleh Cəfərov "Heydər Əliyevin siyasi portretinin cizgiləri" mövzusunda məruzə ilə çıxış edib. Məruzəçi çıxışında Heydər Əliyevin liderlik xüsusiyyətlərindən, xalqına, millətinə, Vətəninə məhəbbətindən, elm və təhsilə xüsusi diqqət və qayğı göstərməsindən, yüksək intellektual səviyyəyə malik gənc nəslin yetişdirilməsi üçün həyata keçirdiyi gənclər siyasətindən ətraflı danışıb.

Tədbirdə həmçinin Nərimanov RİH başçısının müavini İradə Mahmudova, YAP-ın Nərimanov rayon təşkilatının sədri Təmraz Tağıyev, YAP-ın təsis konfransının iştirakçısı olmuş Südabə Qəhrəmanova çıxış edərək Ulu öndər Heydər Əliyevin xalqımız və dövlətimiz qarşısında göstərdiyi tarixi xidmətlərlə bağlı öz fikirlərini bölüşüblər. Ulu öndər Heydər Əliyev siyasətinin, zəngin dövlətçilik təcrübəsinin əhəmiyyətini diqqətə çatdıran natiqlər qeyd ediblər ki, Ümummilli liderin ideyaları bu gün də yaşayır və Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən əzmlə həyata keçirilir.

Sonda universitetin tələbələrinin təqdimatında Ulu öndər Heydər Əliyevin anım gününə həsr olunmuş ədəbi kompozisiya nümayiş etdirilib.

**Nardar BAYRAMLI**

# YAP Sumqayıt şəhər təşkilatında Ulu öndər Heydər Əliyevin anım gününə həsr olunmuş tədbir keçirilib



Yeni Azərbaycan Partiyası (YAP) Sumqayıt şəhər təşkilatında fəaliyyət göstərən Heydər Əliyev Məktəbi Ulu öndərin anım gününə həsr olunmuş növbəti toplantısını keçirib. Öncə Ümummilli lider Heydər Əliyevin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Tədbiri giriş sözü ilə açan YAP Sumqayıt şəhər təşkilatının sədri Ramiz Hüseynov Ulu öndər Heydər Əliyevin Azərbaycan dövləti və xalqı qarşısındakı böyük xidmətlərindən danışıb. R.Hüseynov Ulu öndərin dövlət quruculuğu, nizami ordunun yaradılması, milli kadr hazırlığı, Azərbaycan həqiqətlərinin dünyaya çatdırılması, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin ədalətli həll edilməsi, milli-mənəvi dəyərlərimizin təbliği və qorunması sahəsində həyata keçirdiyi qlobal miqyaslı tədbirlərin ölkəmizin beynəlxalq müstəvidə layiqli yer tutmasını təmin etdiyini deyib: **"Müstəqil Azərbaycanın memarı olan Ulu öndər Heydər Əliyevin əsasını qoyduğu siyasət bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Azərbaycanda son 15 ildə əldə edilən dinamik inkişaf xalqımız tərəfindən müstəqil Azərbaycan dövlətinin qurucusu və memarı, Ümummilli liderimiz Heydər Əliyevin uzaqgörən və müdrik strategiyasından qaynaqlanan, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən bacarıq və qətiyyətlə, yeni tarixi şəraitə uyğun yaradıcılıqla həyata keçirilən daxili və xarici siyasətin nəticəsi kimi minnətdarlıqla dəyərləndirilir".**

Tədbirdə YAP Sumqayıt şəhər təşkilatının Şura üzvü, Sumqayıt şəhər 27 saylı məktəbin direktoru Valid Mustafayev "Azərbaycan dövlətçiliyinin xilaskarı - Heydər Əliyev", Sumqayıt şəhər Təhsil şöbəsi, Metodiki kabinetin direktor əvəzi Gülbahar Haqverdiyeva "Heydər Əliyevin Azərbaycan təhsilinin inkişafında xidmətləri", YAP Sumqayıt şəhər təşkilatının Şura üzvü, Uşaq Xəstəxanasının baş həkimi Müşfiq Məmmədli "Azərbaycan səhiyyəsinin uğurları Ümummilli lider Heydər Əliyevin uzaqgörən siyasətinin nəticəsidir", Heydər Əliyev Mərkəzi ərazi ilk təşkilatının sədri Elmira İbadova "Heydər Əliyev və Azərbaycan gəncliyi" mövzularında məruzə ilə çıxış ediblər. Tədbir müzakirələrlə davam etdirilib.

# YAP Ağstafa rayon təşkilatında Ulu öndər Heydər Əliyevin anım günü ilə əlaqədar tədbir keçirilib



Yeni Azərbaycan Partiyası (YAP) Ağstafa rayon təşkilatı və rayon Gənclər və İdman İdarəsi Ümummilli lider Heydər Əliyevin anım günü ilə əlaqədar "Heydər Əliyev daima Azərbaycan xalqının qəlbindədir" mövzusunda tədbir keçirib.

Əvvəlcə tədbirdə Ulu öndər Heydər Əliyevin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Tədbirdə Ağstafa rayon İcra Hakimiyyətinin ictimai-siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini Əziz Məsmalıyev çıxış edərək bildirib ki, Ulu öndər Heydər Əliyev istər Sovetlər İttifaqı dönəmində, istərsə də müstəqillik illərində həyat və fəaliyyətini Azərbaycan xalqına və dövlətinə həsr edib. O, Azərbaycanın məhz Heydər Əliyev siyasəti nəticəsində nailiyyətlər qazandığını və bu siyasətin alternativinin olmadığını vurğulayıb.

Sonra anım tədbirində YAP Ağstafa rayon təşkilatı İdarə Heyətinin üzvü Kamran Abbasov, "Ağstafa" qəzetinin baş redaktoru İbrahim Əliyev, Ağstafa regional Mədəniyyət idarəsinin rəis müavini Gülgün Kərimov, Ağstafa rayon Gənclər və İdman İdarəsinin baş məsləhətçisi Turan Hüseynov və rayon Ağsaqqallar Şurasının sədri Firdovsi Heydərli çıxış edərək Ulu öndər Heydər Əliyevin fəaliyyətinin müstəqil Azərbaycanın dayanıqlı inkişafının təmin edilməsində və müstəqilliyinin qorunub saxlanılmasında bir bünövrə olduğunu qeyd ediblər. Çıxışlarda bildirilib ki, bu gün Prezident İlham Əliyev Ulu öndər Heydər Əliyevin ideyalarını uğurla həyata keçirir.

# BSU-da "Müasir cəmiyyət: beynəlxalq münasibətlər, gələcək naminə dialoq" mövzusunda müzakirələr aparılıb



Dekabrın 10-da Bakı Slavyan Universitetinin (BSU) təşkilatçılığı ilə bu ali məktəbdə "Müasir cəmiyyət: beynəlxalq münasibətlər, gələcək naminə dialoq" mövzusunda "dəyirmi masa" keçirilib.

Tədbirdə Yunanıstan, Avstriya, Bolqarıstan, Belarus və Ukraynanın ölkəmizdəki səfirləri, Rusiya və Polşanın Azərbaycandakı səfirliyinin müşavirləri, bir çox rəsmi dövlət strukturlarının rəhbərləri, universitetin tələbə və müəllimləri iştirak ediblər.

Əvvəlcə Ümummilli lider Heydər Əliyevin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Yunanıstanın ölkəmizdəki səfiri Nikolaos Kanellosun moderatorluq etdiyi tədbirdə BSU-nun rektoru, professor Nurlana Əliyeva Ümummilli lider Heydər Əliyevin təhsilə daim xüsusi önəm verdiyini, dahi rəhbərin ideyalarının Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən qətiyyətlə həyata keçirildiyini bildirib. N.Əliyeva BSU-nun slavyan ölkələri, o cümlədən Yunanıstan və Türkiyə ilə sıx əlaqələrindən danışıb. O, universitetin inkişaf yolu barədə məlumat verərək, bu ali təhsil ocağının Ulu öndər Heydər Əliyevin xeyir-duası və təşəbbüsü ilə yaradıldığını vurğulayıb.

N.Əliyeva hər bir ölkənin və cəmiyyətinin tərəqqisinin təhsilin səviyyəsi ilə bağlı olduğunu bildirib və bugünkü Azərbaycan gəncliyinin beynəlxalq aləmə inteqrasiya olunmasından, beynəlxalq layihələr vasitəsilə onların müasir dünyaya çıxış imkanı əldə etməsindən danışıb.

Rektor BSU-da fəaliyyət göstərən tədris-mədəniyyət mərkəzləri vasitəsilə tələbələrin slavyan ölkələrinin mədəniyyəti, tarixi, etnoqrafiyası, siyasi-iqtisadi vəziyyəti ilə yaxından tanış olduqlarını deyib.

Azərbaycanın multikultural ölkə olduğunu, multikulturalizm siyasətinin dövlət tərəfindən hərtərəfli dəstəkləndiyini və bu ideyanın bütün ali məktəblərdə gənclərə aşılandığını bildirən N.Əliyeva ölkə başçısının "Multikulturalizm Azərbaycanda həyat tərzidir!" fikrinin tədrisin bütün mərhələlərində özünü doğrultduğunu qeyd edib.

Vurğulanıb ki, Azərbaycandakı xarici ölkə səfirlərini maraqlandıran əsas məsələlərdən biri də təhsil sahəsinin inkişafıdır. N.Əliyeva çıxışında səfirlik rəhbərlərini və nümayəndələrini universiteti müvafiq ixtisas üzrə bitirən gənclərimizin işlə təmin edilmələrinə dəstək olmağa çağırıb.

Sonra təhsil və müasir dünya, təhsilin problemləri, beynəlxalq layihələr və s. mövzularda müzakirələr aparan diplomatlar təhsil sahəsində beynəlxalq əməkdaşlığın vacibliyini bildirib və bu sahəyə öz töhfələrini verməyə hazır olduqlarını qeyd ediblər.

N.Kanellos beynəlxalq konfransa ev sahibliyi etdiyinə və yüksək təşkilatçılığa görə BSU-nun rəhbərliyinə minnətdarlığını bildirib. Səfir konfransın aktual məsələyə həsr olunduğunu diqqətə çatdıraraq, "dəyirmi masa"nın Azərbaycanın digər ölkələrlə humanitar istiqamətdə münasibətlərinə yeni töhfələr verəcəyinə əmin olduğunu deyib.

Sonra diplomatlarla gənclər arasında təhsilin müxtəlif problemləri ilə bağlı fikir mübadiləsi aparılıb.

# Ermənistan xalqı Serj Sarkisyan və Robert Koçaryanın cinayətkar xunta rejimini tarixin zibilliyinə atdı

*Küçələrə axışan kütlənin təzyiqi ilə oxlokratik rejim qurmuş Paşinyan isə öz hakimiyyətinə legitimlik qazandıra bilmədi*

Ermənistanda dekabrın 9-da növbədənkənar parlament seçkiləri keçirildi. Seçkilərin nəticələri və prosesin gedişatı bir çox məqamlara yenidən aydınlıq gətirmiş oldu. İlk növbədə qeyd edək ki, Ermənistan xalqı Serj Sarkisyan və Robert Koçaryanın cinayətkar xunta rejimini tarixin zibilliyinə atdı. İkinci məqam isə ondan ibarətdir ki, Nikol Paşinyan öz hakimiyyətinə seçkini saxtalaşdırmaqla başladı. Seçkilər erməni xalqının idarəedici elitanın həm müxalif, həm də iqtidar kəsiminə etibar etmədiyini göstərdi. Elə bunun göstəricisidir ki, seçici fəallığı həmişə olduğundan daha aşağı idi. Küçələrə axışan kütlənin təzyiqi ilə oxlokratik rejim qurmuş Paşinyan öz hakimiyyətinə legitimlik qazandıra bilmədi. Hətta ciddi saxtalaşdırmalardan, inzibati resurslardan sui-istifadədən sonra da açıqlanan rəsmi rəqəmlərə görə, seçkiyə qatılanların 60-70 faizi, yəni erməni seçicilərinin ümumi hissəsinin yalnız 30-35 faizi Paşinyan komandasına səs verib, bundan daha artıq saxtalaşdırmalar etmək mümkün olmayıb. Digər tərəfdən, ekspertlərin də vurğuladıqları kimi, seçkinin nəticəsi olaraq Ermənistanda qeyri-legitim və anti-Rusiya mövqeli bir hakimiyyət formalaşır. Soros Fondu isə Paşinyanın komandasının zəif seçki nəticələri göstərməsinin nümunəsində postsovet məkanında növbəti dəfə məğlubiyyətə uğradı. İndi onun layihələri kütlələr üçün maraqlı və cəlbedici deyil.



**<u>*Elman Məmmədov:*</u>** *Bəzi beynəlxalq qurumların Paşinyan komandasının hakimiyyəti küçə mübarizəsi metodları ilə qəsb etməsinə, legitim hakimiyyət qura bilməməsinə göz yummaları qəbuledilməzdir*

Məsələyə münasibət bildirən Milli Məclisin deputatı Elman Məmmədov qeyd edib ki, Ermənistanda keçirilən növbədənkənar seçkilər, hər şeydən əvvəl, kütləvi saxtakarlıqla yadda qaldı. Onun sözlərinə görə, Serj Sarkisyan və Robert Koçaryanın cinayətkar xunta rejiminin tarixin arxivinə yollanması ilə yanaşı, Paşinyanın da seçkini saxtalaşdıraraq qeyri-legitim hakimiyyət formalaşdırması seçkinin başlıca nəticələridir: **"Ermənistanda vətəndaşlar nə iqtidara, nə də müxalifətə etimad göstərmirlər. Bu reallıq növbədənkənar parlament seçkiləri zamanı öz təsdiqini bir daha tapdı".**

**"Seçkilərdə Sarkisyan rejiminin tərəfdarları seçki baryerini belə aşa bilmirlər. Bu, vaxtilə Serj Sarkisyan hakimiyyətinin də qeyri-legitim olduğunu, Sarkisyanın seçkiləri saxtalaşdırmaq yolu ilə hakimiyyətə gəldiyini bir daha göstərir, eyni zamanda, müxtəlif beynəlxalq təşkilatların ikili standartlar siyasətini ifşa etmiş olur. Belə ki, AŞPA, ATƏT PA kimi qurumlarda təmsil olunan azərbaycanlı deputatlar dəfələrlə bu barədə məsələ qaldırmışdılar, lakin həmin qurumlar Serj Sarkisyan hakimiyyətinin qeyri-legitim olduğunu qəbul etmirdilər. Görünən odur ki, eyni mexanizmlər hələ də qalır. Bu səbəbdən həmin beynəlxalq qurumlar Paşinyan komandasının hakimiyyəti küçə mübarizəsi metodları ilə qəsb etməsinə, legitim hakimiyyət qura bilməməsinə göz yumurlar. Bu isə qəbuledilməzdir",** - deyə E.Məmmədov əlavə edib.

Milli Məclisin deputatı Rauf Əliyev



**<u>*Rauf Əliyev:*</u>** *Seçici fəallığının həmişə olduğundan daha aşağı olması erməni xalqının idarəedici elitanın nə müxalif, nə də iqtidar kəsiminə etibar etmədiyini bir daha göstərdi*

isə deyib ki, Ermənistanda keçirilən növbədənkənar parlament seçkiləri növbəti dəfə bu ölkədə seçkilərin kütləvi şəkildə saxtalaşdırıldığını göstərdi: **"Serj Sarkisyan da hakimiyyətə seçkilərdə kütləvi saxtakarlıq etməklə gəlmişdi. Hələ o zaman seçkiləri müşahidə edən müxtəlif institutlar, o cümlədən ayrı-ayrı beynəlxalq təşkilatlar seçkilərin saxtalaşdırıldığını, Serj Sarkisyan hakimiyyətinin qeyri-legitim olduğunu qəbul etməmişdilər. Əlbəttə, bu, həmin qurumların ikili standartlarla, bir çox hallarda isə xristian təəssübkeşliyindən çıxış etməsinin göstəricisi idi. Eyni zamanda, bu, sözügedən təsisatların erməni lobbisindən çirkli maliyyə almasının, Sarkisyan rejiminin yürütdüyü "konyak diplomatiyası" vasitəsilə müşahidə missiyalarının, Qərb təsisatlarının ələ alınmasının nəticəsi idi".**

Millət vəkili əlavə edib ki, seçici fəallığının həmişə olduğundan daha aşağı olması erməni xalqının idarəedici elitanın nə müxalif, nə də iqtidar kəsiminə etibar etmədiyini bir daha göstərdi. **"Seçkilərin nəticəsində Ermənistanda qeyri-legitim hakimiyyət formalaşır",** - deyə R.Əliyev vurğulayıb.

**Nurlan QƏLƏNDƏRLİ**

# Astarada akademik Sudeyif İmamverdiyevin 80 illik yubileyi qeyd olunub

Dekabrın 7-də Astara Rayon Mədəniyyət Mərkəzində Əməkdar elm xadimi, AMEA-nın müxbir üzvü, Azərbaycan Tibb Universitetinin urologiya kafedrasının müdiri, Respublika Ağsaqqallar Şurasının sədr müavini, Yeni Azərbaycan Partiyası (YAP) Siyasi Şurasının üzvü, "Şöhrət" və "Şərəf" ordenli Sudeyif İmamverdiyevin 80 illik yubileyi təntənəli şəkildə qeyd olunub.








Tədbir iştirakçıları əvvəlcə görkəmli alimin həyat və fəaliyyətinə həsr olunmuş sənədli filmə baxıblar.

Tədbirin aparıcısı, rayon İcra Hakimiyyətinin ictimai-siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini Mərasim Hacızadə yubilyarın ömür yolu barədə məlumat verib. Qeyd olunub ki, 1938-ci il iyulun 2-də Astara şəhərində ziyalı ailəsində anadan olan Sudeyif İmamverdiyevin elmi-pedaqoji fəaliyyəti çoxsahəli və əhatəlidir. O, Azərbaycanda urologiyanın və andrologiyanın aktual istiqamətlərinin inkişafında önəmli nailiyyətlər qazanıb.

Diqqətə çatdırılıb ki, S.İmamverdiyev ölkəmizin dar günündə, yenicə bərpa olunmuş müstəqilliyimizi itirmək təhlükəsi ilə üzləşdiyimiz bir dövrdə Ulu öndər Heydər Əliyevə siyasi partiya yaradılması ilə əlaqədar müraciət edən məşhur "91-lər"dən biridir. Yaradılan gündən YAP Siyasi Şurasının üzvü olan tanınmış ziyalı bu gün də ölkənin ictimai-siyasi həyatında fəal iştirak edir.

Yubiley mərasimində çıxış edən Astara rayon İcra Hakimiyyətinin başçısı Qəzənfər Ağayev, Azərbaycan Tibb Universitetinin urologiya kafedrasının dosenti, tibb elmləri doktoru Rauf Nağıyev, YAP Siyasi Şurasının üzvü, "İki sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadə, hüquq elmləri doktoru, professor, Azərbaycan Milli Aviasiya Akademiyasının hüquq kafedrasının müdiri, Əməkdar müəllim İbrahim Quliyev, Astara Rayon Ağsaqqallar Şurasının sədri Hamlet Əliyev Sudeyif İmamverdiyevi 80 illik yubileyi münasibətilə təbrik edərək, ona ən xoş arzularını çatdırıblar.

Akademik Sudeyif İmamverdiyev ona göstərilən diqqət və qayğıya, əməyinə verilən yüksək qiymətə görə dövlətimizin başçısına və tədbirin təşkilatçılarına minnətdarlığını bildirib.

Yubiley mərasimində Astara rayon Mədəniyyət Mərkəzinin "Sevinc" xalq instrumental ansamblı və Kakalos kənd folklor evinin "Əvəsor" folklor kollektivi konsert proqramı ilə çıxış ediblər.

# Dağlıq Qarabağ münaqişəsi zamanı ermənilərin xalqımıza qarşı törətdiyi cinayətlərlə bağlı müzakirələr aparılıb





Dekabrın 10-da Azərbaycan İlahiyyat İnstitutu (AİI) Azərbaycan Respublikası Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyası ilə birgə Dağlıq Qarabağ münaqişəsi zamanı ermənilərin Azərbaycan xalqına və onun maddi-mədəniyyət abidələrinə qarşı cinayət əməllərinə həsr olunan konfrans keçirib.

AZƏRTAC xəbər verir ki, 10 dekabr - Ümumdünya İnsan Hüquqları Günü münasibətilə keçirilən konfransda iştirakçılar əvvəlcə Dövlət Komissiyasının hazırladığı və nəşr etdirdiyi, Ermənistan hərbçiləri və terrorçu-quldur dəstələri tərəfindən Azərbaycan xalqına qarşı törədilmiş cinayət əməllərini əks etdirən fotostend və əyani vəsaitlərlə tanış olublar.

Tədbirin keçirilməsində məqsəd Ermənistan hərbçiləri və terrorçu-quldur dəstələri tərəfindən xalqımıza qarşı törədilmiş cinayət əməlləri, o cümlədən əsir və girovlara münasibətdə beynəlxalq humanitar hüquq normalarının pozulması faktları barədə tələbəgənclərin məlumatlandırılması, onlarda vətənpərvərlik ruhunun gücləndirilməsi, eləcə də səmavi dinlərdə silahlı münaqişələrə, xüsusən də müharibə qurbanlarına münasibətlə bağlı müzakirə aparmaqdır.

AİI-nin rektoru, ilahiyyat üzrə fəlsəfə doktoru Ceyhun Məmmədov konfransda bildirib ki, Ermənistanın işğal olunmuş Azərbaycan ərazilərində xalqımıza məxsus maddi-mədəni irsi məhv etməsi yalnız ölkəmizə qarşı yönəlməyib. Bu, ümumbəşəri sivilizasiyaya qarşı törədilən vəhşilik, vandalizm aktıdır. O deyib ki, işğal edilmiş Azərbaycan ərazilərində erməni vandalları tərəfindən çoxsaylı məscid, muzey, maddi-mədəniyyət nümunəsi yerlə-yeksan olunub. C.Məmmədov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Azərbaycan Respublikasının Birinci vitse-prezidenti xanım Mehriban Əliyevanın Xocalı soyqırımı, bütövlükdə Qarabağ müharibəsi zamanı xalqımızın başına gətirilən müsibətlər barədə həqiqətləri ən yüksək tribunadan dünya ictimaiyyətinin diqqətinə çatdırdıqlarını vurğulayıb.

Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının İşçi qrupu rəhbərinin müavini Eldar Səmədov məruzəsində Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi zamanı Ermənistan hərbçiləri və terrorçu-quldur dəstələri tərəfindən xalqımıza qarşı törədilmiş cinayət əməlləri, əsir və girovlara münasibətdə beynəlxalq humanitar hüquq normalarının pozulması faktları barədə məlumat verib.

Eldar Səmədov diqqətə çatdırıb ki, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi dövründə 1483 nəfər erməni əsir və girovluğundan azad edilib. Hazırda Beynəlxalq Qızıl Xaç Komitəsinin rəsmi qeydiyyatında olan üç azərbaycanlı qarşı tərəfdə girovluqda saxlanılır. Eyni zamanda, Azərbaycan tərəfində erməni mənşəli üç şəxs saxlanılır. Azərbaycan hazırda işğal edilmiş Dağlıq Qarabağda saxlanılan Dilqəm Əsgərov, Şahbaz Quliyev və Elnur Hüseynzadənin azad olunması üçün zəruri tədbirləri davam etdirir. Onların azad edilməsi Prezident İlham Əliyevin daim diqqət mərkəzindədir.

İşçi qrupu rəhbərinin müavini qeyd edib ki, dekabrın 6-da Sankt-Peterburqda MDB dövlət başçılarının qeyri-rəsmi zirvə görüşündə Prezident İlham Əliyevin Ermənistanın Baş naziri vəzifəsini icra edən Nikol Paşinyan ilə söhbəti zamanı Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli üzrə fəal danışıqların davam etdirilməsi və atəşkəs rejiminin möhkəmləndirilməsi ətrafında müzakirələr aparılıb. Söhbət zamanı, həmçinin Ermənistan və Azərbaycan arasında saxlanılan şəxslərin qarşılıqlı şəkildə dəyişdirilməsi məsələsi də müzakirə olunub. Prezident İlham Əliyev Azərbaycanın bu məsələdə mövqeyini vurğulayaraq bildirib ki, dəyişdirmə "hamının hamıya" prinsipi əsasında tam həyata keçirilməli, Dilqəm Əsgərov və Şahbaz Quliyev azad edilənlərin arasında olmalıdır. Humanist xarakter daşıyan belə addımlar danışıqlar prosesinə müsbət təsir göstərə bilər. ATƏT-in Minsk qrupunun həmsədrləri də bu mövqeyi dəstəkləyir. Ona görə də Ermənistan tərəfi bunu nəzərə almalıdır.

**"İndiki mərhələdə ən vacib məsələ Beynəlxalq Qızıl Xaç Komitəsi ilə imzalanmış çərçivə sazişinə əsasən, itkin düşmüş şəxslərin yaxın qohumlarından DNT nümunələrinin toplanması və saxlanılmasıdır. Nümunələrin saxlanılması üçün Dövlət Təhlükəsizliyi Xidmətinin hospitalında xüsusi yer ayrılıb. Prosesin başlandığı 2014-cü ildən ötən müddətdə 1943 itkinlə bağlı 5889 nümunə toplanıb",** - deyə E.Səmədov bildirib.

Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin dinşünaslıq ekspertizası şöbəsinin müdiri Nahid Məmmədov "İşğal altındakı tarixi-dini abidələrimiz" mövzusunda məruzəsində ermənilərin azərbaycanlılara qarşı törətdikləri cinayətlərdən danışıb. O, bu cinayətlərin dünya ictimaiyyətinin diqqətinə daha geniş çatdırılmasının vacibliyini vurğulayaraq, bu yöndə görülən işlərdən bəhs edib.

Yazıçı-publisist, müstəqil jurnalist Səriyyə Cəfərova "Xocalı soyqırımı zamanı əsir və itkin düşmüş şəxslərin taleyi" mövzusunda məruzə ilə çıxış edib. O, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi nəticəsində əsir və girov götürülmüş şəxslərin azad edilməsi, itkinlərin axtarışı və sonrakı taleyinin müəyyənləşdirilməsi sahəsində görülən işlər barədə məlumat verib.

Sonra məruzələr ətrafında çıxışlar dinlənilib, tələbələrin sualları cavablandırılıb.

Sonda Dövlət Komissiyasının materialları əsasında çəkilmiş "Sərhəd" sənədli filmi nümayiş olunub.

# Ermənistanda seçkilər kütləvi şəkildə saxtalaşdırıldı

*Paşinyan qardaşı oğluna, qaynına, dostuna, həkiminə və bərbərinə mandat verdi*



Ermənistanda keçirilən növbədənkənar parlament seçkilərinin ilkin nəticələri elan olunsa da, səsvermənin total təzyiq, saxtakarlıq şəraitində keçdiyi ortaya çıxıb. Seçicilərə təzyiq göstərilməsi fonunda keçirilən seçkilərin qanun pozuntuları və saxtakarlıqlarla müşayiət olunması bu səsvermənin nəticələrinin legitimliyini şübhə altına alır. Rusiya, xarici və yerli erməni mediasının yaydığı məlumata görə, seçkilər zamanı çoxsaylı qanun pozuntusu olub.

Xatırladaq ki, seçkilərdə 11 siyasi partiya və blok iştirak etsə də, rəsmi məlumata görə, 132 nəfərlik parlamentdə N.Paşinyanın namizəd siyahısına başçılıq etdiyi "Mənim addımım" bloku (70,43%, 88 yer), oliqarx Qagik Çarukyanın rəhbəri olduğu "Çiçəklənən Ermənistan" (8,27%, 26 yer) və Edmon Marukyanın rəhbərlik etdiyi "İşıqlı Ermənistan" (6,37%, 18 yer) partiyaları təmsil olunmaq hüququ qazanıblar.

Əvvəlcə onu qeyd edək ki, seçkiqabağı vəziyyəti izləyən ekspertlər siyasi partiyaların seçkilərə hazır olmadığını söyləyiblər. Bunu seçici aktivliyinin aşağı olması da sübut edib. Seçki komissiyasının sədri Tiqran Mukuçyan rəsmi olaraq məlumat verib ki, seçkilərdə səsvermə hüququ olan 2 592 479 nəfərdən yalnız 1 260 840 nəfər (48,63 faiz) iştirak edib. Onun sözlərinə görə, seçicilərin əksəriyyəti ümumdövlət səsverməsinə etinasız yanaşıblar. N.Paşinyanın nümayəndələri seçici aktivliyinin aşağı olmasını demokratiyanın göstəricisi kimi qələmə versə də, əslində bunlar subyektiv səbəbdir. Əsl obyektiv səbələrə gəlincə, eks-prezident Serj Sarkisyanın seçki fokusları nəticəsində seçici sayı süni artırılmışdı, bunun üçün xaricə köçənləri, orada yaşayanları seçici kimi siyahıda saxlayırdılar. Ermənistanın əhalisi 2018-ci ilin iyul ayının 1-ə (yəni, yeni hökumətin hesablamalarına görə) 2 milyon 969 min 800 nəfərdir. Ermənistan Mərkəzi Seçki Komissiyasının məlumatına görə ölkədə, güya 2 milyon 592 min 481 nəfər seçici var. Adi məntiqə görə, 2,9 milyon əhalisi olan ölkədə 2,6 milyon seçici, yaşı 18-dən aşağı cəmi 300 min nəfər ola bilməz. Deməli, N.Paşinyan seçkilərə düşünülmüş şəkildə S.Sarkisyan dövrünün saxta siyahıları ilə gedib. 100 minlərlə "seçici" şişirtməsi var. Seçki bu şişirtmə (pripiska ) sayəsində qazanılıb.

Yeri gəlmişkən, Ermənistan Helsinki Komitəsinin sədri, hüquq müdafiəçisi Avetik İşxanyan seçici aktivliyinin aşağı olmasını insanların seçkilərin saxtaşdırılacağına inanmaları ilə əlaqələndirib: "Seçicilərin bir çoxu seçkilərin nəticələrinin əvvəldən həll olunduğunu fikirləşərək səsvermədə iştirak etməyi lüzumsuz hesab ediblər". Psixoloq Xaçatur Qasparyan isə bildirib ki, Ermənistanda seçki kampaniyasında "qorxu tələləri" yaratmaqla ictimai fikri manipulyasiya mexanizmlərindən istifadə olunub.

Yuxarıda göstərilən reallıqdan öz xeyrinə istifadə edən N.Paşinyan hakimiyyəti çoxsaylı qanun pozuntularına və saxtakarlığa yol verib. Bu pozuntuları gizli şəkildə aparmağa çalışsalar da, N.Paşinyanın özü kimi təcrübəsiz əlaltılarının saxtakarlıqları ortaya çıxıb. "Çiçəklənən Ermənistan" Partiyasınınn namizədi Naira Zöhrabyan bildirib ki, Sünik vilayətinin qubernatoru Unan Poqosyan bütün şəhər merlərinə və icma rəhbərlərinə vətəndaşları "Mənim addımım" blokuna səs verməyə çağırmalarını tapşırıb. N.Zöhrabyan deyib ki, blokdan vətəndaşlara pul təklif olunması barədə məlumatlar da var. "Məlumatlı vətəndaşlar ittifaqı" qeyri-hökumət təşkilatının rəhbəri Daniel İohanesyan isə bildirib ki, bəzi regionlarda seçki məntəqələrində gərgin vəziyyət yaranıb, gizli səsvermə prinsipi pozulub. Digər qanun pozuntusu isə Lori vilayətində baş verib. Helsinki Vətəndaş Assambleyasının Vanadzor ofisinin rəhbəri Artur Sakunts seçkinin gedişi zamanı vilayətin Spitak şəhərində elektrik enerjisinin kəsilməsi barədə məlumat verib: **"Hazırda mən Spitakdayam, şəhərin işıqları sönüb. Seçki məntəqələrində xaos hökm sürür".**

Respublikaçıların deputatlığa namizədi Arpine Ovannisyan da çoxsaylı qanun pozuntularıdan bəhs edib. Onun sözlərinə görə "Mənim addımım" blokunun nümayəndələri seçiciləri yönləndirməyə çalışıblar: **"Hətta bəzi komissiya üzvləri "Mənim addımım" blokunun bülletenini digərlərinin üstünə qoyaraq seçicilərə verib".** Respublikaçı namizəd Vaqram Baqdasaryan bildirib ki, Vanadzorda da bir sıra seçki məntəqələrində qanun pozuntuları qeydə alınıb. Partiyanın digər namizədi David Şahnazaryan budəfəki seçkini Ermənistan tarixində "ən biabırçı seçki" adlandırıb, onun sözlərinə görə, təşviqat-təbliğat kampaniyası zamanı hədələr səslənib, zorakılıq halları qeydə alınıb.

Polis orqanlarına, ombudsmana və Xüsusi İstintaq Komitəsinə həmin qanun pozuntularına görə çoxsaylı şikayətlər daxil olub. Polis orqanlarına gün ərzində 80-dən çox, Xüsusi İstintaq Komitəsinə 12, Baş prokurorluqda yaradılmış işçi qrupuna 64, Ombudsmanın "qaynar xətt"inə 37 vətəndaş müraciət edib.

Seçkilərin təzyiq və təhdid fonunda keçirildiyini deyən respublikaçıların namizədi Eduard Şarmazanov Paşinyanın "Gestapo" rejiminin total təzyiqləri şəraitində 60 min vətəndaşın partiyaya səs verməsini də uğur hesab edib. E.Şarmazanov Paşinyana xatırladıb ki, bu 60 min vətəndaş bir il ərzində 600 min olacaq və partiya parlamentdənkənar müxalifət kimi mübarizəni başqa müstəvidə davam etdirməyə məcbur qalacaq. Bu açıqlama Ermənistanda bundan sonra siyasi mübarizənin küçə müstəvisində gedəcəyinə də bir işarədir. Alınan son məlumatlara görə, cinayətkar Robert Koçaryanın həbsini bəhanə edən bəzi qüvvələr artıq dekabrın 11-dən hakimiyyətə qarşı etiraz aksiyası keçirmək niyyətindədir.

Xatırladaq ki, N.Paşinyanın saxtakarlığı yuxarıda qeyd olunanlarla bitməyib. Onun qardaşı oğlu Sipan Paşinyan guya 17155, qaynı Qraç Hakopyan isə 8920 səs toplayaraq Tavuş vilayətindən deputat mandatı əldə ediblər. Bu azmış kimi, N.Paşinyanın dostu, həkimi və bərbəri də parlamentə üzv seçiliblər. Cinayət törətməsinə görə haqqında məhkəmə prosesi davam edən iki nəfər də yeni parlamentə üzv seçilib. Bu faktın özü isə həm saxtakarlığın, həm də seçkilərin qeyri-demokratik keçirilməsinin daha bir sübutudur.

Beləliklə, beynəlxalq təşkilatların seyrçi qaldığı seçki saxtakarlığı Ermənistanda N.Paşinyanın bərqərar etdiyi oxlokratiyanın qələbəsini labüdləşdirdi. N.Paşinyan "küçə demokratiyası" adı altında ondan fərqli fikirləşənlərə hədə-qorxu gələrək, eyni zamanda ictimai fikri manipulyasiya mexanizmlərindən istifadə edərək "əldə etdiyi nəticə" ilə diktatura qurmaq istəyini rəsmiləşdirir.

**Qaşqay ZİYƏDDİNOĞLU**

YENİ AZƏRBAYCAN
http://www.yeniazerbaycan.com
Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

**Məqalə KİVDF-nin maliyyə dəstəyi ilə “Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi” istiqaməti üzrə həyata keçirilən layihə çərçivəsində hazırlanmışdır**

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

# Bölgələrdə 2019-cu ilin məhsulu üçün payızlıq taxıl səpini yekunlaşmaq üzrədir

*Bu il əldə olunan nəticələr gələn il üçün də müsbət proqnozlar vəd edir*



Ölkəmizdə ərzaq təminatının daxili istehsal hesabına təmin olunması istiqamətində uğurlu tədbirlər həyata keçirilir. Vurğulamaq lazımdır ki, ölkəmizdə qəbul olunan müvafiq Dövlət proqramları, respublikanın ərzaq təhlükəsizliyinin təmini ilə bağlı qəbul olunan qanunlar kənd təsərrüfatı məhsullarının ixracının artırılması, aqrar sahədə istehsalçıların və istehlakçıların maraqlarının qorunması, ərzaq bazarının səmərəli fəaliyyətinin təşkil edilməsi üçün mühüm önəmə malikdir.

Etibarlı ərzaq təminatına nail olunmasında isə taxılçılıq strateji əhəmiyyət daşıyır. Bu gün qabaqcıl təcrübənin, intensiv metodların tətbiqi taxılçılıqda istehsalın genişlənməsinə müsbət təsir göstərən vacib amillərdən sayılır. İntensiv metodlardan istifadə edərək məhsuldarlığı artırmaqla, eləcə də əkin sahələrinin genişləndirilməsi ilə ölkədə taxıl istehsalı əhəmiyyətli dərəcədə yüksəlir. Eləcə də respublikamızın regionlarında taxılçılıq sahəsində dünya miqyasında təsdiqini tapan qabaqcıl təcrübənin tətbiqi, o cümlədən də iri fermer təsərrüfatlarının yaradılması uğurla həyata keçirilir. Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq Dövlət Torpaq Fondunun hesabına yaradılan iri fermer təsərrüfatlarının fəaliyyətə başlaması ilə ölkəmizdə, əslində, yeni bir kənd təsərrüfatı sisteminin formalaşdığını söyləmək mümkündür. İri fermer təsərrüfatlarının yaradılması respublikamızda kənd təsərrüfatı məhsullarının - ən əsası isə, taxılçılığın istehsalının artırılmasını stimullaşdırır.

Yeri gəlmişkən, bölgələrimizdə payız səpini davam etməkdədir. Zaqatala rayonunun təsərrüfatlarında 2019-cu ilin məhsulu üçün payızlıq taxıl səpini yekunlaşmaq üzrədir. Fermerlər indiyədək 7 min 553 hektarı buğda, 3 min 341 hektarı arpa olmaqla, 10 min 894 hektar sahəyə toxum səpiblər. Rayonda gələn ilin məhsulu üçün 11 min hektara yaxın sahədə payızlıq dənlilərin səpini nəzərdə tutulur. Zaqatalalı fermerlər builki mövsümdə 10 min 933 hektar taxıl sahəsindən 35 min 610 ton məhsul əldə ediblər.

Ucar rayonunda isə 15 min 146 hektarda payızlıq taxıl əkilib və əksər ərazi icra nümayəndəliklərində bu mühüm kampaniya başa çatıb. Əkilən 7756 hektar arpa və 7390 hektar buğda sahələrinin 80-90 faizində normal çıxış alınıb.

Payızlıq taxıl səpini kampaniyasını davam etdirən Ağdaş taxılçıları isə indiyədək 11380 hektarda əkin aparıblar. Əkin aparılan sahələrin 3150 hektarı buğda, 8230 hektarı isə arpadır. Rayonun əksər ərazilərində, xüsusilə daha çox taxıl əkilən Gürcüva, Yuxarı Nemətabad, Cardam, Mürsəl, Ərəbocağı, Qolqəti yaşayış məntəqələrinin ərazilərində bu mühüm kampaniya daha mütəşəkkil davam edir. İndiyədək aparılan əkinlərin 80-90 faizində normal çıxış alınıb.

Qeyd edək ki, cari payızda rayon üzrə 15 min hektarda taxıl əkiləcəyi gözlənilir. Artıq 14100 hektarda şum çıxarılıb. Son günlər yağıntılı hava şəraiti taxıl səpinində çətinliklər yaratsa da, fermerlər və fiziki şəxslər bütün qüvvələri səfərbər edərək kampaniyanı uğurla başa vurmaq əzmindədirlər.

Ağdam rayonunun təsərrüfatlarında isə payız-tarla işləri davam etdirilir. Rayonun taxılçıları gələn ilin məhsulunun əsasını qoyurlar. Hələlik rayon üzrə 17 min 426 hektar payızlıq şum qaldırılıb. 12 min 524 hektarda payızlıq dənlilər, o cümlədən 10 min 772 hektarda buğda, 1752 hektarda dən üçün arpa, həmçinin 1610 hektarda yaşıl yem üçün xəsil əkilib.

Kənd əməkçiləri payız səpinini vaxtında başa çatdırmaq üçün səylə çalışırlar. Səpin işlərinin aparılması üçün rayonda lazımi qədər kənd təsərrüfatı texnikası və toxum ehtiyatı mövcuddur.

Qeyd edək ki, 2018-ci ilin ötən dövründə Ağdam rayonunda 52 min 160 ton taxıl, 275 ton dən üçün qarğıdalı, 6,8 ton günəbaxan dəni, 98 min 469 ton tərəvəz, 2 min 570 ton bostan məhsulları, 5 min 923 ton kartof, 20 min 204,5 ton şəkər çuğunduru, 4 min 65 ton meyvə, 397 ton üzüm istehsal olunub.

Saatlıda da taxıl əkini yekunlaşmaq üzrədir. Səpin kampaniyasına mütəşəkkil başlayan rayon taxılçıları indiyədək 20 min 13 hektar sahəyə toxum səpiblər ki, bu da ötən ilin eyni dövrü ilə müqayisədə 1057 hektar çoxdur.

Səpin aparılan sahələrin 14 min 614 hektarı buğda, 5 min 61 hektarı isə arpa sahəsidir. Əkinçilər bundan sonra daha 500 hektar sahədə səpin aparmaq niyyətindədirlər. Sahibkarlar əkin zamanı daha çox rayonlaşdırılmış toxum sortlarına üstünlük veriblər. Qeyd edək ki, saatlılı taxılçılar ötən il 20 min 438 hektar sahədə payızlıq taxıl əkiblər.

Şamaxı rayonunun əksər ərazilərində də taxılçılar payızlıq əkin kampaniyasını başa çatdırıblar və artıq 34 min 894,5 hektarda səpin aparılıb. Əkin aparılan sahələrin 23 min 426,5 hektarı buğda, 11 min 468 hektarı isə arpadır. Hava şəraitinin törətdiyi çətinliklərə baxmayaraq, əlverişli keçən hər gündən səmərəli istifadə etməyə çalışan taxılçılar bu mühüm kampaniyanı tezliklə başa çatdırmaq üçün bütün qüvvələrini səfərbər ediblər.

Bölgənin bütün ərazilərində, o cümlədən daha çox taxıl əkilən Qızmeydan, Göylər, Çarhan kənd, Sabir qəsəbə ərazi dairələrində, “Aqro DAİRY” MMC-nin aqroparkında ilkin səpin aparılan sahələrdə artıq normal çıxış alınıb.

Ağsu rayonunda da payızlıq taxıl əkini davam edir və bölgənin şimal dağlıq ərazilərində bu mühüm kampaniya artıq başa çatmaq üzrədir. Bu il dekabrın əvvəlinə kimi Ağsuda 25 min 520 hektar sahədə taxıl əkilib. Bunun 11 min 780 hektarı buğda, 13 min 740 hektarı arpadır. Havaların yağmursuz keçdiyi günlərdə hər gün sahələrə 100-dək səpin aqreqatı çıxarılır. Dağlıq ərazilərdə yerləşən Kalva və Nuran icra nümayəndəliklərində, o cümlədən daha çox taxıl əkilən Gəgəli, Kəndoba, Rəhimli, Bozavand, Qaraqoyunlu və digər ərazi vahidlərində taxılçılar əlverişli keçən hər gündən səmərəli istifadə edir, səpin kampaniyasının tezliklə başa çatdırılmasına çalışırlar.

Qeyd edək ki, ötən payızda rayonda 33 min hektardan çox taxıl əkən fermerlər və fiziki şəxslər cari mövsümdə əkin sahələrini 1000 hektaradək artırmaq əzmindədirlər.

Biləsuvarda da payızlıq taxıl əkini davam edir. Səpin kampaniyasına mütəşəkkil başlayan torpaq mülkiyyətçiləri işi optimal müddətdə başa çatdırmaq üçün bütün imkanlardan səmərəli istifadə edirlər.

Yerli fermerlər cari ildə zəmilərdən 83 min ton məhsul götürüblər. Biçin aparılmış sahələrin hər hektarının məhsuldarlığı 33,5 sentner olub. Əkinçilər növbəti təsərrüfat ilində də yüksək məhsuldarlığa nail olmaq üçün səpinə vaxtında başlayıblar. İşin yaxşı təşkili nəticəsində fermerlər az müddətdə 24 min 150 hektar sahəyə toxum səpiblər ki, bu da ötən ilin eyni dövrü ilə müqayisədə 2 min 305 hektar çoxdur. Səpin aparılmış sahələrin 13 min 150 hektarını arpa, 11 min hektarını isə buğda sahəsi təşkil edir. Qeyd edək ki, bu il Biləsuvarda 28 min hektar sahədə payızlıq taxıl əkininin aparılması planlaşdırılır.

Sabirabad rayonunda isə ötən ilin payızında 24 min 645 hektar sahədə taxıl əkilib. Əkinçilər cari ildə biçin apardıqları arpa sahələrindən 38 min 401, buğda zəmilərindən isə 57 min 319 ton məhsul götürüblər. Məhsul istehsalçıları taxıl sahələrindən ümumilikdə 95 min 710 ton taxıl əldə edərək, məhsuldarlığı hər hektardan 40,9 sentnerə çatdırıblar.

Əldə olunan nəticələri növbəti təsərrüfat ilində daha da artırmaq üçün fermer və torpaq mülkiyyətçiləri səpin kampaniyasına vaxtında başlayıblar. “Aqrolizinq” ASC tərəfindən bütün lazımi səpin aqreqatları ilə təmin olunan əkinçilər qısa müddətdə 15 min 527 hektar sahədə səpin aparıblar ki, bunun da 7 min 18 hektarı buğda, 8 min 509 hektarı isə arpadır. Sahibkarlar səpin zamanı daha çox məhsuldar toxum sortlarına üstünlük verirlər. Gün ərzində 200-250 hektar sahəyə toxum səpən əkinçilər səpin kampaniyasını qısa müddətdə başa çatdırmaq üçün bütün qüvvələrini sərf edirlər.

Qəbələ rayonunun təsərrüfatlarında da 2019-cu ilin məhsulu üçün payızlıq taxıl səpini mütəşəkkil davam etdirilir. Fermerlər bu günədək 18 min 700 hektara arpa və buğda səpiblər. Rayonda gələn ilin məhsulu üçün 20 min 100 hektarda payızlıq dənlilərin səpini proqnozlaşdırılır. Payızlıq dənlilərin səpini üçün indiyədək 19 min 500 hektar sahədə şum aparılıb. Hazırda sahələrdə 20 ədəd şum traktoru, 12 ədəd taxılsəpən aqreqat və digər texnikalar işləyir. Fermerlər payız səpinini bir həftə müddətində başa çatdırmağı planlaşdırırlar.

Xatırladaq ki, qəbələli fermerlər builki mövsümdə 20 min 100 hektar taxıl sahəsindən 64 min 464 ton məhsul tədarük ediblər. Hər hektardan orta hesabla 32,2 sentner məhsul götürülüb.

Respublikamızın iri taxılçılıq rayonlarından olan Şəkinin təsərrüfatlarında da 2019-cu ilin məhsulu üçün payızlıq taxıl səpini yekunlaşmaq üzrədir. Fermerlər indiyədək 43 min 280 hektarı buğda, 20 min 200 hektarı arpa olmaqla, 63 min 480 hektar sahəyə toxum səpiblər. Yaxın günlərdə daha 2 min hektarda səpin aparılacağı gözlənilir. Payızlıq dənlilərin səpini üçün rayonun təsərrüfatlarında 65,5 min hektar sahədə şum aparılıb.

İqtisadiyyatının əsasını müxtəlif kənd təsərrüfatı məhsullarının istehsalı təşkil edən Samux rayonunda da bu ilin son ayına kimi 10 min hektarda şum aparılıb, 6 min hektarda isə səpin yekunlaşdırılıb. Səpinin 3 min hektarını arpa, 2 min hektarını buğda, 650 hektarını isə xəsil təşkil edir.

Fermer təsərrüfatlarının sertifikatlı toxumlarla, güzəştli mineral gübrələrlə, suvarma suyu və səpin texnikaları ilə təminatında hər hansı problem yoxdur. Səpinin optimal müddətdə yekunlaşdırılması üçün Samux Dövlət Aqrar İnkişaf Mərkəzində qərargah da yaradılıb.

Ötən il Samux rayonunda hər hektar buğda və arpa sahəsindən orta hesabla 35 sentner məhsul əldə olunub. Vurğulanmaladır ki, şumun keyfiyyətli qaldırılması, torpağın səpin üçün hazırlanması və daha keyfiyyətli toxum materialları ilə istifadə edilməsi bol məhsul üçün zəmin yaradır.

**Pərviz SADAYOĞLU**

# UNEC tələbələri “Gənc investor 2018” III simulyasiya yarışında ilk üç yerin qalibi oldu



Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyinin və Bakı Fond Birjasının (BFB) birgə təşkilatçılığı ilə III simulyasiya yarışı keçirilib.

“İnkişaf bi(r)likdədir!” devizi altında birja ticarəti üzrə keçirilən “Gənc investor 2018” III simulyasiya yarışında UNEC-in tələbələrindən ibarət komandalar da iştirak edib. Simulyasiya yarışı komandalar arasında master-klass təliminin keçirilməsi və birja simulyatoru ilə əməliyyatların aparılması mərhələsindən ibarət olub. Yarışda 19 komanda maliyyə bazarındakı prosesləri modelləşdirib, qiymətli kağızlarla əməliyyat apararaq virtual gəlirlərini artırıblar.

Müsabiqənin sonunda UNEC-in “Inside Wall Street”, “Finans scope” və “Big for” komandaları virtual gəlir məbləğinə görə daha çox mənfəət əldə edərək ilk üç yerin qalibi seçiliblər.

I yerin qalibi Beynəlxalq İqtisadiyyat (İSE) məktəbinin maliyyə ixtisası üzrə 2-ci kurs tələbələri Nicat Alışov (kapitan), Qönçə Muradova, Cavid Xasizadə və Nurlan Mahmudovun təmsil olunduğu “Inside Wall Street” komandasını olub. II yeri Beynəlxalq İqtisadiyyat Məktəbinin maliyyə ixtisası üzrə 2-ci kurs tələbələri Elşad İsmayılov (kapitan), İsa Əlizadə, Tural Kərimov, Elçin Əliyevin “Finans scope” komandası qazanıb. III yerin sahibi olan “Big for” komandasında isə UNEC-in SABAH qrupu İqtisadiyyat (ingilis dilli) ixtisasının 4-cü kurs tələbələri Murad Tağıyev (kapitan), Məhəmməd Xeyirxəbərli, Behbud Məlikov və Gülər Abbasova təmsil olunub.

Simulyasiya yarışının məqsədi fond birjalarının fəaliyyəti ilə gəncləri tanış etmək, tələbələrin biznes sahəsində kommunikativ bacarıqlarını inkişaf etdirmək, investisiya şirkətlərinin vasitəçilik funksiyalarını gənclərə aşılamaq olub.

Yarışın qalibləri Bakı Fond Birjasında təcrübə proqramı keçmək hüququ qazanıb. Qalib komandalara kubok və hədiyyələr təqdim olunub.

# “Bakutel 2018” təşkilatçıları “Bakcell”ə “Ən yaxşı təqdimat” sertifikatı verdi




Azərbaycanın İlk Mobil Operatoru və Ən Sürətli Mobil İnternet Provayderi Bakcell şirkəti “Bakutel-2018” 24-cü Azərbaycan Beynəlxalq Telekommunikasiya, İnnovasiya və Yüksək Texnologiyalar Sərgi və Konfransı zamanı “Ən yaxşı təqdimata” görə xüsusi təşəkkürnamə sertifikatına layiq görülüb.

Bu ilki sərgidə Bakcell stendinin qonaqları innovasiyalar və ən müasir texnologiyalar, rahat və müasir məhsul və xidmətlər və şirkətin son nailiyyətləri ilə tanış olub, bir çox maraqlı müsabiqə, oyun və hətta lotereyada iştirak etmək şansı qazanıblar.

“Bakutel 2018” zamanı Bakcell Azərbaycanda ilk dəfə olaraq “5G-yə hazırlıq” adlanan 4.5G texnologiyası üzərindən təmin olunan 600 Mbps mobil sürətini nümayiş etdirib.

Sərgidəki Bakcell stendini ziyarət edən qonaqlar innovasiya və texnologiyalarla yanaşı şirkətin yeni istifadəyə verilmiş “Mənim Bakcellim” mobil tətbiqetməsi ilə tanış olmaq və xüsusi lotereyada iştirak edib dəyərli hədiyyələr qazanmaq imkanı əldə ediblər. Həmçinin, Bakcell stendində gənc yerli developerlər tərəfindən “AppLab” inkubasiya mərkəzinin dəstəyilə yaradılmış 2 yeni layihə - “Run2Help” və “bilik.az” təqdim olunub. Stendin “Wi-Fi Evinizdə” guşəsində isə sərgi ziyarətçiləri “Bakcell”in yeni təqdim olunmuş Wi-Fi qurğusunun üstünlükləri ilə tanış olub, ölkənin ən sürətli 4G internetindən istifadə etmək və “Virtuall Reallıq” proqramında futbol oynamaq imkanı qazanıblar. Bundan əlavə, stendin qonaqları “Ulduzum” loyallıq proqramına aid labirint oyununda iştirak edərək “Ulduzum” tərəfdaşlarından maraqlı hədiyyələr qazanıblar.

“Bakcell”in “Bakutel 2018” sərgisində iştirakı ilə bağlı hazırlanmış videoçarxa burada baxa bilərsiniz: https://youtu.be/8BMNHvH01j4

Unikal, innovativ və maraqlı məzmun sayəsində Bakcell şirkətinin stendi “Ən yaxşı təqdimat”a görə “BakuTel-2018” sərgisinin təşkilatçısı Caspian Event Organizers (CEO) şirkəti tərəfindən xüsusi təşəkkürnamə sertifikatı ilə təltif olunub.

# “Nar” gənclərə karyera qurmaqda dəstək olur

“Nar” Gənclər Fondunun təşkilatçılığı ilə Beynəlxalq Könüllülər Gününə həsr edilən “Azərbaycan Könüllülərinin Həmrəylik Festivalı”nda iştirak edib. “Nar” gənclərə dəstək məqsədilə festival çərçivəsində təşkil edilən karyera sərgisində media əlaqələri, məhsulların inkişafı, kiçik və orta müəssisələr üzrə satış mütəxəssisi və digər vakant yerlərə sənəd qəbulu təşkil edib.

Dekabrın 7-si keçirilən sərgidə Azerfon MMC (“Nar” ticarət nişanı) ilə yanaşı 60-dan çox şirkət iştirak edib. Sərgi “Azərbaycan Gəncliyi 2017-2021-ci illərdə” Dövlət Proqramı çərçivəsində təşkil edilib. Layihə Heydər Əliyev Fondu, Gənclər Fondu, ASAN Xidmət, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və Təhsil Nazirliyi ilə əməkdaşlıq çərçivəsində Gənclər Fondu tərəfindən icra olunub. Əsas məqsəd gənclərin məşğulluğunun artırılması, iş təcrübəsi olmayan gənclər üçün karyera fürsəti yaratmaq, məşğulluq bacarıqlarını inkişaf etdirməklə, onların iş imkanlarını genişləndirməkdir.



Qeyd edək ki, gənclərə dəstək “Nar”ın korporativ sosial məsuliyyət (KSM) strategiyasının əsas istiqamətlərindən biridir. “Nar”ın davamlı olaraq həyata keçirdiyi KSM layihələri haqqında ətraflı məlumatı nar.az saytından əldə etmək olar.

“Azerfon” şirkəti (“Nar” ticarət nişanı) 21 mart 2007-ci ildə fəaliyyətə başlayaraq qısa bir müddətdə Azərbaycanda telekommunikasiya və mobil rabitə sahəsinin aparıcı şirkətlərindən birinə çevrilib. “Nar” ticarət nişanı Azərbaycanın zəngin mədəni və tarixi irsinin çağdaş həyatla bağlılığının rəmzi olaraq seçilib. “Nar” ölkədə ilk dəfə olaraq 3G texnologiyasını təqdim edib və geniş 4G şəbəkəsini abunəçilərinin istifadəsinə verib. Nar” şəbəkəsi hazırda ölkə ərazisinin 97%-ni (işğal olunmuş ərazilər istisna olmaqla) əhatə edir və 7300-dən artıq baza stansiyası ilə 2,2 milyona yaxın abunəçiyə yüksəkkeyfiyyətli xidmət göstərir.

# Azercell könüllü gənclərlə həmrəy oldu



Gənclərin uğurlu karyera qurması, gənc kadrlarla potensial işəgötürənlər arasında bağ yaratmaq məqsədilə ölkəmizdə təşkil olunan karyera sərgilərinin fəal iştirakçısı olan “Azercell Telekom” MMC daha bir əmək yarmarkasına qatılıb. Azərbaycan Respublikasının Gənclər Fondu, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Azərbaycan Respublikası Təhsil Nazirliyi, Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyi və ASAN Xidmətin birgə təşkilatçılığı ilə “Azərbaycan Könüllülərinin Həmrəylik Festivalı” adlı tədbir çərçivəsində təşkil olunan əmək yarmarkasında Azercell növbəti dəfə gənclərə dəstək olub. Bakı Konqres Mərkəzində baş tutan sərgidə ölkədə fəaliyyət göstərən bütün tələbə-gənclər könüllüləri hərəkatının üzvləri iştirak edib.

“Azercell Telekom” MMC-nin İnsan Resursları Departamentinin əməkdaşları şirkətdə mövcud olan vakansiyalar barədə gəncləri məlumatlandırıb, onları maraqlandıran sualları cavablayıblar, işə qəbul qaydaları, həmçinin, şirkətdə karyera qurmaq imkanlarından da bəhs ediblər.

Qeyd edək ki, Azercell fəaliyyətə başladığı andan etibarən İnsan Qaynaqlarının idarə olunmasında beynəlxalq təcrübədən yararlanıb. Şirkətin bu sahədə apardığı bütün proseslər, mövcud sistem ən müasir tələblərə uyğundur. Azercell əməkdaşları üçün şirkətdaxili və beynəlxalq karyera imkanları, peşəkar inkişaf üçün əlverişli şərait, təcrübə mübadiləsi imkanları yaradır. Hazırda Azercell-in bütün ofislərində işçilər Ətraf Mühit və Təhlükəsizik, İlkin Tibbi Yardım, Yanğından Mühafizə təlimləri ilə bilgiləndirilir, həmçinin sağlamlıqla əlaqəli aksiyalarda (vaksinasiya, qan testi və s.) fəal iştirak edirlər.

Ümumiyyətlə, Azercell işəgötürən şirkət kimi hər bir şəxs üçün perspektivli peşəkar inkişaf proqramı, cəlbedici əmək haqqı və sosial paket təqdim edir. Məhz bu səbəblərdən, daim etibarlı korporativ mədəniyyətə malik olan Azercell artıq ölkə ictimaiyyətində işəgötürən kimi öz brendinə dərin inam yarada bilib. ACT beynəlxalq araşdırma və məsləhətçi şirkətinin apardığı araşdırmalara əsasən ən yaxşı maaş və iş şəraiti, işçilərlə davranış, əməkdaşların inkişaf perspektivləri və digər meyarlar üzrə Azercell ölkəmizdə 3 ən yaxşı işəgötürən şirkətdən biri elan olunub. Mobil operatorlar arasında isə Azercell ən yaxşı işəgötürən şirkətdir.

Eyni zamanda, “Ernst & Young Azerbaijan” şirkətinin tədqiqatları tələbə və peşəkar heyətin seçiminə əsasən Azercell-i ölkədə ən yaxşı 10 işəgötürən şirkətdən biri elan edib. Qeyd edək ki, Azercell ölkədə və MDB məkanında beynəlxalq “İnvestors In People” İnsana Sərmayə Qızıl Sertifikatına layiq görülən yeganə şirkətdir.

## Allah rəhmət eləsin!

Səyyaf Qubadov, Abbas Atakişiyev, Surəddin Hümbətov, İsrafil Məmmədbəyov və Akif Rəsulov tələbə yoldaşları Zahid Məmişova, qardaşı

**Mehdi MEHDİYEVİN**

vaxtsız vəfatı ilə əlaqədar kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
Baş redaktor:
Hikmət BABAOĞLU

www.yeniazerbaycan.com
mail@yeniazerbaycan.com
**Ünvan:** Bakı - AZ-1000, Üzeyir Hacıbəyov - 66
Telefonlar:
598-37-76, 498-82-21
498-81-24, 498-19-84

İndeks: 67100
Lisenziya: N-B-317
Tiraj: 6074
“Kapital Bank”ın Nərimanov rayon filialı
h/h - 33080019443900419109
kod - 200093
VÖEN - 1500486601

İnformasiya mənbələrimiz:
“AZƏRTAC”,
“Azadinform”, “SİA”
Qəzet “Yeni Azərbaycan”ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap edilib.

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Buraxılışa məsul:
Aqşin ŞAHİNOĞLU